KHAZAR REVIEW

# XƏZƏR XƏBƏR

№ 407 İyun 2021



AYLIQ DƏRGİ
ISSN 2218-2772
khazar-review.khazar.org



# AZƏRBAYCAN VƏ TÜRKİYƏ PREZİDENTLƏRİNİN ŞUŞA GÖRÜŞÜ

# MEETING OF TURKISH AND AZERBAIJANI PRESIDENTS IN SHUSHA

İyunun 15-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və xanımı Əminə Ərdoğan Bakıya gəlib, Şuşaya yola düşdülər. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev onları Füzuli rayonunda qarşılayıb, birlikdə Şuşaya getdilər. Həmin gün Şuşada rəsmi qarşılanma mərasimi oldu.

Prezidentlərin təkbətək görüşündən sonra onlar "**AZƏRBAYCAN RESPUBLİKASI İLƏ TÜRKİYƏ RESPUBLİKASI ARASINDA MÜTTƏFİQLİK MÜNASİBƏTLƏRİ HAQQINDA ŞUŞA BƏYANNAMƏSİ**"ni imzaladılar və mətbuata birgə bəyanatlarla çıxış etdilər.

Tədbirdən sonra prezidentlər və xanımları Azərbaycanın tanınmış şəxsiyyətləri Natəvan, Bülbül və Üzeyir Hacıbəylinin heykəllərini ziyarət etdilr, "Xan qızı " bulağında oldular, "Musiqi irsi və Qarabağ atları Cıdır düzündə" adlı musiqili kompozisiyaya baxdılar.

İyunun 16-da prezidentlər və xanımları Bakı Olimpiya Stadionunda Türkiyə millisi ilə Uels yığması arasında Avropa çempionatının futbol oyununa baxdılar.

Oyun başa çatandan sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Prezident Rəcəb Tayyib Ərdoğanı və xanımı Əminə Ərdoğanı yola saldılar.

On June 15, President of the Republic of Turkey Recep Tayyip Erdogan and his wife Emine Erdogan arrived in Baku and headed to Shusha. They were welcomed by the President of the Republic of Azerbaijan Ilham Aliyev in Fizuli region and travelled to Shusha together. They were welcomed by an official ceremony in Shusha.

After a private meeting, Erdogan and Aliyev attended a signing ceremony of "**SHUSHA DECLARATION ON ALLIED RELATIONS BETWEEN THE REPUBLIC OF AZERBAIJAN AND THE REPUBLIC OF TURKEY**", and held a joint press conference.

Following the event, the presidents and their spouses visited the statues of famous Azerbaijani personalities Natavan, Bulbul and Uzeyir Hajibeyli, and the "Khan gizi" spring, watched a musical composition "Musical heritage and Karabakh horses on the Jydyr Duzu".

On June 16, the presidents and their spouses watched the football match of the European Championship between the Turkish national team and the Welsh national team at the Baku Olympic Stadium.

After the game, President Ilham Aliyev and First Lady Mehriban Aliyeva saw the President Recep Tayyip Erdogan and his wife Emine Erdogan off.









# İÇİNDƏKİLƏR


Xəzər Universitetində TRT, AA və YAB rəhbərlərinə təşəkkür plaketi təqdim olundu . . . . 6

Xəzər Universiteti Tələbə Təşkilatı "2021-ci il üzrə Uğurlu Tələbə Təşkilatı Mükafatı"na layiq görülmüşdür . . . . 12

Xəzər Universitetinin tədqiqat işi ABŞ-ın Fullbright proqramının qalibi oldu . . . . 13

"Xəzər"in müəllimi Koreya Dövlətinin Doktorluq Təqaüd Proqramının qalibi oldu . . . . 14

Xaricdə doktorantura təhsili almaq hüququ qazanmış tələbələrlə görüş . . . . 15

Ölkə saytları: "Yüksək hazırlıqlı abituriyentlər özəl ali təhsil müəssisələri arasında Xəzər Universitetinə üstünlük veriblər" . . . . 16

"Xəzər"in bayrağı ən uca zirvədə dalğalandı . . . . 17

"Xəzər"in beynəlxalq əlaqələri . . . . 20

UniLab layihəsi çərçivəsində karyera sərgisi . . . . 28

Universitet xəbərləri . . . . 30

"Xəzər" ölkə mediasında . . . . 38

*Hamlet İsaxanlı*. Mənim Qarabağım və ya Qarabağ düyünü. . . . . 40

*Лейла Мустафаева*. Мультикультурализм и причины его возникновения. . . . . 62

*Sabina Neimetzade Canaslan*. Kadim Sümerlerde Aile ve Kadının Önemi . . . . 68

*İsaxan İsaxanlı*. İt balası (*hekayə*) . . . . 72

*İsaxan İsaxanlı*. Ölümcül məhəbbət (*hekayə*). . . . . 74



1995-ci ilin yanvarından nəşr olunur

**Təsisçi:**
Xəzər Universiteti

**Baş redaktor:**
Hamlet İsaxanlı

**Baş redaktor müavini:**
Əlirza Balayev

**Foto:**
Multimedia Mərkəzi

**Ünvan:**
**Bakı, Məhsəti küçəsi 41**

**Tel.: (+9912 323 93 13**
**(+9912 421 10 93**
**Mob.: (+99450) 321 31 69**

**E-mail: contact@khazar.org**
**Tiraj: 3000**

**Redaksiya heyəti:**
İsa Həbibbəyli
Alla Axundova
Şahin Fazil
Knyaz Aslan

**İngilis dilində mətnlərin redaktoru:**
Zamirə Qurbanova

**Kompüter tərtibatçısı:**
Günel Əkbərova

# CONTENTS

Plaque of Appreciation presented to the heads of TRT, AA and YAB at khazar University . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 6
SPE Khazar University Student Chapter Awarded the "Student Chapter Excellence Award 2021". . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 12
Research Work of Khazar University Wins Fullbright Grant of the United States . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 13
Khazar University Lecturer Wins Korean Government Scholarship Program for Doctoral Studies . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 14
Meeting with Students who Acquired the Right to Study Abroad for Doctorate . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 15
Country Websites: "Highly Trained Enrollees Prefer Khazar University Among Prıvate Higher Education Institutions" . . . . . . . . . 16
Khazar University's Flag at the Summit of Victory. . . . . . . . . . . . . . . . 17
"Khazar"s International Relations. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 21
Career Fair Within the Framework of UniLab Project . . . . . . . . . . . . . 29
University News . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 31
"Khazar"ın Country's Media . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 39
*Hamlet Isakhanli*. My Karabakh or Karabakh Knot (*in Azerbaijani*) . . . . 40
*Leyla Mustafayeva*. Multiculturalism and its Causes (*in Russian*) . . . 62
*Sabina Nematzadah Janaslan*. The Importance of Family and Woman in Ancient Sumerians (*in Turkish*) . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 68
*İsaxan İsakhanlı*. The Puppy (*Novel, in Azerbaijani*) . . . . . . . . . . . . . . . . 72
*İsaxan İsakhanlı*. Deadly love (*Novel, in Azerbaijani*) . . . . . . . . . . . . . . . . 74

**It has been published since January 1995**

**Founder:**
Khazar University

**Editor-in-chief:**
Hamlet Isakhanli

**Associate editor:**
Alirza Balayev

**Photo:**
Multimedia Centre

**Address:**
41 Mahsati str., Baku

Tel.: (+9912 323 93 13
(+9912 421 10 93
Mob.: (+99450) 321 31 69

E-mail: contact@khazar.org
Copies: 3000

**Editorial members:**
Isa Habibbayli
Alla Akhundova
Shahin Fazil
Knyaz Aslan

**Editor of English Texts:**
Zamira Gurbanova

**Computer graphics:**
Gunel Akbarova



## XƏZƏR UNİVERSİTETİNDƏ TRT, AA VƏ YAB RƏHBƏRLƏRİNƏ TƏŞƏKKÜR PLAKETİ TƏQDİM OLUNDU

## PLAQUE OF APPRECIATION PRESENTED TO THE HEADS OF TRT, AA AND YAB AT KHAZAR UNIVERSITY

İyunun 16-da Xəzər Universitetinin Mərmər salonunda Xəzər Universiteti və Türkiyə Məzunu Ziyalılar və İş Adamları Plaftormunun birlikdə təşkilatçılığı ilə Qarabağ uğrunda 44 günlük Vətən Müharibəsində Azərbaycanın haqq səsini dünyaya çatdırmaq üçün göstərdikləri fövqəladə dəstək və fəaliyyətə görə TRT (Türkiye Radyo Televizyon Kurumu), AA (Anadolu Ajansı), qazi və şəhid övladlarının təhsilinə dəstəyi üçün YAB (Yurtdışı türkler ve Akraba topluluklar Başkanlığı) rəhbərlərinə təşəkkür plaketi təqdim olunması münasibətilə tədbir keçirildi. Xəzər Universitetinin müəllimi, tarix elmləri üzrə fəlsəfə doktoru, Türk İslam Araşdırmaları Mərkəzinin sədri Telman Nüsrətoğlunun moderatorluğu ilə keçən tədbirdə universitetin rəhbərliyi, əməkdaşlar, Türkiyə Məzunu Ziyalılar və İş Adamları Plaftormunun nümayəndələri və tədbirə dəvət olunmuş TRT İdarə Heyətinin başqanı və Baş müdiri İbrahim Eren, AA İdarə Heyətinin başqanı və Baş müdiri Serdar Karagöz və YAB Başqanı Abdullah Eren iştirak edirdilər.

*(Ardı səh.8-də)*

On June 16, an event was held at the Marble Hall of Khazar University co-organized by Khazar University and the Platform of Turkish Alumni Intellectuals and Businessmen in order to present a plague of appreciation to TRT (Turkish Radio and Television Corporation) and AA (Anadolu Agency) for their support on conveying the voice of truth to the world in the 44-day Patriotic War, and to YAB ( Presidency for Turks Abroad and Related Communities) for their support on the education of the children of wounded veterans and martyrs. The event moderated by Telman Nusratoglu, a lecturer at Khazar University, Doctor of History, and Chairman of the Center for Turkish-Islamic Studies, was attended by university officials, staff, representatives of the Platform of Turkish Alumni Intellectuals and Businessmen, Chairman and General Manager of TRT Ibrahim Eren, Chairman and General Manager of Anadolu Agency Serdar Karagoz and Chairman of the Presidency for Turks Abroad and Related Communities Abdulah Eren.

*(To be continued page 8)*


TRT


TRT




Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı çıxış edərək, qonaqları və iştirakçıları salamladı, Azərbaycanın Vətən müharibəsi günlərində TRT və AA`nın dünya informasiya məkanında Azərbaycana göstərdikləri misilsiz yardımdan bəhs etdi. 44 günlük Vətən müharibəsində Azərbaycanın yanında olduqlarına və haqq səsini dünyaya çatdırdıqlarına görə İbrahim Eren və Serdar Karagöz`ün Xəzər Universitetinin Təşəkkür plaketi ilə təltif olunduqlarını bildirdi və İbrahim Eren`ə plaketi təqdim etdi. Serdar Karagöz`ə plaketi təqdim edən universitetin rektoru dosent İradə Xəlilova çıxışında qonaqlara təşəkkürünü bildirdi və haqq iş uğrunda fəaliyyətlərində onlara uğurlar arzuladı.

İbrahim Eren və Serdar Karagöz çıxış edərək, Azərbaycan xalqına qardaşlıq duyğularını ifadə etdilər, bundan sonra da daim Azərbaycanın yanında olacaqlarını bildirdilər.

Tədbirdə, eyni zamanda, Türkiyə Məzunu Ziyalılar və İş Adamları Plaftormunun nümayəndələri də Azərbaycanın haqq səsini dünyaya çatdırmaq üçün göstərdikləri dəstəyə görə TRT və AA rəhbərlərinə və azərbaycanlı gənclərin, qazi və şəhid övladlarının təhsilinə dəstəyi üçün YAB başqanı Abdullah Eren`ə təşəkkür plaketi təqdim etdilər.

*(Ardı səh.10-da)*

Professor Hamlet Isakhanli, founder of Khazar University and chairman of the Board of Directors and Trustees, greeted the guests and participants and spoke about the unexampled support provided to Azerbaijan by TRT and Anadolu Agency in the world information space during the Patriotic War of Azerbaijan. Professor Hamlet Isakhanli presented a plaque of appreciation to Ibrahim Eren for their support in the 44-day Patriotic War and conveying the voice of truth to the world. A plague of appreciation was presented to Serdar Karagoz by Associate Professor Irada Khalilova, Rector of the University. Irada Khalilova thanked the guests in her speech and wished them success in their fair work.

Ibrahim Eren and Serdar Karagoz expressed their brotherly feelings to Azerbaijani people and highlighted that they would always stand by Azerbaijan.

At the same time, representatives of the Platform of Turkish Alumni Intellectuals and Businessmen presented a plaque of appreciation to TRT and AA for their support in conveying Azerbaijan's voice of truth to the world and to Abdullah Eren, the Chairman of YAB, for his support on the education of Azerbaijani youth, and the children of wounded veterans and martyrs.

*(To be continued page 10)*


TRT


TRT




Türkiyə Məzunu Ziyalılar və İş Adamları Plaftormunun nümayəndələri adından çıxış edən Araz Aslanlı Türkiyə universitetlərindən məzun olan insanların Türkiyə-Azərbaycan münasibətlərinin yaxınlığından və Türkiyənin dəstəyindən qürur duyduqlarını ifadə etdi. Türkiyə Məzunu Ziyalılar və İş Adamları Plaftormu adından TRT başqanı İbrahim Eren`ə plaketi Xəzər Universitetinin Humanitar, təhsil və sosial elmlər fakültəsinin dekanı, filologiya elmləri üzrə fəlsəfə doktoru, dosent Elza Səmədova, AA genel müdiri Serdar Karagözə plaketi tibb elmləri doktoru, əməkdar həkim, Türk Dünyası Kardioloqlar Birliyinin sədri Firdovsi İbrahimov, YAB başqanı Abdullah Eren`ə plaketi iş adamı Fazir Cəmilli təqdim etdi.

Tədbirin sonunda TRT Bakı təmsilçiliyi professor Hamlet İsaxanlıdan müsahibə aldı. Professor dünyada baş verən mühüm hadisələrdə informasiyanın böyük önəmindən danışdı, TRT və AA`nın bu sahədəki rolunu bir daha vurğuladı.

TRT və AA tədbirdən veriliş və xəbər yayımlamışlar:

Speaking on behalf of the Platform of Turkish Alumni Intellectuals and Businessmen, Araz Aslanli said that graduates of Turkish universities were proud of the support of Turkey and close relationship between two countries.

A plague of appreciation was presented to Ibrahim Eren, Chairman of TRT, by Doctor of Philosophy in Philology, Associate Professor Elza Samadova, Dean of the School of Humanities, Education and Social Sciences at Khazar University, on behalf of the Platform of Turkish Alumni Intellectuals and Businessmen, to Serdar Karagoz, general manager of AA, by Doctor of Medical Sciences, Honored Doctor Firdovsi Ibrahimov, Chairman of the Turkic World Cardiology Association, to Abdullah Eren, the Chairman of YAB, by businessman Fazir Jamilli.

At the end of the event, TRT Baku took an interview from Professor Hamlet Isakhanli. The professor spoke about the importance of information at important events in the world and reiterated the role of TRT and Anadolu Agency in this field.

TRT broadcat a program and AA published news on the event.

https://fb.watch/69-Q0vcbGK/
https://www.aa.com.tr/tr/kurumsal-haberler/azerbaycandan-aa-ve-trtye-odul/2276082


XƏZƏR UN
BAKI






## NMC XƏZƏR UNİVERSİTETİ TƏLƏBƏ TƏŞKİLATI "2021-Cİ İL ÜZRƏ UĞURLU TƏLƏBƏ TƏŞKİLATI MÜKAFATI"NA LAYİQ GÖRÜLMÜŞDÜR

## SPE KHAZAR UNIVERSITY STUDENT CHAPTER AWARDED THE "STUDENT CHAPTER EXCELLENCE AWARD 2021"

Neft Mühəndisləri Cəmiyyətinin (NMC) Xəzər Universiteti Tələbə Təşkilatı "2021-ci il üzrə Uğurlu Tələbə Təşkilatı Mükafatı"na (*"Student Chapter Excellence Award 2021"*) layiq görülmüşdür.

Bu mükafat tələbə təşkilatlarına verilən mükafatlar sırasında ən nüfuzlu ikinci mükafatdır və bütün dünyada mövcud tələbə təşkilatlarının təxminən yalnız 20 faizinə təqdim olunmuşdur.

Qeyd edək ki, NMC Xəzər Universiteti Tələbə Təşkilatı 2005-ci il yanvarın 1-də fəaliyyətə başlamışdır. Təşkilatın məqsədi tələbələri texniki biliklərə dərindən yiyələnməyə, onları dünya miqyasında nüfuzlu neft mütəxəssisləri cəmiyyətləri ilə əlaqə qurmağa sövq etmək və başqa mənfəətlərlə təmin etməkdən ibarətdir.

NMC Xəzər Universiteti Tələbə Təşkilatının 2020-2021-ci il üzrə idarə heyəti aşağıdakı kimidir:

Təşkilatın prezidenti- neft mühəndisliyi ixtisası üzrə 3-cü kurs tələbəsi Ziyəddin Ömərov; Təşkilatın vitse-prezidenti- neft mühəndisliyi ixtisası üzrə 3-cü kurs tələbəsi Diana İsmayılova; Rabitə və Kommunikasiya üzrə rəhbər - neft mühəndisliyi ixtisası üzrə 2-ci kurs magistr tələbəsi İmtiyaz Əhməd; Proqram rəhbəri- neft mühəndisliyi ixtisası üzrə 4-cü kurs tələbəsi Ayan Ağakişizadə; Mühasib - neft mühəndisliyi ixtisası üzrə 3-cü kurs tələbəsi Aqşin Qaraşlı; Ofis meneceri - neft mühəndisliyi ixtisası üzrə 3-cü kurs tələbəsi Rəşad Musayev; Katib- kimya mühəndisliyi ixtisası üzrə 2-ci kurs tələbəsi Zeynəb Fərzizadə.

İdarə heyətinin əzmlə çalışmasının, müxtəlif fəaliyyətlərin həyata keçirilməsi üzrə dinamik üsullardan istifadə etməsinin nəticəsidir ki, təşkilat öz məqsədlərini həyata keçirməyə nail olmuş, "2021-ci il üzrə Uğurlu Tələbə Təşkilatı Mükafatı"na layiq görülmüşdür.

SPE Khazar University Student Chapter was awarded the "Student Chapter Excellence Award 2021". This prestigious award is the second highest honor a student chapter can receive and is awarded to only 20 percent of student chapters around the world.

SPE Khazar University Student Chapter was established on 1st of January in 2005. The mission of the chapter is to provide students with SPE membership which gives them access to the technical and non-technical knowledge besides will keep them in touch with the prestigeous, dynamic community of petroleum professionals worldwide and many other benefits.

The SPE board members 2020-21 of SPE Khazar University Student Chapter are:

Ziyadddin Omarov, 3rd year BSc Petroleum Engineering-President; Diana Ismayilova, 3rd year BSc Petroleum Engineering-Vice President; Imtiaz Ahmed, 2nd year MSc Petroleum Engineering- Communications and Outreach Chairperson; Ayan Aghakishizade,4th year BSc Petroleum Engineering- Program Chairperson; Agshin Garashli,3rd year BSc Petroleum Engineering-Treasurer; Rashad Musayev,3rd year BSc Petroleum Engineering-Officer; Zeynab Farzizadeh,2nd year BSc Chemical Engineering-Secretary.

Because of hard work the SPE Khazar Board put into the chapter, their robust approach to different activities makes it possible to achieve this goal. The chapter has won the "Student Chapter Excellence Award 2021".

## XƏZƏR UNİVERSİTETİNİN TƏDQİQAT İŞİ ABŞ-IN FULLBRIGHT PROQRAMININ QALİBİ OLDU

## RESEARCH WORK OF KHAZAR UNIVERSITY WINS FULLBRIGHT GRANT OF THE UNITED STATES

Xəzər Universitetinin " Azərbaycanda toyuq əti və yumurtadan ayrılmış antibiotikə davamlı bakteriyaların ştamlarının molekulyar bioloji üsullarla tədqiqi" adlı tədqiqat işi ABŞ-ın Fullbright proqramının qalibi olub.

Tədqiqat işi 2018-2020-ci illəri əhatə etməklə Xəzər Universitetinin maliyyə dəstəyi ilə universitetin Həyat elmləri departamentinin hüceyrə patologiyasını öyrənən laboratoriyasında başlanılmış və marketlərdə satılan toyuq və yumurtadan 3 cinsdən 8 antibiotikə davamlı bakteriya izolyasiya olunmuşdur. Tədqiqat universitetin rektoru dosent İradə Xəlilovanın rəhbərliyi ilə departamentin müdiri Asəf Ömərov, müəllimi Cavid Ojaqi və doktorantura tələbələri Mujan Sərpoush və Həvva Adli tərəfindən aparılmışdır.

Tədqiqatın nəticələri I və II Vahid sağlamlıq konfranslarında, "Baytarlıq elminin inkişaf istiqamətlərində innovasiyaların tətbiqi" mövzusunda beynəlxalq elmi-praktiki konfransda və "American Society for Microbiology (ASM) meeting 2020 in Chicago, USA" konfransında məruzə edilmiş və "Khazar Journal of Science and Technology" buraxılışlarında dərc olunmuşdur. Tədqiqatın II mərhələsi - ayrılmış bakteriyaların molekulyar bioloji metodlar ilə tədqiqi Fullbright proqramının maliyyə dəstəyi ilə ABŞ-ın Texas Teylor Universitetinin professoru Ali Asghan`in rəhbərliyi ilə TU laboratoriyasında aparılacaqdır.

The research work of Khazar University entitled "Molecular detection of antimicrobial resistance in bacterial (Salmonella spp, Enterococcus and E. coli) strains isolated from chicken meat and eggs in Azerbaijan" won the Fullbright Program of the United States.

The research, covering the years 2018-2020, was conducted in the laboratory of the Department of Life Sciences with the financial support of Khazar University, and 8 antibiotic-resistant bacteria in 3 strains (Salmonella spp, Enterococcus and E. coli) were isolated from chicken and eggs sold in the markets. The research was conducted by the rector of the university, associate professor Irada Khalilova, the head of the department Asaf Omarov, the lecturer Javid Ojaghi and doctoral students Mujan Sarpoush and Havva Adli.

The results on the research were presented at the I and II Unified Health Conferences, the International Scientific-Practical Conference on "Application of Innovations in the Development of Veterinary Science" and the American Society for Microbiology (ASM) meeting 2020 in Chicago, USA and published in the Khazar Journal of Science and Technology. Second part of the research, the study of isolated bacteria through molecular biological methods, will be conducted in the TU laboratory with the financial support of the Fullbright program under the guidance of Ali Asghan, Professor of the University of Texas at Tyler, USA.

## DEPARTAMENT MÜDİRİ "AZƏRSU" ASC YANINDA İCTİMAİ ŞURAYA ÜZV SEÇİLİB

## HEAD OF THE DEPARTMENT ELECTED A MEMBER OF THE PUBLIC COUNCIL UNDER "AZERSU" OJSC

Xəzər Universitetinin Coğrafiya və ətraf mühit departamentinin müdiri, "Sağlam Həyata Doğru" Ekoloji İctimai Birliyinin sədri Rövşən Abbasov keçirilmiş seçkilərdə "Azərsu" Açıq Səhmdar Cəmiyyəti yanında İctimai Şuraya üzv seçilib.

Qeyd edək ki, "Azərsu" ASC yanında İctimai Şuraya üzvlüklə bağlı seçkilərdə 11 üzv yerinə vətəndaş cəmiyyəti institutlarının 16 nümayəndəsi namizəd kimi qeydə alınmışdı.

Rovshan Abbasov, Head of the Department of Geography and the Environment at Khazar University and Chairman of the Ecological Public Association "Sağlam Həyata Doğru" (Towards a Healthy Life), was elected a member of the Public Council under Azersu Open Joint-Stock Company in the election held on .

It should be noted that in the election, 16 representatives from civil society institutions were registered as candidates for the position of 11 members to the Public Council under Azersu OJSC.

# "XƏZƏR"İN MÜƏLLİMİ KOREYA DÖVLƏTİNİN DOKTORLUQ TƏQAÜD PROQRAMININ QALİBİ OLDU

# KHAZAR UNIVERSITY LECTURER WINS KOREAN GOVERNMENT SCHOLARSHIP PROGRAM FOR DOCTORAL STUDIES

Xəzər Universiteti Coğrafiya və ətraf mühit departamentindən 2016-cı ildə məzun olmuş, sonra magistr dərəcəsini Bakı Dövlət Universitetinddə almış və hal-hazırda departamentdə müəllim kimi çalışan Gunay Kərimova Koreya Dövlətinin Doktorluq Təqaüd Proqramının qalibi olmuşdur.

Bu rəqabətli proqramda qalib olan Günay Kərimova növbəti 4 ili Koreya Universitetinin PhD tələbəsi kimi oxuyacaq və doktorluq dərəcəsi alacaq.

Qeyd edək ki, Koreya Unievrsiteti dünyanın ilk 100 universiteti sırasında ilk əllilikdə yer alır və Koreyanın SKY universiteti hesab olunur.

Gunay Karimova, who graduated from Khazar University's Department of Geography and Environment in 2016, then got a master's degree from Baku State University and currently is working as a teacher in the department, won the Korean Government Scholarship Program for Doctoral Studies.

Gunay Karimova, the winner of this competitive program, will study for the next 4 years as a PhD student at Korea University and receive her doctoral degree.

It should be noted that Korea University is ranked 50th among top 100 universities worldwide and is one of the SKY Universities in South Korea.

# "MÜHƏNDİSLƏR ÜÇÜN BİZNES TƏHSİLİ" LAYİHƏSİNİ BİTİRƏNLƏRƏ SERTİFİKAT TƏQDİM OLUNDU

# GRADUATES OF "BUSINESS EDUCATION FOR ENGINEERS" PROJECT AWARDED CERTIFICATES

Bakı Ali Neft Məktəbinin (BANM) və bp şirkətinin birgə təşkilatçılığı ilə reallaşdırılan "Mühəndislər üçün biznes təhsili" layihəsinin növbəti kursu yekunlaşıb.

Bakı Ali Neft Məktəbini, ADA Universiteti, Azərbaycan-Fransız Universiteti (UFAZ), Bakı Mühəndislik Universiteti, Xəzər Universiteti və Azərbaycan Dövlət Neft və Sənaye Universitetindən olan və kursu uğurla bitirən iştirakçılara iyunun 18-də sertifikat təqdim olunub. İştirakçılara sertifikatları təqdim edən BANM rektoru Elmar Qasımov onları təbrik edib.

"Mühəndislər üçün biznes təhsili" layihəsinin əsas məqsədi mühəndislik ixtisası üzrə təhsil alan tələbələrin liderlik və idarəetmə bacarıqlarının inkişaf etdirilməsi və karyera imkanlarının genişləndirilməsidir.

Ölkənin bir sıra saytları tədbirdən xəbər yayımlamışdır.

The next course of the "Business Education for Engineers" project jointly organized by Baku Higher Oil School (BHOS) and BP was completed.

Participants from Baku Higher Oil School, ADA University, Azerbaijani-French University, Baku Engineering University, Khazar University, and Azerbaijan State Oil and Industry University who had successfully completed the course were awarded certificates on June 18. Rector of Baku Higher Oil School Elmar Gasimov presented certificates to the participants and congratulated them.

The "Business Education for Engineers" project aims to develop leadership and management skills of engineering students, as well as to expand their career opportunities.

A number of country websites covered the event and published news:

*https://azpress.az/index.php?lang=az&sectionid=news&id=110335*

# XARİCDƏ DOKTORANTURA TƏHSİLİ ALMAQ HÜQUQU QAZANMIŞ TƏLƏBƏLƏRLƏ GÖRÜŞ

# MEETING WITH STUDENTS WHO ACQUIRED THE RIGHT TO STUDY ABROAD FOR DOCTORATE DEGREE

"2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" çərçivəsində xarici ali təhsil müəssisələrində təhsilləri başa çatdıqdan sonra Xəzər Universitetində pedaqoji fəaliyyətə cəlb olunmaları ilə bağlı razılıq məktubu təqdim olunmuş və müsabiqədən uğurla keçmiş namizədlərlə 2021-ci il iyunun 22-də onlayn görüş keçirilmişdir.

Görüşdə Xəzər Universitetinin rektoru və yüksək təhsil fakültələrinin əməkdaşları iştirak etmişdir. Universitetin rektoru dosent İradə Xəlilova doktorantları təbrik edərək, yeni tədris ilində onlara uğurlar arzulamışdır. Sonra proqramın şərtlərinə əsasən bağlanmış üçtərəfli müqavilənin tələblərinin icra olunması, doktorantların öhdəlikləri və s. kimi məsələlər müzakirə olunmuşdur.

Qeyd edək ki, müsabiqədən əvvəl proqramla bağlı Xəzər Universitetinə çoxsaylı namizədlər müraciət etmiş, onların tədqiqat sahələri və planları ilə tanışlıq, habelə ixtisas uyğunluğunun dəqiqləşdirilməsi məqsədilə görüşlər keçirilmiş və uyğun namizədlərə təhsilləri başa çatdıqdan sonra universitetdə pedaqoji fəaliyyətə cəlb olunmalarına razılığı təsdiq edən məktub təqdim olunmuşdur. Müraciət edən namizədlərin 4 nəfəri müsabiqədən uğurla keçmişdir. Belə ki, müsabiqənin nəticəsinə əsasən Laləxanım Orucovanın Amerika Birləşmiş Ştatlarının Cənubi Florida Universitetində "Təhsilin idarəedilməsi", Aygün Bədəlovanın Birləşmiş Krallığın London Universitet Kollecində "Neyroşünaslıq, fiziologiya və farmakologiya", Osman Qarayevin Türkiyə Cümhuriyyətinin İstanbul Universitetinin Sosial Bilimler İnstitutunda "İqtisadiyyat", Sərdar Əsədovun isə Amerika Birləşmiş Ştatlarının Tulsa Universitetində "Neft mühəndisliyi" ixtisası üzrə doktorantura təhsilinin Dövlət Proqramı çərçivəsində maliyyələşdirilməsi qərarı verilmişdir.

Bütün qalibləri Xəzər Universitetinin əməkdaşları adından təbrik edir və təhsillərində müvəffəqiyyətlər arzulayırıq!

An online meeting was held on June 22 with successful candidates who submitted a letter of consent to Khazar University to be involved in pedagogical activities after completing their studies at foreign universities within the framework of the State Program for Enhancing the International Competitiveness of the Higher Education System in the Republic of Azerbaijan for 2019-2023.

The meeting was attended by the rector of Khazar University and employees of higher education faculties. Rector of the University, Associate Professor Irada Khalilova congratulated the doctoral students and wished them success in the new academic year. Then the issues as the implementation of the requirements of the tripartite agreement concluded under the terms of the program, the obligations of doctoral students, etc. were discussed.

Note that before the competition many candidates applied to Khazar university for the program, several meetings were held to get acquainted with their research areas and plans, and clarify their qualifications, and then the suitable candidates were given a letter confirming their consent to be involved in pedagogical activities at the university after completing their studies. As per results of competition, it has been decided to finance doctoral education of the following students within the State Program: Lalakhanim Orujova "Education Management" at the University of South Florida in the USA, Aygun Badalova "Neuroscience, Physiology and Pharmacology" at the University College London in the UK, Osman Garayev's "Economics" at the Institute of Social Sciences, Istanbul University, Turkey, Sardar Asadov "Petroleum Engineering" at the University of Tulsa.

We congratulate all the winners on behalf of Khazar University staff and wish them success in their studies!

## ÖLKƏ SAYTLARI: "YÜKSƏK HAZIRILIQLI ABİTURİYENTLƏR ÖZƏL ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİ ARASINDA XƏZƏR UNİVERSİTETİNƏ ÜSTÜNLÜK VERİBLƏR"

2021-ci il iyunun 23-də bir sıra ölkə saytları "Abituriyent" jurnalının 2020-ci il 12-ci nömrəsində çap olunmuş 2020-2021-ci tədris ili üçün tələbə qəbulu üzrə imtahanların nəticələrinin elmi-statistik təhlilinə əsalanaraq, analitik məqalələr dərc etmişlər.

Məqalələrdə göstərilir ki, "Özəl ali təhsil müəssisələri arasında yüksək hazırılıqlı abituriyentlər Xəzər Universitetinə üstünlük veriblər. Ötən il bu universitetin ixtisaslarına qəbul olan abituriyentlərin orta bal göstəriciləri I qrup üzrə 459.558, II qrup üzrə 335.947, III qrup üzrə 384.276 və IV qrup üzrə 386.525 bal olub. Xəzər Universiteti istisna olmaqla, digər özəl ali təhsil müəssisələrinə və regionlarda fəaliyyət göstərən dövlət ali təhsil müəssisələrinə qəbul olan abituriyentlərin orta bal göstəriciləri bundan aşağı olub."

Məqalələrdə, həmçinin qeyd olunur ki, 600 baldan yuxarı nəticə göstərən abituriyentlər özəl ali təhsil müəssisələri arasında ən çox Xəzər Universitetini (14 nəfər) seçiblər.

*https://apa.az/az/xeber/sosial-xeberler/oten-il-ii-qrupa-qebul-olanlar-arasinda-zeif-hazirliqli-abituriyentler-coxalib-649515*

*https://www.istiqlal.az/yuks%c9%99k-bal-toplayan- abituriyentl%c9%99rl%c9%99-bagli-statistik-gost%c9%99ricil%c9%99r-aciqlanib/*

*https://ayna.az/news/30102*

*https://yenicag.az/dim-den-ozel-universitetlere-muraciet-bu-telebelere-guzest-edilmelidir/* və s.

## COUNTRY WEBSITES: "HIGHLY TRAINED ENROLLEES PREFER KHAZAR UNIVERSITY AMONG PRIVATE HIGHER EDUCATION INSTITUTIONS"

On June 23, 2021, a number of national websites published analytical articles based on the scientific and statistical analysis of the results of student entrance exams for the 2020-2021 academic year, published in the 12th issue of the magazine "Abiturient" ("Enrollee")in 2020.

The articles state, "Highly trained applicants preferred Khazar University among private higher education institutions. Last year, the average score of the entrants admitted to the specialties of this university was 459,558 points for group I, 335,947 points for group II, 384,276 points for group III and 386,525 points for group IV. With the exception of Khazar University, the average scores of applicants admitted to other private higher education institutions and public higher education institutions operating in the regions were lower."

The articles also note that entrants with a score of more than 600 chose Khazar University (14 people) as the largest private university.

*https://apa.az/az/xeber/sosial-xeberler/oten-il-ii-qrupa-qebul-olanlar-arasinda-zeif-hazirliqli-abituriyentler-coxalib-649515*

*https://www.istiqlal.az/yuks%c9%99k-bal-toplayan- abituriyentl%c9%99rl%c9%99-bagli-statistik-gost%c9%99ricil%c9%99r-aciqlanib/*

*https://ayna.az/news/30102*

*https://yenicag.az/dim-den-ozel-universitetlere-muraciet-bu-telebelere-guzest-edilmelidir/* etc.




## "XƏZƏR"İN BAYRAĞI ƏN UCA ZİRVƏDƏ DALĞALANDI

## KHAZAR UNIVERSITY'S FLAG AT THE SUMMIT OF VICTORY

İyunun 18-20-də Bakı Dağçılıq Klubunun (Baku Alpine Club) təşkilatçılığı ilə bir qrup gənc Azərbaycanın ən hündür dağ yüksəkliyi olan Bazardüzü (4466 m) və Zəfər (4301 m) zirvələrində olmuşdur. Ekspedisiyanın iştirakçısı - Xəzər Universiteti MBA məzunu, İqtisadiyyat və biznes yüksək təhsil fakültəsinin dekan assistenti Nazilə Əliyeva Xəzər Universitetinin bayrağını Azərbaycanın ən yüksək nöqtəsində dalğalandırmışdır.

Qeyd edək ki, Bazardüzü zirvəsi Böyük Qafqaz dağlarının Baş Qafqaz silsiləsində, Rusiya Federasiyası ilə sərhəddə, Qusar rayonunun ərazisində yerləşir. Azərbaycanın 44 günlük Vətən müharibəsində qələbəsi şərəfinə Bazardüzü zirvəsindən şərqdə yerləşən adsız yüksəkliyə isə 2021-ci il fevralın 9-da rəsmi olaraq Zəfər zirvəsi adı verilmişdir.

Ekspedisiya iştirakçıları Zəfər zirvəsində Vətən müharibəsi şəhidlərinin xatirəsini yad etmiş, müzəffər Azərbaycan ordusunun döyüşçülərinə minnətdarlıq bildirmişlər.

On June 18-20, a group of young people climbed the highest peaks of Azerbaijan, Bazarduzu (4466 m) and Zafar (4301 m) with the coordination of the Baku Mountaineering Club. Nazila Aliyeva, the participant of the expedition, Khazar University MBA graduate, Assistant Dean of the School of Economics and Business, waved the Khazar University flag at the highest point in Azerbaijan.

Note that Bazarduzu peak is located in the Main Caucasus Range of the Greater Caucasus Mountains, on the border with the Russian Federation, in Gusar region. The unnamed peak on the east of Bazarduzu Peak was officially named Victory Peak on February 9, 2021 In honor of Azerbaijan's victory in the 44-day Patriotic War.

The participants of the expedition commemorated the martyrs of the Great Patriotic War at the summit of Victory and thanked the soldiers of the victorious Azerbaijani army.

## REKTOR "AZƏRBAYCAN ARXEOLOGİYASI" JURNALININ REDAKSİYA HEYƏTİ İLƏ GÖRÜŞ KEÇİRDİ

## RECTOR MET WITH THE EDITORIAL STAFF OF "AZERBAIJAN ARCHEOLOGY" MAGAZINE

İyunun 22-də Xəzər Universitetinin rektoru dosent İradə Xəlilova universitetin nəşri olan "Azərbaycan Arxeologiyası" jurnalının redaksiya heyəti ilə görüş keçirdi. Görüşdə jurnalın baş redaktoru Qüdrət İsmayılzadə, redaktor köməkçisi Tarix Dostiyev, jurnalın xüsusi "Qarabağ nömrəsi" üzrə məsul şəxs Emil İskəndərov və Tarix və arxeologiya departamentinin koordinatoru Orxan Zamanov iştirak edirdilər.

Görüşdə jurnalın fəaliyyəti, uğurları və problemləri barədə ətraflı danışıldı. Çatışmazlıqların aradan qaldırılması istiqamətində müzakirələr aparıldı. Jurnalın beynəlxalq səviyyədə tanınması, yeniliklər və qarşıya qoyulan hədəflər üçün görüləcək işlər planlaşdırıldı.

On June 22, Associate Professor Irada Khalilova, Rector of Khazar University, met with the editorial staff of the university's journal, "Azerbaijan Archeology". The meeting was attended by Gudrat Ismayilzade, editor-in-chief of the magazine, Tarikh Dostiyev, assistant editor, Emil Iskandarov, the person in charge of the special "Karabakh issue" and Orkhan Zamanov, coordinator of the Department of History and Archeology.

The activities, successes and problems of the magazine as well as the ways to eliminate the shortcomings were discussed in detail at the meeting. Works to be done for the international recognition of the magazine, innovations and goals were planned.

## PROFESSOR HAMLET İSAXANLI BEYNƏLXALQ KONFRANSDA

## PROFESSOR HAMLET ISAKHANLI IN INTERNATIONAL CONFERENCE

İyunun 25-də Gəncədə Azərbaycan Dövlət Aqrar Universitetində (ADAU) "Nizami Gəncəvi İli" çərçivəsində xarici və ölkə alimlərinin iştirakı ilə "Nizami Gəncəvinin əsərlərində ümumbəşəri ideyalar" adlı beynəlxalq elmi-praktik konfrans keçirilib.

Onlayn formatda keçirilən konfransda yerli universitetlərdən, Türkiyə, Özbəkistan, Norveç, Rumıniya, Tatarıstan, Sloveniya və Hindistandan tanınmış alimlər və mütəxəssislər iştirak ediblər.

ADAU-nun rektoru, AMEA-nın müxbir üzvü, professor İbrahim Cəfərov konfrans iştirakçılarını salamlayaraq, Nizami Gəncəvinin ümumbəşəri mahiyyət daşıyan, ecazkar poetik qüvvəyə malik yaradıcılığının nəinki ölkəmizdə, dünya ədəbiyyatında da əvəzsiz yeri olduğundan söz açıb.

Yerli və xarici mütəxəssislər çıxış edərək, Nizami Gəncəvinin fenomenal bəşəri irsindən, humanizm, insana məhəbbət, yüksək əxlaq, estetik zövq, tərbiyə və bilik mənbəyi olan əsərlərindən danışıblar.

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı konfransda "Nizaminin ideya, coğrafiya və tarix dünyası" ("Nizami's world of ideas, geography, and history") mövzusunda çıxış edib.

Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə 2021-ci il Azərbaycanda "Nizami Gəncəvi İli" elan olunub və ölkədə silsilə tədbirlər keçirilməsi davam edir.

*AZƏRTAC* və digər saytlar tədbir haqqında ətraflı xəbər yayımlamışlar.

On June 25, the Azerbaijan State Agricultural University (ASAU) hosted an international scientific-practical conference entitled "Universal ideas in the works of Nizami Ganjavi" with the participation of foreign and local scientists within the framework of "Year of Nizami Ganjavi" in Ganja.

The online conference was attended by well-known scientists and experts from local universities and Turkey, Uzbekistan, Norway, Romania, Tatarstan, Slovenia and India.

Professor Ibrahim Jafarov, rector of ADAU, corresponding member of ANAS, greeted the conference participants and spoke about Nizami Ganjavi's universal and miraculous poetic work, which has an unparalelled place ot only in our country, but also in world literature.

In their speeches local and foreign experts spoke about Nizami Ganjavi's phenomenal human heritage and his works as a source of humanism, love for people, high morals, aesthetic pleasure, education and knowledge.

Professor Hamlet Isakhanli, founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, delivered a speech at the conference on «Nizami's world of ideas, geography, and history."

Note that by the Order of the President of the Republic of Azerbaijan Ilham Aliyev, 2021 has been declared as "Year of Nizami Ganjavi" in Azerbaijan and a series of events continue to be held in the country.

*AZERTAC* and other sites published detailed news about the event.

***https://azertag.az/xeber/Aqrar_Universitetde_Nizami_Gencevi_Ili_quot_cherchivesinde_beynelxalq_elmi_praktik_konfrans_kechirilib-1816639***



## ELMİN İNKİŞAFI FONDUNUN QRANTINI QAZANMIŞ LAYİHƏNİN TƏDQİQAT İŞLƏRİ DAVAM ETDİRİLİR

## RESEARCH WORK OF THE PROJECT, WINNING GRANT FROM THE SCIENCE DEVELOPMENT FOUNDATION, IS UNDERWAY

"Azərbaycan Respublikasının Prezidenti yanında Elmin Inkişafı fondunun" Elm-Təhsil-Sənaye" məqsədli qrantını qazanmış "Qarabağ və Dilbaz at cinslərinin genom profilinin tədqiqi: Genetik markerlərin, allel variasiyalarının aşkar edilməsi və seleksiyada istifadəsi" layihəsinin Xəzər Universiteti, Azərbaycan Baytarlıq Elmi Tədqiqat İnstitutu, Qarabağ Atçılıq və Dilbaz Atçılıq kompleksləri tərəfindən birgə tədqiqat işləri davam etdirilir.

Layihə çərçivəsində iyun ayında Qarabağ və Dilbaz atlarının fenotipik uyğun olan fərdlərinin Qarabağ Atçılıq və Dilbaz Atçılıq Komplekslərində seçilməsi və məlumatların qurulmuş elektron məlumat bazasına daxil edilməsi həyata keçirilib. Bu mərhələdə atların bonitirovkası həyata keçirilmiş və Qarabağ və Dilbaz at cinslərinin genom profilinin tədqiqi üçün hər iki cinsin hərəsindən bir fərd seçilərək, qeydiyyata götürülmüşdür. Məlumatların daxil edilməsi üçün elektron məlumat bazası qurulmuşdur. Növbəti mərhələdə elektron çipi olmayan fərdlərin çiplənməsi həyata keçiriləcəkdir.

Khazar University, Azerbaijan Veterinary Research Institute, Karabakh Equestrian and Dilbaz Equestrian Complexes continue the joint study of the project "Studying genome profile of Karabakh and Dilbaz horse breeds: Identification and utilization of genetic markers and allele variations in breeding programs" that won the "Science-Education-Industry" grant competition of the Science Development Fund under the President of the Republic of Azerbaijan. In June, within the framework of the project phenotypically compatible individuals of Karabakh and Dilbaz horses were selected at the Karabakh Equestrian and Dilbaz Equestrian Complexes and the data were entered into an electronic database. At this stage, the horses were appraised and to study the genome profile of the Karabakh and Dilbaz horse breeds one individual from each breed was selected and registered. An electronic database was set up for data entry. The next step will be chipping individuals who do not have an electronic chip.

Erasmus+

## *ERASMUS+ ECAR* LAYİHƏSİNİN İLK İDARƏETMƏ GÖRÜŞÜ

## THE FIRST BOARD MEETING OF *ERASMUS+ ECAR* PROJECT

Mayın 4-də Xəzər Universitetinin tərəfdaş olduğu *Erasmus+ ECAR* (Establishment of Rectors Conference in Azerbaijan - Azərbaycanda Rektorlar Assosasiyasının yaradılması) layihəsinin ilk idarəetmə görüşü keçirilmişdir. Layihənin koordinatoru Bakı Biznes Universitetidir və layihədə Azərbaycandan adı qeyd edilmiş universitetlərdən başqa, Azərbaycan Turizm və Menecment Universiteti, Bakı Mühəndsilik Universiteti, Baki Ali Neft Məktəbi, Bakı Avrasiya Universiteti, Azərbaycan Dillər Universiteti, Lənkəran Dövlət Universiteti, Azərbaycan Mədəniyyət və İncəsənət Universiteti, Naxçıvan Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Azərbaycan Texniki Universiteti, Azərbaycan Texnologiya Universiteti, Azərbaycan Universiteti və Odlar yurdu Universiteti olmaqla 15 tərəfdaş universitet vardır. Polşa, Belçika, Fransa, İsveç və Litvadan universitetlər və rektorlar assosasiyaları da layihənin tərəfdaşlarıdır.

Layihənin idarəetmə görüşündə layihə tərəfdaşlarının rektorları və əməkdaşları ilə yanaşı, Azərbaycan Respublikası təhsil nazirinin müavini Firudin Qurbanov, Avropa İttifaqi Azərbaycan Nümayəndəliyinin rəhbəri Kestutis Jankauskas, Polşanın Azərbaycandakı səfiri Rafał Poborski, Fransanın Azərbaycandakı səfiri Zacharie Gross, Litvanın Azərbaycandakı səfiri Egidijus Navikas, Azərbaycan Milli Erasmus Ofisinin rəhbəri Pərviz Bağırov iştirak etmişlər..

Bakı Biznes Universitetinin rektoru prof. İbad Abbasovun çıxışı ilə başlayan görüş digər natiqlərin təqdimatları və çıxışları ilə davam etdi. Xəzər Universitetinin rektoru dosent İradə Xəlilova qonaqları salamlayaraq, layihənin işində bütün tərəfdaşlara uğurlar arzuladı. Xəzər Universitetindən görüşdə, həmçinin, İnkişaf Mərkəzinin direktoru Raziyə İsayeva və Təlim və Tədris Mərkəzinin direktoru Ülkər Bayramova iştirak etdilər.

Qeyd edək ki, üç il davam edəcək layihnin əsas məqsədi Azərbaycan Universitetləri Assosasiyasını yaratmaqla universitetlərin birgə fəaliyyətini daha da gücləndirməkdən ibarətdir. Layihə işini 5-6 may tarixlərində də davam etdirəcək və layihədə nəzərdə tutulmuş işlər müzakirə olunacaq, növbəti altı ayda həyata keçiriləcək işlərin planı müəyyənləşdiriləcəkdir.

On May 4, the first meeting of the *Erasmus + ECAR* (Establishment of Rectors Conference in Azerbaijan) project, to which Khazar University is a partner, was held. The project coordinator is Baku Business University, and in addition to the Azerbaijani universities named in the project there are 15 universities including Azerbaijan Tourism and Management University, Baku Engineering University, Baku Higher Oil School, Baku Eurasia University, Azerbaijan University of Languages, Lankaran State University, Azerbaijan University of Culture and Arts, Nakhchivan University, Azerbaijan State Pedagogical University, Azerbaijan Technical University, Azerbaijan Technological University, Azerbaijan University and “Odlar Yurdu” University. Associations of universities and rectors from Poland, Belgium, France, Sweden and Lithuania are also partners in the project.

Along with the rectors and staff of the project partners, Deputy Minister of Education of the Republic of Azerbaijan Firudin Gurbanov, Head of the EU Delegation to Azerbaijan Kestutis Jankauskas, Polish Ambassador to Azerbaijan Rafał Poborski, French Ambassador to Azerbaijan Zacharie Gross, Lithuanian Ambassador to Azerbaijan Egidijus Navikas, Head of the Azerbaijan National Erasmus Office Parviz Bagirov attended the meeting.

The meeting began with a speech by the Rector of Baku Business University, Prof. Ibad Abbasov, and continued with presentations and speeches by other speakers. Rector of Khazar University, Associate Professor Irada Khalilova, greeted the guests and wished success to all partners in the project. In the meeting Khazar University was also represented by Raziya Isayeva, Director of the Development Center, and Ulkar Bayramova, Director of the Teaching and Learning Center.

It should be noted that the main purpose of the three-year project is to strengthen the joint activities of universities by creating the Association of Azerbaijani Universities. The project will continue on May 5-6 and the work envisaged in the project will be discussed, and a plan of work for the next six months will be determined.

PICASP
Erasmus+ Project

## *ERASMUS+ PICASP* LAYİHƏSİNİN KOORDİNATORLARI İLƏ GÖRÜŞ

## MEETING WITH *ERASMUS+ PICASP* PROJECT COORDINATORS

Mayın 7-də Xəzər Universitetinin tərəfdaş olduğu *Erasmus+PICASP* layihəsi koordinatorları ilə virtual görüş keçirilmişdir. Görüşdə Xəzər Universitetinin əməkdaşları ilə yanaşı, Azərbaycan Turizm və Menecment Universitetinin və Miras İctimai Birliyinin nümayəndələri də iştirak etmişlər. Görüşün keçirilməsində əsas məqsəd *Erasmus+PICASP* layihəsi çərçivəsində Xəzər Universiteti və Miras İctimai Birliyinin təşkilatçılığı ilə həyata keçirilməsi nəzərdə tutulmuş tədbirləri müzakirə etmək olmuşdur.

Müzakirələr zamanı Azərbaycan Turizm və Menecment Universitetinin də bu tədbirlərə qoşulması və bütün Azərbaycan tərəfdaşlarının tədbirləri birlikdə təşkil etməsi fikri dəstəklənmiş və iyun - iyul aylarında keçiriləcək tədbirlərin mövzuları və hədəf qrupları haqqında qərar verilmişdir.

Layihə tərəfdaşları nəzərdən keçiriləcək tədbirlərin planını və gündəliyini hazırlayaraq, yenidən müzakirəyə çıxarmaq və sonra tədbirlərin elanını dərc etmək haqqında razılığa gəlmişlər. Layihə koordinatorları layihə çərçivəsində daha çox hansı mövzuda tədbirlər keçirilməsi haqqında məsləhətlərini vermiş, Azərbaycanda layihə çərçivəsində milli konfransın hazırlığına başlamağı tövsiyə etmişlər.

Görüşdə Xəzər Universitetini Dr. Ceyhun Məmmədov, Ülkər Bayramova, Dr. Bahadır Baysal, Səbinə Quliyeva və Elnurə Əhmədzadə təmsil etmişlər.

On May 7, a virtual meeting was held with *Erasmus + PICASP* project coordinators, to which Khazar University is a partner. Along with Khazar University staff, representatives of the Azerbaijan University of Tourism and Management and the "Miras" Association also attended the meeting. The main purpose of the meeting was to discuss the activities planned to be implemented by Khazar University and the "Miras" Association within the framework of the *Erasmus + PICASP* project.

During the discussions, the idea of involvement of the Azerbaijan University of Tourism and Management into those events and organization of such events by all Azerbaijani partners together was supported, and the topics and target groups of the events to be held in June-July were decided.

The project partners agreed to re-discuss the events developing a plan and agenda of activities to be reviewed, and then publish an announcement of the events. The project coordinators presented advice on what topics events should be held within the project, and recommended to start preparations for a national conference in Azerbaijan within the project.

Khazar University was represented at the meeting by Dr. Jeyhun Mammadov, Ulkar Bayramova, Dr. Bahadir Baysal, Sabina Guliyeva, and Elnura Akhmadzada.

## *UniLab* LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ NÖVBƏTİ VORKŞOP

## THE NEXT WORKSHOP WITHIN THE *UniLab* PROJECT

UniLab

Mayın 7-də *Erasmus+ UniLab* layihəsi çərçivəsində Xəzər Universiteti Inkişaf Mərkəzi növbəti tədbir keçirmişdir. Tədbirdə *UniLab* layihəsi çərçivəsində hazırlanmış "Mövcud və yeni universitet-biznes əməkdaşlığını inkişaf etdirmək üçün strateji plan" adlı sənəd universitetin departament rəhbərlərinin müzakirəsinə təqdim olunmuşdur.

Departament nümayəndələri tərəfindən sənədin ümumilikdə çox əhatəli yazıldığı, karyera mərkəzlərinin fəaliyyəti və həmçinin universitetlərdə tələbələrin təcrübəyə cəlb edilməsinin vacibliyi qeyd edildi. Bundan əlavə, departament rəhbərləri sənədin daha da təkmilləşdirilməsi üçün öz təkliflərini irəli sürmüş və əlavələrin layihə koordinatorunun nəzərinə çatdırılmasını tövsiyə etmişlər.

On May 7, the Khazar University Development Center held another event within the framework of the *Erasmus + UniLab* project. At the event, a document entitled "Strategic Plan for the Development of Existing and New University-Business Cooperation" developed within the *UniLab* project was presented for discussion of the university's heads of departments.

Representatives of the department noted that the document was written in a very comprehensive manner, they also highlighted the activities of career centers, as well as the importance of involving students in internships at universities. Moreover, heads of departments made suggestions for further development of the document and recommended that the annexes should be brought to the attention of the project coordinator.

# *UniLab* LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ VİRTUAL GÖRÜŞ

# VIRTUAL MEETING WITHIN THE *UniLab* PROJECT

Mayın 13-də Xəzər Universitetinin tərəfdaş olduğu *Erasmus+ UniLab* layihəsi çərçivəsində tərəfdaş universitetlərin növbəti virtual görüşü keçirilmişdir. Görüşü açan layihə koordinatoru Carme Royo gündəlikdə duran məsələləri iştirakçılara təqdim etdi. Bundan sonra layihə çərçivəsində 2021-ci ilin oktyabr ayına qədər görüləcək işlər müzakirə edildi.

Görüşdə müzakirə olunan əsas məsələlərdən biri layihədə indiyə qədər görülmüş işlərin hesabatının hazırlanaraq Avropa Komissiyasına göndərilməsi oldu. Tərəfdaş universitetlərə hesabatları vaxtında təqdim etmək tövsiyə edildi. Bundan sonra layihənin keyfiyyətini ölçmək üçün hazırlanmış sorğuların linki iştirakçılara təqdim edildi və ən qısa zamanda həmin sorğuların doldurulması tapşırıldı.

Sibir Federativ Universitetinin hazırladığı universitet-sənaye əməkdaşlığı modeli görüş iştirakçılarına təqdim olundu. Təqdim olunan modelin tərəfdaş universitetlərin müvafiq departamentlərinin müzakirəsinə çıxarılması və hər bir universitetin bu model haqqındakı fikirlərinin bildirilməsi qərara alındı.

Görüşdə həmçinin layihə çərçivəsində nəzərdə tutulmuş tələbə portalının ilkin versiyası haqqında iştirakçılara məlumat verilmiş və portal haqqında verilən suallar cavablandırılmışdır.

UniLab layihəsinin virtual görüşündə Xəzər Universiteti Təlim və Tədris Mərkəzinin direktoru Ülkər Bayramova tərəfindən təmsil olunmuşdur.

On May 13, the next virtual meeting of partner universities was held within the framework of *Erasmus+ UniLab* project, to which Khazar University is a partner. Opening the meeting, project coordinator Carme Royo presented the issues on the agenda. Then, the work to be done under the project until October 2021 was discussed.

One of the main issues discussed at the meeting was the development of a report on the work done so far within the project and its submission to the European Commission. Partner universities were encouraged to submit reports in time. Then, a link to the questionnaires prepared to measure the quality of the project was presented to the participants and they were instructed to fill in those questionnaires as soon as possible.

The model of university-industrial cooperation developed by the Siberian Federal University was presented to the meeting participants. It was decided to discuss the proposed model with the relevant departments of the partner universities and to express the views of each university on this model.

The participants were also informed about the initial version of the student portal envisaged within the project and answered questions about the portal.

At the virtual meeting Khazar University was represented by Ulkar Bayramova, Director of Khazar University Teaching and Learning Center.

# *ÇİKAQO* UNİVERSİTETİNİN PROFESSORU "XƏZƏR"İN TƏLƏBƏLƏRİ ÜÇÜN SEMİNAR KEÇİRMİŞDİR

# PROFESSOR OF *CHICAGO* STATE UNIVERSITY HOLDS A SEMINAR FOR "KHAZAR" STUDENTS

Xəzər Universitetinin Həyat elmləri departamentinin təşkilatçılığı ilə Çikaqo Universitetinin (ABŞ) Mikrobiologiya, immunologiya, fiziologiya departamentinin professoru Nadeem Fazal mayın 14-də Xəzər Universitetinin Təbiət elmləri və mühəndislik fakültəsinin Biologiya müəllimliyi, Kimya və Biologiya müəllimliyi ixtisasları üzrə təhsil alan yuxarı kurs tələbələri və PhD tələbələrinə "Peyvənd immunologiyasının əsasları" mövzusunda seminar keçirmişdir.

Seminara Xəzər Universitetinin tələbələri ilə bərabər Tibb Universitetinin tələbələri, Xəzər Universitetində təhsil alan Xarici PhD tələbələr də qatılmışdır. Təlim interaktiv keçməklə tələbələri maraqlandıran suallar ətraflı cavablandırılmışdır.

On May 14, Nadeem Fazal, Professor of Microbiology, Immunology, and Physiology Department at University of Chicago (USA), held a seminar organized by Khazar University's Department of Life Sciences on "Fundamentals of Vaccine Immunology" for senior and PhD students majoring in Biology Teaching, Chemistry and Biology Teaching at the School of Natural Sciences and Engineering.

The seminar was attended by Khazar University, Medical University students, and Foreign PhD students studying at Khazar University. Questions of interest to students were answered in detail during the interactive seminar.

## CREATIVE SPARK LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ NÖVBƏTİ SEMİNAR

## THE NEXT SEMINAR WITHIN THE CREATIVE SPARK PROJECT

Mayın 17-də Xəzər Universiteti İngiltərənin Middlesex Universiteti ilə birlikdə Creative Spark layihəsi çərçivəsində növbəti virtual seminar keçirdi. "Sahibkarlıqda qadınlar - çətinliklər və imkanlar" adı altında keçirilən seminarın növbəti qonağı İngiltərənin Middlesex Universitetinin dosenti Noha Saleeb idi.

Tədbir İnkişaf Mərkəzinin rəhbəri Raziyə İsayevanın giriş sözü ilə başladı. O, keçirilən silsilə seminarların mövzusu və məqsədi haqqında məlumat verdi. Middlesex Universitetinin professoru Dr. George Dafoulas seminarın natiqi Noha Saleeb`i təqdim etdi və iştirakçılara onun haqqında məlumat verdi.

Noha Saleeb təqdimatla çıxış edərək, uğurlu karyera yolundan və bu yolda qarşılaşdığı çətinliklərdən bəhs etdi, şəxsi həyat və karyera arasında balansı necə qorumaq mövzusunda öz təcrübəsini bölüşdü.

Sonda iştirakçılar öz suallarını ünvanladılar.

Seminarda Xəzər Universitetinin tələbə və əməkdaşları iştirak etdilər.

On May 17, Khazar University, in partnership with University of Middlesex in the United Kingdom, held another virtual seminar within the framework of the Creative Spark project. The next guest of the seminar entitled "Women in Entrepreneurship - Challenges and Opportunities" was Noha Saleeb, an associate professor at the University of Middlesex in England.

The event began with an introductory speech by the head of the Development Center Raziya Isayeva. She informed about the topic and purpose of a series of seminars. Dr. George Dafoulas, a professor at the University of Middlesex, introduced the speaker of the seminar, Noha Saleeb, and informed the participants about her.

In her presentation, Noha Saleeb spoke about her successful career and the challenges she faced, and shared her experience on how to maintain a balance between personal life and career.

At the end, the participants addressed their questions.

The seminar was attended by students and staff of Khazar University.

## "MUZEYLƏR MƏDƏNİ TURİZMİN ƏSAS İSTİQAMƏTİ KİMİ" ADLI SEMİNAR

## SEMINAR ENTITLED "MUSEUMS AS A MAIN DIRECTION OF CULTURAL TOURISM"

Mayın 20-də Xəzər Universiteti İnkişaf Mərkəzi və İqtisadiyyat və menecment fakültəsinin təşkilatçılığı ilə universitetin tərəfdaş olduğu Erasmus+ PICASP layihəsi çəçrivəsində "Muzeylər mədəni turizmin əsas istiqaməti kimi" adlı virtual seminar keçirilmişdir. Tədbirin keçirilməsində əsas məqsəd muzeylərin mədəni turizmin inkişafında rolu və bu sahənin inkişaf etdirilməsini iştirakçıların diqqətinə çatdırmaq olmuşdur.

Seminarı Xəzər Universiteti İqtisadiyat və menecment fakültəsinin koordinatoru Asəm Məmmədov açaraq, layihə çərçivəsində keçirilmiş əvvəlki seminarın faydaları və hazırda keçirilən seminarın mövzusu haqqında məlumat verdi.

Sonra söz qonaq natiq qismində çıxış edən Azərbaycan Turizm və Menecment Universitetinin əməkdaşı, professor Minaxanım Əsədliyə verildi. Professor Əsədli muzeylərin funksiyaları, mədəni turizmdə yeri və rolu haqqında tədbir iştirakçılarına geniş məlumat verdi. İnteraktiv keçən tədbir çox böyük maraqla qarşılandı və iştirkaçılar natiqə çoxlu suallar ünvanladı.

Tədbirə Xəzər Universitetinin, Azərbaycan Turizm və Menecment Universitetinin tələbələri və əməkdaşları, həmçinin Miras Assosasiyasının üzvləri qoşulmuşdu.

On May 20, Khazar University's Development Office and the School of Economics and Management held a virtual seminar entitled "Museums as a Main Direction of Cultural Tourism" within the framework of Erasmus + PICASP project, to which Khazar University is a partner. The main purpose of the seminar was to inform the participants about the role of museums in the improvement of cultural tourism and the importance of their development in this field.

Opening the seminar Asam Mammadov, Coordinator of the School of Economics and Management at Khazar University, provided information on the benefits of the previous seminar and the topic of the current seminar that held within the framework of the project.

Then the floor was given to the guest speaker Professor Minakhanim Asadli, a staff member of the Azerbaijan University of Tourism and Management. Professor Asadli informed the participants about the functions of museums, their place and role in cultural tourism. The interactive seminar was met with great interest and participants addressed many questions to the speaker.

The seminar was attended by students and staff from Khazar University, Azerbaijan University of Tourism and Management, as well as members of the "Miras" Association.

## "SÜNİ İNTELLEKT VƏ KİBER TƏHLÜKƏSİZLİK" TƏDQİQAT SEMİNARI

## RESEARCH SEMINAR "ARTIFICIAL INTELLIGENCE AND CYBER SECURITY"

Mayın 21-də Xəzər Universiteti Təlim və Tədris Mərkəzinin təşkilatçılığı ilə magistr, doktorant tələbələr, akademik heyət və tədqiqatçılar üçün nəzərdə tutulmuş növbəti virtual tədqiqat seminarı keçirilmişdir. Seminar Qazi Universitetinin (Türkiyə) Kompüter mühəndisliyi departamentinin əməkdaşı Dr. Adem Tekerek`in təqdimatında "Süni intellekt və kiber təhlükəsizlik" mövzusunda olmuşdur.

Dr. Tekerek süni zəkanın yaranması, onun həyatımızdakı və təhsildəki rolu barədə iştirakçılara geniş məlumat vermiş, bu sahədə aparılan tədqiqatlar, kiber təhlükəsizlik və onun süni intellektlə bağlılığı, kiber təhlükəsizlik formaları və ondan qorunma yolları haqqında danışmışdır.

Təqdimat maraqla qarşılanmış və spikerə müxtəlif suallar verilmişdir. Tədbir müzakirələrlə başa çatmışdır.

Tədbirə Xəzər Universitetinin tələbələri və əməkdaşları ilə yanaşı, Azərbaycanın digər universitetlərindən və həmçinin Türkiyədən də iştirakçılar qoşulmuşlar.

On May 21, the next virtual research seminar was organized by the Khazar University Teaching and Learning Center for master's, doctoral students, academic staff, and researchers. The seminar was held on "Artificial Intelligence and Cyber Security" by Dr. Adem Tekerek, a staff member of the Department of Computer Engineering, Gazi University (Turkey).

Dr. Tekerek briefed the participants on the emergence of artificial intelligence, its role in our lives and education, research in this area, cyber security and its connection with artificial intelligence, forms of cyber security and ways to protect against cyber security threats.

The presentation was met with interest and the speaker was asked various questions. The event ended with discussions.

The seminar was attended by students and staff from Khazar University, as well as participants from other universities in Azerbaijan and Turkey.

## *CREATIVE SPARK* LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ NÖVBƏTİ SEMİNAR

## NEXT SEMINAR WITHIN *CREATIVE SPARK* PROJECT

Mayın 21-də Xəzər Universiteti Middlesex Universiteti (İngiltərə) ilə birlikdə British Council tərəfindən maliyyələşən *Creative Spark* layihəsi çərçivəsində növbəti vebinar təşkil etdi. "Sahibkarlıqda qadınlar - çətinliklər və imkanlar" adı altında keçirilən seminarın qonaq natiqi "Zuleykha Magazine və Zuleykha Accessories" şirkətinin təsisçisi və direktoru Lalə Mirzəyeva idi. Tədbir Xəzər Universiteti İnkişaf Mərkəzinin layihə meneceri Səbinə Quliyevanın giriş sözü ilə başladı. O, Creative Spark layihəsi çərçivəsində keçirilən silsilə seminarlar haqqında danışdı və tədbirin qonağını iştirakçılara təqdim etdi.

Xəzər Universitetinin rektoru dosent İradə Xəlilova tədbir iştirakçılarını salamladı. O, keçirilən seminarların tələbələr üçün önəmindən bəhs etdi.

Sonra Lalə Mirzəyeva öz təhsil və karyera yolu, bu yolda qarşılaşdığı çətinliklər və motivasiyası haqqında danışdı.

Sonda Lalə Mirzəyeva ona ünvanlanan sualları cavablandıraraq, öz təcrübəsini tələbələrlə bölüşdü.

Tədbirdə Xəzər Universitetinin tələbə və əməkdaşları iştirak edirdilər.

On May 21, Khazar University, in partnership with Middlesex University (UK), held another webinar within the framework of the *Creative Spark* project funded by British Council. The guest speaker of the seminar entitled "Women in Entrepreneurship - Challenges and Opportunities" was Lala Mirzayeva, founder and director of "Zuleykha Magazine" and "Zuleykha Accessories". The seminar began with an introductory speech by Sabina Guluyeva, Project Manager at Khazar University's Development Office. She spoke about a series of seminars held within the framework of the Creative Spark project and introduced the guest speaker of the seminar to the participants.

Further on, rector of Khazar University, Associate Professor Irada Khalilova, greeted the participants. She highlighted the importance of these seminars for students.

Then Lala Mirzayeva spoke about her education and career life, the difficulties she faced on this way and her motivation in entrepreneurship.

At the end, Lala Mirzayeva answered the questions addressed to her and shared her experience with the students.

The event was attended by students and staff of Khazar University.

## İNGİLİS DİLİ VƏ ƏDƏBİYYATI DEPARTAMENTİ SEMİNAR KEÇİRİB

## SEMINAR ORGANIZED BY THE DEPARTMENT OF THE ENGLISH LANGUAGE AND LITERATURE

Mayın 21-də Xəzər Universitetinin İngilis dili və ədəbiyyatı departamenti Tehran Universitetinin dosenti Dr. Yaser Hadidi`nin təqdimatı ilə "Ingilis dilində roman oxumağın 4 əsas prinsipi: qabaqcıl tələbələr üçün fərqli nöqteyi-nəzər" mövzu-sunda virtual seminar keçirmişdir.

Seminarda 80-dən çox iştirakçı olub. Xəzər Universitetinin əməkdaşları, magistr və doktorantura tələbələrindən başqa Azərbaycanın və digər xarici ölkələrin təhsil qurumlarından da seminara qoşulmuşlar.

On May 21, Khazar University, Department of English Language and Literature successfully held the Virtual Seminar on "Four Overarching Principles in Reading the English Novel: Variable Attention Allocation for the Advanced Learner" presented by Dr Hadidi, a visiting professor of the Department of English Language and Literature.

The seminar was attended by more than 80 indi-viduals. Beside the colleagues, MA and PhD students of Khazar University, the Department also had guest participants from different institutions of Azerbaijan and abroad.

## *UniLab* LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ NÖVBƏTİ FOKUS QRUP MÜZAKİRƏSİ

## NEXT FOCUS GROUP DISCUSSION WITHIN THE FRAMEWORK OF THE *UniLab* PROJECT

Mayın 31-də Xəzər Universiteti İnkişaf Mərkəzinin təşkilatçılığı ilə universitetin tərəfdaş olduğu Erasmus+ UniLab layihəsi çərçivəsində növbəti virtual Fokus Qrup Müzakirəsi təşkil edilmişdir. Fokus Qrup Müzakirəsində UniLab layihəsi çərçivəsində hazırlanmış "Mövcud və yeni universitet-biznes əməkdaşlığını inkişaf etdirmək üçün strateji plan" adlı sənədin ölkənin karyera merkəzleri nümayəndələri ilə bərabər müzakirəsi keçirilmişdir.

Görüş Karyera Mərkəzinin koordinatoru Elnurə Əhmədzadənin giriş sözü ilə başladı. Sonra Təlim və Tədris Mərkəzinin rəhbəri Ülkər Bayramova layihə çərçivəsində hazırlanmış strateji plan haqqında iştirakçıları məlumatlandırdı.

Görüşdə strateji plan, onun ölkəmizdə tətbiqi, karyera sahəsində işləyən nümayəndələrin strateji plana əlavə və təklifləri, universitet-müəssisə əməkdaşlığı, strateji planın bu əməkdaşlıqda rolu və s. məsələlər haqqında müzakirə aparıldı. Görüşdə maraqlı təkliflər ilə çıxış edən iştirakçılar universitet-biznes tərəfdaşlığının önəmini bir daha vurğuladılar.

Tədbirdə Xəzər Universitetinin əməkdaşları ilə yanaşı Azərbaycan-Fransız Universiteti, Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət Turizm və Menecment Universiteti, Gəncə Dövlət Universiteti karyera mərkəzlərindən nümayyəndələr iştirak etmişlər.

On 31 May 2021, the next virtual Focus Group Discussion (FGD) was organized by Khazar University, Career Development Center within the framework of Erasmus+ UniLab project. During the meeting, a discussion was held with the representatives of country's career development offices on document entitled "Strategic plan for developing existing and forging new university-business collaboration" which was developed within the framework of UniLab project.

The meeting started with greetings of the coordinator of the Career Development Center, Elnura Ahmadzada. Then, the Head of Teaching and Learning Center Ulkar Bayramova provided information about the strategic plan, which was developed within the framework of the UniLab project.

During the meeting, various topics were discussed including strategic plan, its implementation in our country, changes that career office representatives from different universities want to make in the plan and their recommendations, university-business partnership and the impact of this partnership, etc. Participants highlighted the importance of university-business collaboration and shared their ideas from different perspective.

Among the participants there were career office representatives from different universities, French-Azerbaijani University, Baku State University, Azerbaijan Tourism and Management University and Ganja State University, along with Khazar University staff.

# *UniLab* LAYİHƏSİNİN MONİTORİNQİ

# MONITORING MEETING WITHIN *UniLab* PROJECT

İyunun 11-də Xəzər Universitetinin tərəfdaşı olduğu "21-ci əsrdə universitetdən əmək bazarına: işə qəbulolunmada bir addım irəli" Erasmus+ (UniLab, 610245-EPP-1-2019-1-BE-EPPKA2-CBHE-JP) layihəsi çərçivəsində növbəti monitorinq keçirildi. Milli Erasmus+ Ofisi tərəfindən təşkil olunmuş görüşdə Xəzər Universitetinin əməkdaşları ilə yanaşı, layihənin Azərbaycandan olan digər tərəfdaşı - Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin əməkdaşları da iştirak edirdilər.

Milli Erasmus+ Ofisinin rəhbəri Pərviz Bağırov iştirakçıları salamladı və monitorinq görüşünün məqsədini açıqladı. Görüş Milli Erasmus+ Ofisinin Monitorinq və təşviqat üzrə əməkdaşı Zəfər Həsənov tərəfindən davam etdirildi. Hər iki universitetin əməkdaşları sonuncu monitorinqdən sonra layihədə yerinə yetirilmiş işlər, həyata keçirilmiş tədbirlər, universitet-biznes əməkdaşlığının inkişaf etdirilməsində əldə edilmiş yeniliklər, Covid-19 səbəbindən gecikmiş fəaliyyətlər və s. haqqında məlumat verdilər. Bundan əlavə, layihə tərəfdaşları verilən sualları cavablandırdılar və layihənin aralıq hesabatından sonra nəzərdə tutulmuş işlər haqqında məlumat verdilər.

Milli Erasmus+ Ofisinin rəhbərliyi layihə çərçivəsində indiyə qədər görülmüş işləri qənaətbəxş hesab etdi və layihə tərəfdaşlarına öz tövsiyələrini verdi.

On June 11, next monitoring meeting was held within the framework of the "From university to the labor market in the 21st century: a step forward in recruitment" Erasmus+ project (UniLab, 610245-EPP-1-2019-1-BE-EPPKA2-CBHE-JP), to which Khazar University is a partner. The meeting, organized by the National Erasmus+ Office, was attended by Khazar University staff as well as staff from another partner university from Azerbaijan, the Azerbaijan State Oil and Industry University.

Head of the National Erasmus+ Office Parviz Bagirov greeted the participants and spoke about the purpose of the meeting. The meeting was continued by Zafar Hasanov, Monitoring and Campaign Officer of the National Erasmus+ Office. Representatives of both universities reported on the work done within the project after the last monitoring, the measures taken, innovations in the development of university-business cooperation, delays due to Covid-19, etc. Moreover, the project partners answered questions and provided information on the work planned after the interim report of the project.

The administration of the National Erasmus+ Office considered the work done so far within the project satisfactory and gave their recommendations to the project partners.

# *UniLab* LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ TƏRƏFDAŞLARLA GÖRÜŞ

# MEETING WITH PARTNER UNIVERSITIES WITHIN THE *UniLab* PROJECT

İyunun 16-da Xəzər Universitetinin tərəfdaş olduğu Erasmus+ UniLab layihəsi çərçivəsində tərəfdaş universitetlərin növbəti virtual görüşü keçirilmişdir.

Görüşü açan layihə koordinatoru Carme Royo gündəlikdə duran məsələləri iştirakçılarla bölüşdü. Görüşün ilk hissəsi akademik sahədə inkişafa yönəlmişdi.Tərəfdaşlar təhsil modelləri və sinifdən kənar fəaliyyətlər haqqında müzakirələr apardılar.

Sonra gələcəkdə nəzərdə tutulan tədbirlərin, o cümlədən təhsil səfərlərinin nə zaman keçirilməsi müzakirə olundu. Sonda hesabatlarla bağlı xatırlatma oldu.

Virtual görüşdə Xəzər Universitetindən Təlim və Tədris Mərkəzinin direktoru Ülkər Bayramova və İnkişaf Mərkəzinin layihə meneceri Səbinə Quliyeva iştirak etmişlər.

On June 16, the next virtual meeting of partner universities was held within the framework of Erasmus+ UniLab project, to which Khazar University is a partner.

Opening the meeting, project coordinator Carme Royo informed the participants about the issues on the agenda. The first part of the meeting focused on the development in academic field. The partners discussed educational models and extracurricular activities.

Then, the discussions were held on future events to be held, and study visits to be organized.

In the end, a reminder was announced on the reports.

Khazar University was represented by Ulkar Bayramova, Director of the Teaching and Learning Center at Khazar University, and Sabina Guliyeva, Project Manager of the Development Office, at the virtual meeting.

## XƏZƏR PSİXOLOJİ XİDMƏT MƏRKƏZİNİN RƏHBƏRİ BEYNƏLXALQ SEMİNARDA

## HEAD OF KHAZAR UNIVERSITY'S PSYCHOLOGICAL CENTER AT INTERNATIONAL SEMINAR

Xəzər Universiteti Psixologiya departamentinin koordinatoru, Xəzər Psixoloji Xidmət Mərkəzinin rəhbəri Mələk Kərimova iyunun 19-da Amerika Adelphy Universitetinin əməkdaşı Prof.Dr. Chistopher Muran və Amerika Yeshiva Universitetinin əməkdaşı Prof. Dr. Catherine Eubanksın birgə keçirdikləri "Terapevtik ittifaqın qurulmasında yaşanan çətinliklər və yenidən münasibətlərin tənzimlənməsi" mövzusunda seminarda iştirak etmişdir.

Seminar "Türkiyə Ruh Sağlığı Dərnəyi" və "Kim" Psixologiya Mərkəzinin birgə təşkilatçılığı ilə keçirilmişdir.

On June 19, Malak Karimova, Coordinator of Khazar University's Department of Psychology and Director of the Khazar University Psychological Center participated at an international seminar on "Difficulties on establishment of therapeutic bond and re-regulation of relations" jointly held by Prof. Dr. Chistopher Muran from Adelphy University in the United States and Prof. Dr. Catherine Eubanks from Yeshiva University in the United States .

The seminar was jointly organized by the Turkish Mental Health Association and the "KIM" Psychological Center.

## OSTİM TEXNİKİ UNİVERSİTETİNİN BAKI OFİSİNİN AÇILIŞI

## OPENING OF BAKU OFFICE OF OSTIM TECHNICAL UNIVERSITY

İyunun 10-da Türkiyənin və dünyanın ən böyük sənaye universitetlərindən olan Ostim Texniki Universitetinin Bakı ofisinin açılışı olub.

Tədbirdə universitetin rektoru Murat Yülek, Azərbaycan Texniki Universiteti və Xəzər Universitetinin rəhbər heyəti, millət vəkili Razi Nurullayev və digər ictimai xadimlər iştirak ediblər. Xəzər Universiteti İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli ilə təmsil olunmuşdur.

Ostim Texniki Universitetinin Azərbaycan ofisinin direktoru Fuad Hacıyev açılış sözü ilə qonaqları salamladıqdan sonra universitetin rektoru Murat Yülek həm təhsil ocağı haqqında məlumat verib, həm də ortaq görüləcək proqramlardan söz açıb: "İstəyirik ki, azərbaycanlı gənclər də mühəndislik sahəsində özlərini inkişaf etdirsinlər, Azərbaycan və Türkiyənin qardaşlıq münasibətlərinə öz töhfələrini versinlər. Bunun üçün çalışırıq ki, azərbaycanlı gənclərin Türkiyədə təhsilalma imkanlarını genişləndirək. Azərbaycanın Təhsil Nazirliyi və başqa qurumlarla əməkdaşlıq etməkdən məmnunuq".

Qeyd edilib ki, universitet bütün Azərbaycan tələbələrinə təhsil haqqına 85% endirim edib və xarici vətəndaşlar üçün təhsil haqqının 15000 dollar olmasına baxmayaraq, azərbaycanlılar üçün bunun sadəcə 2000 dollar təşkil etdiyini bildirib.

Tədbir haqqında *qafqazinfo.az, milliyol.az, minval.az* və digər saytlar xəbər yayımlamışlar.

On June 10, the Baku office of OSTIM Technical University, one of the largest industrial universities in Turkey and the world, was opened.

The event was attended by the rector of the university Murat Yulek, the managerial staff of Azerbaijan Technical University and Khazar University, MP Razi Nurullayev and other public figures. Khazar University was represented by Alovsat Amirbeyli, Director of Public Relations and Media.

After welcoming the guests with an opening speech, the director of the Baku office of OSTİM Technical University Fuad Hajiyev informed the rector of the university Murat Yulek about the educational institution and spoke about joint programs: "We want Azerbaijani youth to develop themselves in the field of engineering and contribute to the fraternal relations between Azerbaijan and Turkey. To this end, we are trying to expand the opportunities for Azerbaijani youth to study in Turkey. We are pleased to cooperate with the Ministry of Education of Azerbaijan and other agencies".

It was noted university has reduced the tuition fee for all Azerbaijani students by 85%. He also mentioned that although the tuition fee for foreigners is $ 15,000, it is only $ 2,000 for Azerbaijanis.

*Qafqazinfo.az, milliyol.az, minval.az* and other websites published news on this issue.

*https://qafqazinfo.az/news/detail/ostim-texniki-universitetinin-baki-ofisinin-acilisi-olub-video-326319*




# UniLab LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ KARYERA SƏRGİSİ





İyunun 2-də UniLab layihəsi çərçivəsində Xəzər Universiteti Karyera İnkişaf Mər-kəzinin təşkilatçılığı ilə universitetin tələbələri üçün "Dünya" məktəbinin həyətində açıq havada Karyera sərgisi keçirildi.

Sərgidə "Azercell Telekom MMC", "Azərbaycan Beynəlxalq Bankı", "SOCAR Polymer", "EY Azərbaycan", "DOST Agentliyi", "AzerCosmos", "AzerGold MMC", "Kapital Bank" və "Baker Tilly Azərbaycan" kimi ölkənin aparıcı şirkətləri iştirak etdilər.

Sərgidə tələbələr şirkət nümayəndələri ilə birbaşa görüşmək imkanı əldə edərək, onların işəgötürmə prinsipləri, eyni zamanda iş, təcrübə və könüllülük proqramları haqqında məlumat aldılar.

Sərgi çərçivəsində "AzerCosmos" şirkəti ilə mexanika, elektronika və komputer mühəndisliyi ixisaslarında təhsil alan tələbələrin, "Azərbaycan Beynəlxalq Bankı" ilə iqtisadiyyat, menecment və komputer mühəndisliyi ixtisaslarında təhsil alan tələbələrin ayrıca görüşü keçirildi. Hər iki görüşdə şirkət və bank nümayəndələri təqdimat keçirdilər və tələbələri maraqlandıran suallara cavab verdilər.




# CAREER FAIR WITHIN THE FRAMEWORK OF UniLab PROJECT



On June 2, within the framework of UniLab project, Khazar University's Career Development Center organized an open-air Career Fair for university students in the courtyard of "Dunya" School.

Prestigious companies such as "Azercell Telecom LLC", "International Bank of Azerbaijan", "SOCAR Polymer", "EY Azerbaijan", "DOST Agency", "AzerCosmos", "AzerGold CJSC", "Kapital Bank" və "Baker Tilly Azerbaijan" participated at the fair.




At the fair, students had the opportunity to meet directly with company representatives and learn about their recruitment principles, as well as job, internships and volunteer programs.

During the fair, "AzerCosmos" held a separate meeting with students majoring in mechanics, electronics and computer engineering, and International Bank of Azerbaijan held a meeting with students majoring in economics, management and computer engineering. At both meetings, company and bank representatives made presentations and answered students' questions.

## TƏDQİQAT SEMİNARI: "MÜƏLLİM ETİKASI VƏ YA PEŞƏKAR MÜƏLLİM OLMAQ NƏ DEMƏKDİR"

## RESEARCH SEMINAR: "THE ETHICS OF TEACHING OR WHAT DOES IT MEAN TO BE A PROFESSIONAL TEACHER"

Aprelin 30-da Xəzər Universiteti Təlim və Tədris Mərkəzinin təşkilatçılığı ilə növbəti virtual tədqiqat seminarı keçirilmişdir. Magistr, doktorant tələbələr, akademik heyət və tədqiqatçılar üçün nəzərdə tutulmuş seminarda Azərbaycan Dillər Universiteti Xarici Dillər departamentinin əməkdaşı Dr. İozefina Blazsani-Batto "Müəllim etikası və ya peşəkar müəllim olmaq nə deməkdir" adlı təqdimatla çıxış etmişdir.

Dr. Blazsani-Batto ölkələrarası müəllim etikası və peşəkar müəllim olmaq üçün vacib olan faktorlar haqqında iştirakçılara məlumat verdi. Spiker qyed etmişdir ki, tələbələrin akademik ehtiyaclarına cavab verən cəlbedici dərslər hazırlamaqla yanaşı, müəllimin həm də yaxşı mühakimə yürütməsi və peşəkar bir şəkildə tələbələrlə etik münasibət qurması lazımdır. Müəllimlər tələbələrlə qurduqları qarşılıqlı ünsiyyətin həmişə tələbələrin və müəllimin özünün peşə maraqlarına uyğun olmasına diqqət yetirməlidirlər.

Təqdimatı maraqla qrşılayan iştirakçılar sonda Dr. Blazsani-Batto`ya mövzu ilə bağlı suallar ünvanladılar.

Qeyd edək ki, tədbirə Xəzər Universitetinin tələbə və əməkdaşları ilə yanaşı, Azərbaycanın digər universitetlərindən, eləcə də Türkiyə və Çexiyadan da iştirakçılar qoşulmuşdular.

On April 30, the next virtual research seminar was organized by the Khazar University Teaching and Learning Center. In the seminar for master's, doctoral students, academic staff and researchers, a staff member of the Department of Foreign Languages of the Azerbaijan University of Languages, Dr. Josefina Blazsani-Batto made a presentation entitled "The ethics of teaching or what does it mean to be a professional teacher".

Dr. Blazsani-Batto briefed the participants on international pedagogical ethics and the factors that are important for becoming a professional teacher. The speaker noted that in addition to developing interactive lessons that meet the academic needs of students, the teacher must also have good judgment skills and a professional ethical relationship with students. Teachers must always ensure that their interactions with students are professional for both teachers and students.

Welcoming the presentation with great interest, in the end the participants asked Dr. Blazsani-Batto questions related to the topic.

It should be noted that the event was attended by students and staff of Khazar University, as well as participants from other universities in Azerbaijan, Turkey and the Czech Republic.

## "XƏZƏR"İN PSİXOLOQ ƏMƏKDAŞI "QADIN FESTİVALI"NDA

## KHAZAR PSYCHOLOGIST AT "WOMEN FEST" FESTIVAL

Mayın 8-də Xəzər Universitetinin Psixologiya departamentinin müəllimi və doktorantı Nilufər Əlizadə Azərbaycanda ilk dəfə keçirilən dijital "QADIN FEST" festivalında çıxış edib. Azercell, Berqa, Always Ultra və s. kimi öncül şirkətlərin təşkilatçılığı və sponsorluğu ilə həyata keçirilən festivalda müxtəlif sahələrin mütəxəssisləri qadınların inkişafı mövzularında çıxış etmişlər.

Nilufər Əlizadə mayın 7-9-da Bakıdakı Hilton oteldə baş tutan festivalda "Şəxsi inkişaf və motivasiya" və "Uşaqlıq travmaları və bu günkü seçimlər" mövzusu ilə çıxış etmişdir.

On May 8, Nilufar Alizadeh, a lecturer and doctoral student in the Department of Psychology at Khazar University, delivered speech at the first digital "WOMEN FEST" festival in Azerbaijan.

Experts from various fields spoke on development of women at the festival organized and sponsored by leading companies such as Azercell, Berga, Always Ultra, etc.

Nilufar Alizadeh delivered speech on "Personal Development and Motivation" and "Childhood Trauma and Today's Choices" at the festival, which took place at the Hilton Hotel,Baku, on May 7-9.

## TƏLƏBƏLƏR ŞİRVANŞAHLAR SARAY KOMPLEKSİNDƏ

## STUDENTS AT THE SHIRVANSHAHS'PALACE COMPLEX

Mayın 18-də Xəzər Universitetinin Tarix və arxeologiya departamentinin koordinatoru Orxan Zamanovun təşkilatçılığı və rəhbərliyi ilə Humanitar, təhsil və sosial elmlər fakültəsinin I kurs tələbələri "Şirvanşahlar Saray Kompleksi" ni ziyarət ediblər.

Azərbaycanın ən uzun ömürlü dövləti olan Şirvanşahlara məxsus saray, burada olan başqa tikililər və digər eksponatlar tələbələr tərəfindən maraqla qarşılalanıb. "Şirvanşahlar Saray Kompleksi"nə səfər etməkdə əsas məqsəd tələbələri Azərbaycanın qədim dövlətlərindən biri olan Şirvanşahlar dövlətinin qalıqları, keçmiş zamanlarda soydaşlarımızın hansı şəraitdə yaşadıqları ilə əyani şəkildə tanış etmək idi.

Ziyarətdə peşəkar bələdçi və muzeyşünas Leyla Əliyeva iştirak etmiş, tələbələrə hərtərəfli, zəngin məlumatlar vermişdir.

On May 18, under the organization and leadership of the coordinator of Khazar University's Department of History and Archeology, Orkhan Zamanov, first-year students of the School of Humanities, Education, and Social Sciences visited the Shirvanshahs' Palace Complex.

The palace, other buildings and exhibits belonging to the Shirvanshahs, the longest-lived state of Azerbaijan, were met with great interest by students. The main purpose of the visit to the Shirvanshahs' Palace Complex was to acquaint students with the remains of the Shirvanshahs, one of the ancient states of Azerbaijan, and the living conditions of our compatriots in the past.

Leyla Aliyeva, a professional guide and museologist, took part in the visit and provided students with comprehensive and substantial information.

## KONFRANS: "QARABAĞIN ARXEOLOJİ VƏ ETNOMƏDƏNİ İRSİ: TARİX VƏ GƏLƏCƏYƏ BAXIŞ"

## CONFERENCE: "ARCHAEOLOGICAL AND ETHNOCULTURAL HERITAGE OF KARABAKH: HISTORY AND VISION OF THE FUTURE"

Mayın 21-də AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun təşkil etdiyi "Qarabağın arxeoloji və etnomədəni irsi: tarix və gələcəyə baxış" adlı virtual konfransda Xəzər Universitetinin Tarix və Arxeologiya departamentinin müəllimi və koordinatoru Orxan Zamanov "Azərbaycanın Qarabağ bölgəsinin işğaldan azad olunmuş torpaqlarında "ağıllı texnologiya" və qeyri-müdaxilə (non-invasie) üsullarının tətbiqi perspektivləri" adlı məruzə ilə çıxış etmişdir.

Məruzə konfransın Qarabağ abidələrinin hazırkı vəziyyəti və gələcək tədqiqatların perspektivləri ilə bağlı hazırlanmışdır. Tədbirdə həm institutun, həm də ölkəmizdə qonaq olan xarici əməkdaşlar iştirak edirdi. Otuzdan çox məruzənin dinlənildiyi konfransda Qarabağın arxeologiyası, etnoqrafiyası, numizmatikası, etnologiyası, antropologiyası və tarixi bərpası üzrə çoxlu elmi fikir və təkliflər səsləndirilmişdir.

On May 21, at the virtual conference entitled "Archaeological and Ethnocultural Heritage of Karabakh: History and Vision of the Future" organized by the Institute of Archeology and Ethnography of ANAS, Orkhan Zamanov, a lecturer and coordinator of Khazar University's Department of History and Archeology, delivered a thesis on "Prospects for the application of "smart technology" and non-invasive methods in the liberated lands of the Karabakh region of Azerbaijan".

The thesis was developed on the current state of Karabakh monuments and prospects for future research. The event was attended by the staff of the institute and also foreign associates visiting our country.

At the conference, in which more than thirty reports were delivered, many scientific ideas and proposals were put forward on archeology, ethnography, numismatics, ethnology, anthropology and historical restoration of Karabakh.

# DEKAN BEYNƏLXALQ ELMİ KONFRANSDA
# DEAN AT INTERNATIONAL SCIENTIFIC CONFERENCE

Xəzər Universiteti Humanitar, təhsil və sosial elmlər fakültəsinin dekanı, filologiya üzrə fəlsəfə doktoru, dosent Elza Səmədli mayın 20-21-də Sumqayıt Dövlət Universiteti və Hacettepe Universitetinin (Türkiyə) birgə təşkilatçılığı ilə Birinci Türkoloji Qurultayın 95 illik yubileyinə həsr olunmuş "Türk dillərinin və ədəbiyyatının tədqiqi və tədrisinin aktual problemləri" adlı beynəlxalq elmi konfransda "Türk dilindəki birləşik sözlərin yaranma yollarının müxtəlif tipoloji dillərlə müqayisəli təhlili" mövzusunda çıxış etmişdir.

On May 20-21, Dean of Khazar University's School of Humanities, Education, and Social Sciences, Doctor of Philosophy in Philology, Associate Professor Elza Samadli delivered speech on "Comparative Analysis of the Derivation of Compound Words in Turkish With Different Typological Languages" at the international scientific conference entitled "Actual problems of research and teaching of Turkic languages and literature" dedicated to the 95th anniversary of the First Congress of Turkology jointly organized by Sumgayit State University and Hajettepe University (Turkey).

## "XƏZƏR"İN ƏMƏKDAŞLARI ELMİ SİMPOZİUMDA

Mayın 20-21 də Türkiyənin Qazi Universitetində "Bilge Tonyukuk Anısına 3. Uluslararası Türk Dili ve Edebiyatları Öğretimi Sempozyumu" keçirilmişdir.

Simpoziumda Xəzər Universiteti Dillər və ədəbiyyatlar departamentinin müdiri dosent Dilbər Zeynalova "Ədəbiyyatın tədrisində ortaq türk konteksti", müəllimi dosent Xatirə Yusifova "Müstəqillikdən sonra klassik Azərbaycan ədəbiyyatının tədrisi (Xəzər Universiteti örnəyində)" mövzularında məruzələrlə çıxış etmiş və sertifikatla təltif olunmuşlar.


95. yıl

Katılım Belgesi

Sayın Doç. Dr. Dilber ZEYNALOVA

Gazi Üniversitesi 95. yıl etkinlikleri kapsamında, Gazi Üniversitesi Gazi Eğitim Fakültesi tarafından 20-21 Mayıs 2021 tarihlerinde Ankara'da çevrimiçi olarak düzenlenen *Bilge Tonyukuk Anısına 3. Uluslararası Türk Dili ve Edebiyatları Öğretimi Sempozyumuna* katılım ve katkılarınızdan dolayı teşekkür ederiz.

Prof. Dr. Musa YILDIZ
Gazi Üniversitesi Rektörü

Prof. Dr. Mahmut SELVİ
Gazi Eğitim Fakültesi Dekanı

Prof. Dr. İsmet ÇETİN
Sempozyum Düzenleme Kurulu Başkanı

gazi.edu.tr

## KHAZAR STAFF MEMBERS AT SCIENTIFIC SYMPOSIUM


95. yıl

Katılım Belgesi

Sayın Doç. Dr. Hatira YUSİFOVA

Gazi Üniversitesi 95. yıl etkinlikleri kapsamında, Gazi Üniversitesi Gazi Eğitim Fakültesi tarafından 20-21 Mayıs 2021 tarihlerinde Ankara'da çevrimiçi olarak düzenlenen *Bilge Tonyukuk Anısına 3. Uluslararası Türk Dili ve Edebiyatları Öğretimi Sempozyumuna* katılım ve katkılarınızdan dolayı teşekkür ederiz.

Prof. Dr. Musa YILDIZ
Gazi Üniversitesi Rektörü

Prof. Dr. Mahmut SELVİ
Gazi Eğitim Fakültesi Dekanı

Prof. Dr. İsmet ÇETİN
Sempozyum Düzenleme Kurulu Başkanı

gazi.edu.tr

On May 20-21, the 3rd International Turkish Language&Literature Teaching Symposium in memory of Bilge Tonyukuk was held at Gazi University, Turkey.

At the symposium, Associate Professor Dilbar Zeynalova, Head of the Department of Languages and Literatures at Khazar University, delivered speech on "Common Turkish Context in the Teaching of Literature," and Associate Professor Khatira Yusifova, lecturer of the Department of Languages and Literatures, delivered speech on "Teaching Classical Azerbaijani Literature after Gaining Independence (on the example of Khazar University)" and were awarded a certificate.

# TÜRKİYƏLİ ƏDƏBİYYATŞÜNAS NİZAMİ GƏNCƏVİ YARADICILIĞINA DAİR ELMİ SEMİNAR KEÇİRMİŞDİR

# TURKISH LITERARY CRITIC HOLDS A SCIENTIFIC SEMINAR ON NIZAMI GANJAVI'S POETRY

2021-ci ilin Azərbaycanda "Nizami Gəncəvi ili" elan edilməsi çərçivəsində Xəzər Universitetinin Dillər və ədəbiyyatlar departamenti Nizami yaradıcılığına həsr olunmuş "Nizami Gəncəvi-880" adlı layihə həyata keçirməkdədir.

Mayın 22-də Türk ədəbiyyatşünası, eyni zamanda Türk Dünyasının tanınmış siması prof. dr. Mustafa İsenin iştirakı ilə "Türk Dünyası edebiyatında Nizamî etkisi" mövzusunda virtual elmi seminar keçirilmişdir. Elmi seminarı giriş sözü ilə açan Dillər və ədəbiyyatlar departamentinin müdiri dosent Dilbər Zeynalova tədbir iştirakçılarını salamlayaraq, qonaq haqqında məlumat vermişdir. Müstafa İsen ədəbiyyatşünas alim olmaqla yanaşı, həm də dövlət xadimidir. Belə ki, bir dönəm Türkiyə Prezidenti Adminstrasiyasının rəhbəri vəzifəsini icra etmiş, Mədəniyyət Nazirli-yində mühüm vəzifələr tutmuşdur. Qeyd olunmuşdur ki, Prof.Dr. Mustafa İsen Divan ədəbiyyatının ən fədakar araşdırmaçılarındandır. Alimin "Sultanların şeirləri, şeirlərin sultanları" adlı kitabı 2014-ci ildə "Qanun" nəşriyyatı tərəfindən Azərbaycanda nəşr edilmişdir. Kitabda bir çox Türk hökmdar şairlərlə birlik-də 5 Azərbaycan hökmdarına aid məlumat və onların şeirlərindən nümunələr yer almışdır. Alim Türkiyədə bir çox layihələrə də rəhbərlik etmiş, "Türk Edebiyatı İsimler Sözlüğü" adlı nəhəng bir layihənin həyata keçirilməsinə nail olmuşdur.

"Türk Dünyası edebiyatında Nizamî etkisi" adlı məruzə ilə çıxış edən prof.dr. Mustafa İsen Nizaminin dövrü, yaradıcılığı, əsərlərininin bədii dili mövzularına dair mülahizələrini dilə gətirmiş, həmçinin şairin müasirləri və özündən sonrakı ədəbi zümrə üzərindəki təsirlərindən geniş danışmışdır.

Seminarda Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı, universitetin rektoru dosent İradə Xəlilova, Humanitar, təhsil və sosial elmlər fakültəsinin dekanı dosent Elza Səmədova qonağı və iştirakçıları salamlayaraq, tədbir haqqında ürək sözlərini söyləmişlər. Professor Hamlet İsaxanlı Nizami irsinin yenidən araşdırılmasının, onun əsərlərinin filoloji tərcüməsinə bir daha baxılmasının aktuallığından bəhs etmişdir.

Elmi seminara Xəzər Universitetinin əməkdaşları və tələbələri ilə yanaşı, Azərbaycan Milli Elmlər Akademiyası, Türkiyə və Almaniyadan mütəxəssislər qoşulmuşlar. Kastamonu Universitetinin professoru Vüsalə Musalı, Xəzər Universitetinin əməkdaşları dosent Xatirə Yusifova və Dr. Zəminə Ziyayeva da çıxış etmişlər.

Sonda Prof.Dr. Mustafa İsen seminar iştirkaçılarının mövzu ilə bağlı suallarını cavablandırmışdır.

While 2021 was declared as "Year of Nizami Ganjavi" in Azerbaijan, Khazar University's Department of Languages and Literatures is implementing a project entitled "Nizami Ganjavi-880" dedicated to Nizami's poetry.

On May 22, a virtual scientific seminar entitled "Nizami's influence on the literature of the Turkic world" was held with the participation of Turkish literary critic, as well as a well-known figure of the Turkic world, Prof. Dr. Mustafa Isen. Opening the scientific seminar, the head of the Department of Languages and Literatures, Associate Professor Dilbar Zeynalova greeted the participants and provided them with information about the guest. Mustafa Isen is not only a literary critic, but also a statesman. He was the head of the Presidency the Republic of Turkey, and held important positions in the Ministry of Culture. It was noted that Prof. Dr. Mustafa Isen is one of the most compassionate researchers on "Divan" poetry. The scholar's book "Poems of Sultans, Sultans of Poems" was published in 2014 by "Qanun" publishing house in Azerbaijan. The book contains information about 5 Azerbaijani rulers and examples of their poems along with many Turkish poet emperors. The scholar has also led many projects in Turkey, and has managed to implement a significant project entitled "Dictionary on Names belong to Turkish Literature". Prof. Dr. Mustafa Isen touched upon the issues such as Nizami Ganjavi's poetry, the time he lived and created, litireray language of poet's works, as well as the poet's influence on contemporaries and later literary class while delivering speech on "Nizami's influence on the literature of the Turkic world".

At the seminar, Professor Hamlet Isakhanli, Founder of Khazar University, Chairman of the Board of Directors and Trustees, Irada Khalilova, Rector of the University, and Elza Samadova, Dean of the School of Humanities, Education, and Social Sciences, greeted the guests and participants and expressed their aspiration about the event. Professor Hamlet Isakhanli spoke about the necessity of re-examining Nizami's legacy and reconsidering the philological translation of his works.

Experts from the Azerbaijan National Academy of Sciences, Turkey, and Germany joined the scientific seminar along with Khazar University staff and students. Professor of Kastamonu University Vusala Musali, Khazar University staff members, associate professors Khatira Yusifova and Dr. Zamina Ziyayeva also delivered speech at the seminar.

At the end, Prof. Dr. Mustafa Isen answered the questions of the seminar participants on the topic and thanked the organizers of the event.



# QAZİ UNİVERSİTETİ İLƏ XƏZƏR UNİVERSİTETİ ARASINDA PROTOKOL İMZALANDI

# A PROTOCOL WAS SIGNED BETWEEN GAZI UNIVERSITY AND KHAZAR UNIVERSITY

Mayın 25-də Xəzər Universitetinin rektoru, dosent İradə Xəlilova Türkiyənin Qazi Universitetinin rektoru, professor Musa Yıldız`ın rəhbərlik etdiyi nümayəndə heyəti ilə Azərbaycanın aparıcı ali təhsil müəssisələrinin rektorları arasında "Türkiyə-Azərbaycan arasında təhsil əməkdaşlığı" mövzusun-da təşkil olunmuş görüşdə iştirak etdi.

Görüşü giriş sözü ilə Təhsil nazirinin müavini Firudin Qurbanov açaraq, türkiyəli qonaqları və Azərbaycanın aparıcı 5 universitetinin rektorlarını salamladı. O, son illər Türkiyə-Azərbaycan universitetləri arasında yaradılmış əlaqələrdən danışdı.

Sonda Qazi Universiteti ilə Xəzər Universiteti arasında protokol imzalandı. Protokolu Qazi Universitetinin rektoru professor Musa Yıldız və Xəzər Universitetinin rektoru dosent İradə Xəlilova imzaladılar.

On May 25, 2021, Associate Professor Irada Khalilova, the rector of Khazar University, attended a meeting on "Turkish-Azerbaijani educational cooperation" between a delegation led by Professor Musa Yildiz, the rector of Gazi University, Turkey, and rectors of leading Azerbaijani universities.

Opening the meeting, Deputy Minister of Education Firudin Gurbanov greeted the Turkish guests and rectors of the top 5 universities in Azerbaijan. He spoke about the relations established between Turkish and Azerbaijani universities in recent years.

In the end, a protocol was signed between Gazi University and Khazar University. The protocol was signed by Professor Musa Yildiz, Rector of Gazi University, and Irada Khalilova, Rector of Khazar University.

# "XƏZƏR"İN DEKANI QAZİ UNİVERSİTETİNİN DƏVƏTİ İLƏ KONFRANS KEÇİRİB

# THE DEAN FROM KHAZAR UNIVERSITY HOLDS A CONFERENCE AT THE INVITATION OF GAZI UNIVERSITY

Xəzər Universiteti Humanitar, təhsil və sosial elmlər fakültəsinin dekanı, filologiya üzrə fəlsəfə doktoru, dosent Elza Səmədova mayın 26-da Qazi Universitetinin Yüksək Təhsil Fakültəsinin dəvəti ilə "Kültürel Değişme ve Toplumsal Değerlerin Yaygınlaşmasında Aydınların Rolü" mövzusunda konfrans keçirmişdir.

On May 26, Dean of the School of Humanities, Education, and Social Sciences, Doctor of Philosophy in Philology, Associate Professor Elza Samadova held a conference on "The Role of İntellectuals on the spread of Cultural Shift and Social Values" at the invitation of Gazi University's Faculty of Higher Education.

# XƏZƏR UNİVERSİTETİNİN DOKTORANTI FƏLSƏFƏ DOKTORU ELMİ DƏRƏCƏSİ ALMAQ ÜÇÜN DİSSERTASİYA MÜDAFİƏ ETDİ

# KHAZAR UNIVERSITY'S DOCTORAL STUDENT DEFENDED HIS DISSERTATION FOR THE DEGREE OF DOCTOR OF PHILOSOPHY

İyunun 29-da Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı muzeyində fəaliyyət göstərən Ali Attestasiya Komissiyası tərəfindən təsdiq olunmuş D 1.31-qeydiyyat nömrəli Dissertasiya şurasında filologiya elm sahəsi üzrə 5716.01 – Azərbaycan ədəbiyyatı ixtisasında Xəzər Universitetinin doktorantı Mədinə Karahanın "Əhməd Ağaoğlu yaradıcılığı Türkiyə ədəbi, ictimai-siyasi həyatında" mövzusunda yazdığı fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiya işinin müdafiəsi keçirildi.

Dissertasiya şurasının sədri akademik Rafael Hüseynovun, birinci rəsmi opponent, Türkiyəninin Ege universitetinin professoru, türk dünyasının tanınmış alimlərindən Ali Yavuz Akpınarın, ikinci rəsmi opponent, Bakı Dövlət Universitetinin Dünya ədəbiyyatı kafedrasının müdiri, filologiya elmləri doktoru, professor Cəlil Nağıyevin, üçüncü rəsmi opponent, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Yeni dövr Azərbaycan Ədəbiyyatı şöbəsinin aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru, dosent Şahbaz Musayevin, görkəmli türkoloq alim, filologiya elmləri doktoru, professor Tofiq Məliklinin, filologiya elmləri doktoru, professor Vaqif Sultanlının iştirakı ilə hibrid formatda keçirilən müdafiə prosesinə Moskvadan, Rusiya Federasiyasındakı Azərbaycan səfirliyinin əməkdaşı, Əhməd bəy Ağaoğlunun qohumu Nigar Axundova da qoşulmuşdu.

İddiaçının təqdimatından sonra rəsmi opponentlərin çıxışları dinlənildi, müzakirələr aparıldı.

Şura üzlərinin yekdil rəyi ilə dissertasiya işini Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasına təqdim etmək qərara alındı.

*Azpress.az* saytında Rafael Hüseynin müdafiədən kiçik yazısı dərc olunmuşdur:

On June 29, defence of a dissertation for the degree of Doctor of Philosophy written by Khazar University doctoral student Medina Karahan on "Ahmed Agaoglu's work in the literary, socio-political life of Turkey" in the field of philology 5716.01 - Azerbaijani literature approved by the High Attestation Commission operating in the National Museum of Azerbaijani Literature named after Nizami Ganjavi in the Dissertation Council with registration number D 1.31

Nigar Akhundova, an employee of the Azerbaijani embassy in the Russian Federation and Ahmad Bey Agaoglu' s relative also joined the hybrid defense process which was attended by Academician Rafael Huseynov, Chairman of the Dissertation Council, Ali Yavuz Akpinar, the first official opponent, professor of the Aegean University of Turkey, professor Jalil Nagiyev, one of the well-known scientists of the Turkic world, second official opponent, head of the department of world literature of Baku State University, doctor of philological sciences, Associate Professor Shahbaz Musayev, third official opponent, leading researcher of the New Age Azerbaijan Literature Department of the Institute of Literature named after Nizami Ganjavi of ANAS, professor Tofig Malikli, Doctor of Philosophy in Philology, prominent Turkologist, doctor of philological sciences, Professor Vagif Sultanli, Doctor of Philological Sciences.

After the presentation of the plaintiff, the speeches of the official opponents were heard and discussions were held.

With the unanimous opinion of the Council, it was decided to submit the dissertation to the High Attestation Commission under the President of the Republic of Azerbaijan. Rafael Hussein's short article on defense was published on Azpress.az:

*https://azpress.az/index.php?lang=az&sectionid=news&id=110952*



# XƏZƏR UNİVERSİTETİNİN REKTORU UFAZ-DA

# RECTOR OF KHAZAR UNIVERSITY AT UFAZ

İyunun 8-də Xəzər Universitetinin rektoru dosent İradə Xəlilova UFAZ (Azərbaycan-Fransız Universiteti) rəhbərliyi, direktor Vazeh Əsgərov, baş katib Yelizaveta Bydanova və Tədqiqat şöbəsinin müdiri professor Philippe Turek, həmçinin UFAZ əməkdaşları Elşən Abdullayev və Fidan Abdullazadə ilə birlikdə UFAZ-ın laboratoriya korpusunu ziyarət etdi.

İradə Xəlilova UFAZ-ın beynəlxalq standartlara tam uyğun şəkildə təchiz olunmuş geniş laboratoriyalarının və infrastrukturunun təhsil və tədqiqat imkanları ilə tanış olaraq, onları yüksək qiymətləndirdi.

Sonra UFAZ və Xəzər Universitetinin gənc tədqiqatçıları ilə əməkdaşlıq şərtləri, həmçinin tədqiqat imkanları, birgə layihələr, müəllim mübadiləsi, hər iki universitetin laboratoriya təchizatından istifadə və s. sahələrdə əməkdaşlıq məsələləri müzakirə edildi.

On June 8, Rector of Khazar University Irada Khalilova made an extensive visit to UFAZ (Azerbaijan French university) laboratory corpus together with UFAZ Management, Director Vazeh Askarov, Secretary General Elizaveta Bydanova, and Head of Research Department Prof. Philippe Tu-rek, as well as UFAZ Faculty members Elshan Abdullayev and Fidan Aslanzade.

Positively impressed by the premises and infrastructure of the UFAZ scientific laboratories, Irada Khalilova conveyed her highest appreciation of the vast laboratory facilities that are equipped in full compliance with international standards.

Prof. Khalilova got acquainted with the educational, most importantly the research opportunities that UFAZ is offering to its students and partners. In the meeting, collaboration between UFAZ and Khazar University's young researchers was widely discussed. Several areas of cooperation were mentioned including research possibilities, joint projects as well as exchange of instructors and usage of lab facilities in both universities.

## "XƏZƏR"İN MƏZUNU AYİB-də YÜKSƏK VƏZİFƏYƏ TƏYİN OLUNUB



Trend İnformasiya Agentliyinin 2021-ci il iyunun 28-də Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB – EBRD) rəsmi səhifəsinə istinadən yaydığı məlumata görə, Xəzər Universitetinin məzunu Aytən Rüstəmova bankın Qırğızıstan, Tacikistan və Türkmənistanda yeni regional meneceri təyin olunub.

Azərbaycan vətəndaşı olan Aytən Rüstəmova 2001-ci ildən AYİB-də işə başlayıb. Bankın Bakı ofisində müxtəlif vəzifələrdə çalışıb. O, 2017-ci ildə AYİB-in Tacikistanda regional rəhbəri təyin olunub.

A. Rüstəmova Azərbaycan Dillər Universitetində xarici dillər üzrə magistr dərəcəsi, Xəzər Universitetində və ABŞ-ın Corciya Dövlət universitetində (Georgia State University) MBA (master of business administration – iqtisadiyyat və menecment sahəsində magistr dərəcəsi) təhsili alıb.

Qeyd edək ki, A.Rüstəmova vəzifəsini icra edib AYİB-in Londonda yerləşən Mərkəzi ofisinə qayıdan Neil McKain`i əvəz edəcək. Ofis Qırğızıstanın paytaxtı Bişkekdə yerləşəcək. A.Rüstəmova 2021-ci il sentyabrın 1-də vəzifəsinin icrasına başlayacaq.

İyunun 28-29-da *azerbaycan24.com*, *zekaishiginda.az*, *report.az*, *yeniavaz.com* və digər saytlar da müvafiq xəbər yayımlanmışlar.

## KHAZAR UNIVERSITY GRADUATE APPOINTED TO HIGH POSITION AT EBRD

Ayten Rustamova has been appointed Regional Head of the Kyrgyz Republic, Tajikistan and Turkmenistan for the European Bank for Reconstruction and Development, (EBRD) Trend News Agency reports on June 28, 2021, according to the official website of the EBRD.

Ayten Rustamova, an Azerbaijani citizen, joined the EBRD in 2001. He held various positions in the bank's Baku office. In 2017, he was appointed EBRD Regional Director for Tajikistan.

A. Rustamova took her master's degree in foreign languages from the Azerbaijan University of Languages, and an MBA (master's degree in economics and management) from Khazar University and Georgia State University. It should be noted that Rustamova will replace Neil McCain, who returned to the EBRD central office in London.

The office will be located in Bishkek, the capital of Kyrgyzstan. A.Rustamova will take office on September 1, 2021. On June 28-29, azerbaycan24.com, zekaishiginda.az, report.az, yeniavaz.com and other sites also published news on this issue.

*https://en.trend.az/azerbaijan/politics/3446662.html*



## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN ADMİNİSTRASİYASI RƏHBƏRİNƏ ZİYALILARIN MÜRACİƏTİNİ "XƏZƏR"İN ƏMƏKDAŞLARI DA İMZALAYIB

## KHAZAR UNIVERSITY STAFF MEMBERS SIGN PETITION BY INTELLECTUALS TO HEAD OF PRESIDENTIAL ADMINISTRATION OF AZERBAIJAN

2021-ci il iyunun 1-də bir sıra ölkə xəbər portalları və saytları (*avropa.info, miq.az, mia.az* və s.) Azərbaycan Respublikası Prezidentinin Administrasiyası rəhbəri Samir Nuriyevə yüzlərlə ziyalının "Dövlət dilinə qarşı hörmətsizliyə son qoyulmalıdır" adlı müraciətini dərc etmişdir. Xəzər Universitetinin İctimai əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəyli və "Xəzər Xəbər" jurnalının baş redaktor müavini, əməkdar jurnalist Əlirza Balayev də müraciəti imzalayıblar.

Müraciətdə qeyd olunur ki, Bakının və digər iri şəhərlərin küçələrində müşahidə edilən dil mənzərəsi – şirkət və ticarət obyektlərinin, reklamların yalnız xarici dildə yazılması Dövlət dili haqqında qanunun tələblərinə ziddir və buna son qoyulmalıdır.

On June 1, 2021, a number of national news portals and websites (*avropa.info, miq.az, mia.az, etc.*) published a petition entitled "Disrespect for the state language must end" addressed to the head of the Presidential Administration of the Republic of Azerbaijan Samir Nuriyev by hundreds of intellectuals. Director of Khazar University's Public Relations and Media Alovsat Amirbayli, and Khazar Khabar's Deputy Editor-in-Chief, Honored Journalist Alirza Balayev also signed the petition.

The petition states that the language usage observed in the streets of Baku and other major cities - writing of company and trade facility names, advertisements only in a foreign language - contradicts the requirements of the law on the state language and it must be ended.

*https://avropa.info/post/372340*

## İDARƏETMƏ VƏ TƏLƏBƏ İŞLƏRİ ÜZRƏ PROREKTOR *TELEQRAF.COM*`UN SORĞUSUNU CAVABLANDIRIB

## VICE-RECTOR FOR ADMINISTRATION AND STUDENT AFFAIRS RESPONDS INQUIRY BY *TELEQRAF.COM*

2021-ci il iyunun 2-də *teleqraf.com* xəbər portalı ölkənin bir neçə ali təhsil müəssisəsinin rəhbərlərinə "Universitetlər əyani tədrisə hazırlaşırmı" sorğusu ilə müraciət etmişdir.

Xəzər Universitetinin İdarəetmə və tələbə işləri üzrə prorektoru İsaxan İsaxanlı sorğunu cavablandıraraq demişdir: "Hər bir ali məktəb istəyir ki, dərslər əvvəlki qaydada bərpa edilsin. Bu, qarşıdakı 3 ayda epidemioloji vəziyyətin gedişatından asılıdır. Əgər belə davam edərsə, düşünürük ki, sentyabrdan ənənəvi tədris bərpa olunacaq.

Hazırda ötən mövsümdə olduğu kimi, imtahanlar davam edir, qiymətləndirmə standart qaydada aparılır. Təbii ki, pandemiya şəraitinə görə, çalışırıq ki, tələbələrin xeyrinə qərarlar verək".

On June 2, 2021, the news portal *telegraf.com* addressed the heads of several higher education institutions of the country with an inquiry asking "Are universities getting ready for face-to-face teaching?"

Isakhan Isakhanli, Khazar University's Vice Rector for Administration and Student Affairs, responded to the inquiry: "Every university desires the teaching to be restored as before.It depends on the epidemiological situation in the next 3 months. If this tendency continues, we think that traditional education will be restored in September. At present, as in the previous semester, the exams are underway, the assessment is carried out in a standard way. Of course, due to the pandemic, we try to make decisions in favor of students."

***https://teleqraf.com/news/sosium/290027.html***

## PSİXOLOGİYA DEPARTAMENTİNİN MÜƏLLİMİ "ÇIXIŞA DOĞRU" PROQRAMINDA

## STAFF MEMBER OF THE DEPARTMENT OF PSYCHOLOGY IN THE PROGRAM "ÇIXIŞA DOĞRU"

2021-ci il yunun 2-də Xəzər Universitetinin Psixologiya departamentinin müəllimi və doktorantı Nilufər Əlizadə AZTV-də yayımlanan "Çıxışa doğru" proqramının qonağı olub. Proqramda Ağcabədidə 15 yaşlı yeniyetmənin ana olması faktı ekspertlər tərəfindən müzakirə olunub. Psixoloq Nilufər Əlizadə bu kimi erkən nikahlarda valideyn-uşaq münasibətlərinin, təhsil yönümlü maarifləndirmənin rolu haqqında danışaraq, məsələni psixoloji aspektdən təhlil edib.

Proqramı aşağıdakı linkdən izləmək olar:

On June 2, 2021, Nilufar Alizadeh, a lecturer and doctoral student in the Department of Psychology at Khazar University, was a guest in the program "Çıxışa doğru" ("Towards Solution") broadcasted on AZTV. Experts discussed the fact that a 15-year-old girl gave birth in Agjabadi.

Psychologist Nilufar Alizadeh analyzed the issue from a psychological point of view speaking about the role of parent-child relations and educational enlightenment in such early marriages.

The program can be watched through the following link:

*https://www.youtube.com/watch?v=aSaAsn_nq30&t=197s*

## "XƏZƏR"İN MÜƏLLİMİ İCTİMAİ TV-NİN VERİLİŞİNDƏ

## KHAZAR'S FACULTY MEMBER ON PUBLIC TV

2021-ci il iyunun 9-da Xəzər Universitetinin Psixologiya departamentinin müəllimi və doktorantı Nilufər Əlizadə İctimai TV-də yayımlanan "Dikdaban" verilişində psixoloq ekspert kimi çıxış etmişdir.

Verilişdə yeniyetmələrin psixoloji xüsusiyyətləri haqqında danışan psixoloq, bu dönəmdə valideynlərin yanlış davranışları haqqında, yeniyetmə beyninin bioloji inkişaf prosedurunun onların davranış və düşüncə tərzinə təsirləri və sosial inkişaf qaydaları haqqında real nümunələr əsasında izahat vermişdir. Proqramın redaktoru sonda Nilufər Əlizadəyə veriliş boyu tamaşaçıların zəng edərək bildirdikləri müsbət rəylərə görə təşəkkür etmişdir.

On June 9, 2021, Nilufar Alizadeh, the instructor and PhD student in the Department of Psychology at Khazar University, spoke as a psychologist/ expert on the program "Dikdaban" broadcast on Public TV.

Speaking about the psychological characteristics of teenagers, the psychologist explained the misbehavior of parents during this period, the impact of the biological development of the teenagers' brain on their behavior and thinking, and the rules of social development based on real examples. At the end of the program, the editor of the program thanked Nilufar Alizadeh for the positive feedback from the audience during the program.

*https://www.youtube.com/watch?v=jrJpeJcbOSg&t=2622s*



# MƏNİM QARABAĞIM VƏ YA QARABAĞ DÜYÜNÜ

**Hamlet İsaxanlı**

*Əvvəli jurnalın 402-403, 404-405 və 406-cı (yanvar-fevral, mart-aprel, may 2021-ci il) nömrələrində*

## Daşnak liderindən böyük dərs

1918-ci ildə elan edilən Ermənistan Respublikasının ilk baş naziri və Daşnak partiyasının liderlərindən biri olan Hovanes Kaçaznuni (1867-1938) 1923-cü ildə Buxarest`də Daşnak partiyasının baş toplantısında hesabatla çıxış etdi; bu hesabat "Daşnaktsutyun`un görülısi heç bir işi qalmayıb" adlı kitab şəklində dərc olundu. Bu kiçik, amma məzmunlu kitabın ruscaya tərcüməsi 1927-ci ildə Tiflisdə çapdan çıxdı. Bu qiymətli əsər müəllifin birbaşa iştirak etdiyi və ya yaxşı xəbərdar olduğu məsələlərin - Daşnak partiyasının Türkiyə və Qafqazda həyata keçirdiyi cürbəcür və qarışıq işlərin, Ermənistanın müstəqillik yolunun, daşnakların buraxdığı həlledici səhvlərin təhlilinə həsr olunmuşdur. Müəllifin Ermənistan və Zaqafqaziyanın vəziyyəti və gələcəyi haqqında düşüncələri günümüzlə çox səsləşir; bu səbəbdən, onun dərsinə diqqət yetirmək faydalıdır.

**Qeyd.** Kaçaznuni`nin əsl adı Hovanes Hovanesyan olub. O, babasının soyadı olan İgitxanyan`ın ermənicə mənasını - Kaçaznuni`ni soyad kimi qəbul edib. İstedadlı memar olan H. Kaçaznuni 1893-1895-ci illərdə Bakıda mühəndis-memar vəzifəsində çalışmış, sonra yenidən Bakıya qayıtmış və 1899-1906-cı illərdə bir çox memarlıq layihələri üzərində işləmiş və onların həyata keçirilməsi ilə məşğul olmuşdur. 1907-1910-cu illərdə Bakıda inşa olunan erməni apostol kilsəsinin memarı olmuşdur. İşi maliyyələşdirən zəngin şəxsin (Budaqov) adı ilə Budaqovski kilsəsi kimi tanınan bu məbəd SSRİ-də dini məbədlərin sökülməsi siyasətinə məruz qalanlardan biri olmuşdur (1930). Boşalan yerdə Azərbaycan Dövlət Konservatoriyasının binası tikilmişdir.

Keçmişə tənqidi baxış, Ermənistanın qonşuları ilə münasibətləri, gələcəyə gedən yolun doğru seçilməsi kimi vacib problemlər Kaçaznuni`nin 1923-cü ildə etdiyi məruzə və uyğun kitabda dərindən təhlil olunmuşdur; bu klassik əsərdən yan keçmək mümkün deyil, onun, demək olar ki, hər cümləsi diqqətəlayiqdir. Bu əsərdən alıntılar etməyi və onları, uzun-uzadı şərhlərə ehtiyac duymadan, oxucu ilə bölüşmək fikrindəyəm; müəllif mətninin özü şərh və lazımi vurğularla zəngindir.

**Qeyd.** Kursivdən istifadə edərkən az qala bütün mətni kursivləmək istədiyimi görüb, kursiv fikrindən əl çəkdim.

* * *

Kaçaznuni Ermənistanın Türkiyə ilə savaşa girməsinin böyük xəta olduğuna diqqət çəkir. "1914-cü ilin payızında, Türkiyənin hələ savaşan dövlətlər ailəsinə daxil olmadığı, amma buna hazırlaşdığı bir zamanda Zaqafqaziyada böyük hay-küy və səylə erməni könüllü drujinaları yaradılmağa başlanıldı. Erməni İnqilabi Daşnaksutyun Partiyası cəmi bir neçə həftə əvvəl Erzurumda könüllülərdən ibarət drujinalara mənfi münasibət barədə qərar çıxarmış öz qurultayının qətnaməsinin əleyhinə olaraq, həm drujinaların təşkilində, həm də onların Türkiyəyə qarşı hərbi əməliyyatlarında fəal iştirak etdi" "1914-cü ilin payızında erməni könüllü dəstələri formalaşdı və türklərə qarşı çıxış etdi, çünki başqa cür mümkün deyildi. Bu, erməni xalqına, demək olar ki, 25 il ərzində, bütöv bir nəsil boyu aşılanan psixologiyanın təbii və qaçılmaz nəticəsi idi. Bu psixologiya öz təcəssümünü tapmalı idi və tapdı" (Ов. Качазнуни. Дашнакцутюн больще нечего делать. Заккнига, 1927,с. 10-11).

Arzularla imkanın düz gəlməməsi, ermənilərin gücü haqqında illüziyalar, hər şeyin, o cümlədən savaşın mərkəzində erməni maraqlarının durması, günahı ancaq kənarda, başqalarında axtarmaq, ümumiyyətlə, psixoloji tarazlığın pozulması yaxşı nəticə verə bilməzdi... "Əsasımız olmadan biz qələbəyə aludə olduq, əmin idik ki, sədaqətimizə, səylərimizə və yardımımıza görə Çar hökuməti bizə Türkiyədəki azad edilmiş vilayətlərdən və Zaqafqaziya Ermənistanından ibarət olan Ermənistanın muxtariyyətini bəxş edəcəkdir. Beynimiz dumanlanmışdı. Öz istəklərimizi zorla başqalarının boynuna qoyurduq. Məsuliyyətsiz şəxslərin məzmunsuz sözlərinə böyük önəm verirdik, özünühipnozun təsiri altında artıq gerçəkliyi dərk etmədik və xəyallara qapıldıq". "Erməni xalqının gücünü, onun siyasi və hərbi əhəmiyyətini, həmçinin ruslara göstərdiyimiz köməyi həddən artıq yüksək qiymətləndirdik. Kifayət qədər kiçik məziyyətlərimizi dəyərindən artıq qiymətləndirərək, təbii olaraq, arzularımızı və gözləntilərimizi də şişirdirdik" (Ов. К. с. 12).

"Siyasi baxımdan yetkin olmayan və müvazinətsiz insanlara xas olan məntiqsizliklə biz bir ifratdan digərinə qapılırdıq... Çox vaxt sadəlövhcəsinə bütün müharibənin erməni məsələsinə görə aparıldığını düşünürdük. Ruslar hücum edəndə əmin idik ki, onlar erməniləri xilas etməyə gedirlər, geri çəkiləndə isə deyirdik ki, türklərə bizi qırmaq imkanı vermək üçün geri çəkilirlər. Ağır taledən acı-acı şikayətlənmək və bədbəxtliyimizin səbəbini özümüzdən kənarda axtarmaq – milli psixologiyamızın Daşnaksutyun partiyasından da yan keçmədiyi səciyyəvi cizgilərindən biridir. Ruslar bizimlə alçaqcasına rəftar etdilər inamında sanki xüsusi bir təskinlik vardı (sonralar fransızlar, amerikalılar, ingilislər, gürcülər, bolşeviklər, bir sözlə, bütün dünyanın növbəsi gələcəkdi)". (Ов. К. с. 14-15).

Kaçaznuni 1920-ci ilin payızında Türkiyə ilə başlanan savaşa xüsusi diqqət yetirir, bu savaşa aparan siyasi, hərbi, psixoloji səhvlərdən söhbət açır. "Biz Türkiyənin hansı gücə malik olmasından məlumatsız idik və öz gücümüzə kifayət qədər əmin idik. Əsas səhv də bundadır...". "Sərhəddə artıq hərbi əməliyyatlar başladıqda türklər bizə görüşməyi və danışıqlara başlamağı təklif etdilər. Biz onların təklifini rədd etdik. Bu, böyük cinayət idi". "Sevr müqaviləsi hamını azdırmışdı". "Hökumət... qoşunların sayını artırmaq məqsədilə aramsız olaraq yeni adamları çağırır, ahıl, yorğun, ailə və iqtisadi qayğıları olanları səfərbər edir, onları tələsik silahlandırır və cəbhəyə göndərirdi. Bu insanlar hazır fərarilər idi və əsgərlərin sıralarında ruh düşkünlüyünü gücləndirirdilər" (Ов. К. с. 37-39).

* * *

Kaçaznuni Böyük Ermənistan arzusunun gerçəklikdən uzaq olduğunu, Türkiyə Ermənistanı`nın artıq yox olduğunu vurğulayır, türklərlə danışıq məsələsinə toxunur, bu işi ancaq yeni adamların

görə biləcəyini deyir.

"1919-cu ilin yazında Parisdə... bizim tələblərimiz təqdim edildi: ...Geniş dövlət tələb edilirdi, Qara dənizdən Aralıq dənizinə, Qarabağ dağlarından ərəb səhralarına qədər Böyük Ermənistan". "... Erməni Parisi bu tələbi irəli sürdü..." (Ов. К. с. 43-44). "Artıq Türkiyə Ermənistanı yoxdur...". "Nə vaxtsa türklərlə razılaşma zərurəti yaranarsa, səhnəyə başqa təfəkkürə, başqa psixologiyaya və xüsusən də başqa keçmişə malik olan (yaxud keçmişi olmayan) başqa adamlar çıxmalıdırlar". "...Yeni şərait yeni tələblər irəli sürəcək" (Ов. К. с. 69, 64-65).

Müəllif Azərbaycan və Ermənistan arasında dinc yanaşı yaşamaq məsələsinin öhdəsindən gələ bilmədiklərini, ermənilər üçün daşnakların həll edə bilmədiyi təhlükəsizlik və inkişafa görə bolşeviklərə minnətdar olmaq lazımdır – daşnaklar üçün qəribə görünən bu fikri ortaya atır.

"Azərbaycanla bu və ya digər dərəcədə məqbul *modus vivendi* tapa bilməyib, müsəlman rayonlarında inzibati tədbirlərlə qayda-qanun yarada bilməyib, silaha əl atmalı, qoşun çəkməli, dağıntı və qırğın törətməli olduq, hətta bunda da uğursuzluqla üzləşdik ki, bu da, şübhəsiz, hakimiyyətin nüfuzuna xələl gətirir" (Ов. К. с. 33).

**Qeyd.** Latınca "həyat tərzi" mənası verən *modus vivendi* adətən münaqişədə olan tərəflərin, müvəqqəti də olsa, yanaşı varlığını təmin edən razılaşma əldə etməklə bağlıdır.

"Biz bolşeviklərə minnətdar olmalıyıq. Bizi devirməklə onlar bizi, deməzdim ki, xilas etdilər, amma hər halda, miras qalmış işi daha etibarlı yola qoydular" (Ов. К. с. 63). Müəllif Qafqaza təsir gücü olan iki ölkə olduğunu və Ermənistanın onlardan biri – Rusiya ilə bağlılığa çağırır. "Bu gün iki gerçək güc var və biz onlarla hesablaşmalıyıq – Rusiya və Türkiyə... başqa ayrı seçimimiz yoxdur... əlbəttə, Türkiyə yox, Rusiya" (Ов. К. с. 55).

Kaçaznuni Daşnaksutyun`un ermənilərə xeyir vermədyini, uzaqgörən ola bilmədiyini, artıq işə yaramadığını bəyan edir. "Bir çox hallarda partiyanı xalq kütlələrindən fərqləndirmirəm. Həmin psixologiya, həmin qafillik, həmin siyasi məhdudluq" (Ов. К. с. 45, 62). "Burada mən sizi, bilirəm, çox kədərləndirəcək sözü deməliyəm, hansını ki, nəhayət bəzək-düzək pərdəsi olmadan, açıq-aydın, demək lazımdır: *E.İ.P. Daşnaksutyuna görüləsi bir iş qalmadı!*" (Ов. К. с.60). "Ermənistan və erməni xalqı Daşnaksutyun üçün xammal deyil".

* * *

Kaçaznuni toplantıdakı çıxış - hesabatdan sonra bir dostundan narazılıq bildirən məktub almış, etirazlara və qoyulan suallara münasibətini cavab məktubunda bildirmiş, erməniləri, bu bədnam milləti məhz bütün nöqsanları ilə, olduğu kimi sevdiyini vurğulamışdı. "Mən erməni vətənimi və erməni xalqını sevirəm – bu kasıb sərt ölkəni və bu cahil, kirli, niyyətini gizləyən, özünə vurğun və tamahkar xalqı. Məziyyətlərinə görə deyil, bütün eyibləri və yara-xoraları ilə birlikdə sevirəm" (Ов. К с.68).

Müəllif dostunun *bəs nə üçün bu işə girişdik və qurbanlar verdik* sualına da münasibət bildirir, səbəbi türklər əleyhinə mahnı və romanlar yazıb xalqı mübarizəyə səsləyənlərdə və erməniləri silahlı mübarizəyə, terrora çağıran və bunun təşkilatçısına çevrilən Daşnaksutyun`un yaradılmasında görür. "Bu barədə biz könüllü dəstələr yaratdığımız 1914-cü ildə, ondan da əvvəl Daşnaksutyun`un təməlini qoyarkən, bir az da əvvəl – Raffinin povestləri və Qamar Katip`in "azad nəğmələrindən" ruhlanarkən düşünməli idik" (Ов. К. с. 73).

**Qeyd.** Raffi İranda, Səlmas yaxınlığında doğulmuş qatı millətçi erməni yazıçısı Hakop Melik- Hakopyan`ın (1835-1888) təxəllüsüdür. *Samvel* əsasən tarixi romanları ilə tanınmış bu yazıçının ən populyar əsəri sayılır. Qarabağ məliklərinin tarixi varlığını sürdürmələrinə həsr olunmuş *Xəmsə məlikliyi* əsəri vardır (1882). 1877-78-ci illər Rus-Türk savaşı erməni millətçiliyini qızışdırdı; Raffi və Qamar Katip kimi düşmənə nifrəti artıran və hər

vəchlə mübarizə apamağa çağıran şair, yazıçı və jurnalistlər meydana çıxdılar.

Qamar Katip Naxçıvan - Donu`lu erməni şairi Rafael Patkanyan`ın (1830-1892) bir silsilə şeirlərində istifadə etdiyi təxəllüsdür. R. Patkanyan Osmanlı dövlətində yaşayan erməniləri azadlıq əldə etməyə, silahlı mübarizəyə, türklərlə yanaşı kürdləri, çərkəsləri əzməyə çağıran şeirlər yazmışdır. *Azad mahnılar* adlı şeir kitabı (1878/79) geniş yayılmışdı. *Arazın göz yaşları* adlı şeiri populyar olub. Şair erməni qanı tökülməsində Avropanı günahlandırırdı (sətri tərcümədə):

…Tanrıya şükür olsun, erməni qanı axıdıldı!
Qana susamış Avropanın arzusu çin oldu…

Şair Avropanı məzəmmət edir, Avropaya qəti etiraz edir (1904), Avropanın ermənilərə borclu olduğunu və borcunun əvəzini qaytarmadığını deyir; bir zamanlar biz (ermənilər) İslamla vuruşub sizi qoruduq, sizə çörək verib aclıqdan ölməyə qoymadıq, siz isə...

Avropa, İslamın sənin övladların üçün hazırladığı
O dəhşətli zərbə yadındamı?
Lakin ermənilər səni kədər içində
Zavallı və bədbəxt görmək istəmədilər.

Və cəsarətlə sənin uğrunda mübarizə apardılar
Tam iki əsr, qanlar tökərək.
Lakin sən, Avropa, unudaraq hər şeyi,
Bu sevginin əvəzində nə verdin?
……………………………………….
Göylərin hökmü ilə xalqının boş çöllərdə
Ac qaldığını da unutmusan sən –
Əgər ermənilər sizə çörək verməsəydilər…
Verdiyin barıt, qalaq-qalaq sümük, cəsəd müqabilində.

**Qeyd.** R. Patkanyan`ın Avropanı İslamdan qorumaq və Avropanı aclıqdan xilas etməkdə ermənilərin həlledici rol oynaması fikri, Bernard Shaw demişkən, bir az şişirdilmişdir.

* * *

Dostunun *böyük, güclü Ermənistan vəd etmişdiniz, o hanı* sualına cavabında artıq *Türkiyə Ermənistanı* və ya *İki Ermənistan* deyilən şeyin mövcud olmadığını, ciddi dövlət adamının artıq *Birləşmiş Böyük Ermənistan* fikrindən əl çəkməli olduğunu deyir. "…Sənin hələ də yarıtmaz, təmin olunmamış tələblərin var… Soruşursan ki, "vəd edilmiş" Ermənistan hanı?... Bu tələbin indi – 1923-cü ilin yanvarında məhv edilmiş Türkiyə Ermənistanı və qalib Türkiyə üçün nə mənası var? O hansı «iki» Ermənistandır ki, birləşdirilməlidir? Heç olmasa, bir az ciddi olmağa çalışaq, axı bu, dövlət adamının birinci vəzifəsidir. "İkinci" Ermənistan artıq mövcud deyil. Bu, dəhşətli sözdür, lakin sözü deməməklə məzmunu dəyişdirmək mümkündürmü? Artıq bir erməninin də olmadığı erməni vilayətlərini türklərdən kim alacaq? Oradan türk ordularını və kürd "aşirətlərini" kim qovmalıdır?...Gerçəklik budur-"birləşmiş Ermənistan" məzmunsuz sözdən başqa bir şey deyil" (Ов. К. с. 75-76).

**Qeyd.** Bu yerdə daşnaklara əks qüvvə sayılan bolşeviklərin fəal üzvünün eyni məsələyə münasibətini yada salmaq maraqlıdır; hər iki şəxs sanki eyni fikirdədirlər. Anastas Mikoyan Leninə göndərdiyi növbəti hesabatda (1919, dekabr) Türkiyə ərazisində, onun yeddi vilayəti əsasında "Böyük Ermənistan" yaratmaq ideyasını belə şərh etmişdi: "... Bu ərazidə ermənilərin olmaması və ancaq müsəlman əhalinin olması onları utandırmır". Mikoyan mexanizmi dəqiqləşdirir: Bu "Ermənistanı" "cinayətkar elementlərdən", yəni, müsəlmanlardan

təmizləmək istəyirlər».

**Qeyd.** Anastas Mikoyan, (1895-1978) nüfuzlu Sovet partiya və dövlət xadimi, gəncliyində Andronik`in dəstəsində Türkiyə cəbhəsində döyüşmüş, 18-ci il Bakı mart hadisələrində dəstə başçısı kimi iştirak etmiş, Quba və digər yerlərdə dəhşətli qırğın törətmiş olan Hamazasp`ın dəstəsinə qoşulmuşdu.

Kaçaznuni nə olur-olsun, Rusiyasız Ermənistanın çox zəif olduğunu, zəif ölkənin mütləq, çox böyük istəklərinin mənasızlığını, Türkiyədən torpaq iddiasının boş olduğunu, əslində isə Türkiyədən çəkinmək lazım gəldiyini, hətta Türkiyənin Ermənistan vasitəsilə Azərbaycanla birləşmək istəyəcəyi ehtimalından danışır. "Şübhə etmirəm ki, Rusiyadan ayrılmış Ermənistan Türkiyədə heç bir qorxu yaratmayacaq. Lakin, sual verirəm: türklər onlar üçün təhlükəsiz olan bu Ermənistana niyə ərazi güzəştləri etməlidirlər? Nə zaman və hansı dövlət özünün zəif qonşusuna münasibətdə belə bir comərdlik etmişdir və türklərdən bunu gözləməyə hansı haqqımız var?.. Türkiyənin rus ordusu ilə üz-üzə olmadıqdan sonra öz məsləkdaşı və dindaşı – Azərbaycanla Ermənistan üzərindən birləşmək istəməsi, başqa sözlə, güzəştlərə deyil, yeni istilaya can atması daha ağlabatan deyilmi?". "Mütləq olanı tələb etmək, həqiqətən, ağılsızlıqdır. Ermənistan İngiltərə deyil, hətta İsveçrə belə deyil və ola da bilməz (öncədən görə bildiyimiz gələcəkdə də). Onun müstəqilliyi mütləq məlum məhdudiyyətlərlə şərtlənməlidir" (Ов. К. с. 77, 81).

* * *

Kaçaznuni üç Cənubi Qafqaz dövlətinin istəklərindən, onları gözləyən təhlükələrdən danışır, onların mübahisəli məsələni heç bir vasitəçi olmadan öz aralarında həll edə bilməmələrinə görə təəssüfünü bildirir. Gürcüstanın ciddi təhlükəsizlik problemi olmadığını, Azərbaycanın Qarabağ və Naxçıvandan imtina etməyəcəyini, Ermənistanın əsas vəzifəsinin isə xəyallardan əl çəkib varlığını qorumaqdan ibarət olduğunu deyir.

"Gürcüstan Zaqafqaziyada özünün üstün durumunu təmin etmək istəyir… Azərbaycan... iqtisadi və strateji səbəblərdən erməni Qarabağından, milli mülahizələrə görə isə Şərur-Naxçıvandan imtina edə bilməz. Ən təvazökar (çünki ən zəif) olan Ermənistan, hər halda, bir şeyi – öz dövlət mövcudluğunu təmin etməlidir". "Ağrılı və utancverici olsa da, bu bir faktdır ki, biz öz daxili mübahisələrimizin həlli üçün yetkinləşməmişik, hələ Zaqafqaziyada milli sülhün təmin edilməsi üçün hansısa xarici gücə, xarici nüfuza ehtiyac var". "…Gürcü xalqının fiziki varlığına heç yandan təhlükə yox idi. Bu səbəbdən gürcülər digərlərindən güclü idi". "Gürcüstan Zaqataladan Azərbaycanın, Acariyadan isə Türkiyənin xeyrinə imtina etməklə, lakin bununla yanaşı, Ermənistanın hesabına sərhədlərini tamamlamaqla bir tərzdə, babat dövlət təşkil edə bilər: sərhədlərilə dağlara və dənizə dirənərək, milli bütövlük üzərində cəmləşərək Gürcüstan yaşaya və inkişaf edə bilər. Türkiyəni təhdid etmədən, deməli, həm də özü üçün ciddi təhdidlər olmadan. Bəs Ermənistan? Azərbaycanla Türkiyə arasına dürtülən, hər iki tərəfə də mane olan və asanlıqla yer üzündən silinə bilən Ermənistan barədə eyni şeyi söyləmək olarmı? Bilirsənmi ki, Qızıl ordu Zaqafqaziyanı tərk etdiyi və bizim türk-azərbaycan-gürcü blokuna qarşı tənha qaldığımız (tənha, çünki üfüqümüzdə Rusiyanı əvəz edəcək başqa qüvvə görmürəm) gündən *Ermənistanın mövcudluğu sual altına düşəcək?"* (Ов. К. с. 79-81).

**Qeyd.** Kaçaznuni`nin fikirlərini bölüşənlər çox idi. On il sonra K.S. Papazian daşnakları çox kəskin tənqid edən kitabçasını yazdı; kitabçanın nəticə hissəsində Ermənistanın başına gələn bədbəxtçiliyin daşnak partiyası tərəfindən törədildiyi deyilir: "Beləliklə, AR Federasiyasını Ermənistan siyasi həyatının özəyinin düşməni kimi görürük, mənzərə budur... Onun əli hamının əleyhinə işləyib, onun sui-qəsdləri və cinayətləri bütün namuslu ermənilərin vicdanını sarsıtdı və xalqımızı mədəni dünya qarşısında rüsvay etdi. (K.S. Papazian. Patriotism Perverted. Boston Baikar Press, 1934, p. 67).

**Qeyd.** Göründüyü kimi, Kaçaznuni Azərbaycan və Ermənistanın yaxın və uzaq perspektivləri və Rusiya və Türkiyənin bölgədə oynayacaqları rol barədə öngörmələrində yanılmamışdır. Lakin, eyni zamanda, Gürcüstanın ərazi bütövlüyünü gözləyən təhlükələri tam görə bilməmişdir...

## Erməni məsələsinin uzantısı - terror

Erməni məsələsinin faciəvi uzantılarından biri tarixçilər və siyasətçilər tərəfindən *Erməni terroru* adlandırılan hadisədir.

Erməni terrorizminin birinci mərhələsi ermənilərin özünə qarşı yönəlmişdi. "Xalq işi"nə, silahlı dəstələr yaradılmasına yardım və yəqin ki, təşkilatçılar və terrorçuların "cib xərcliyini" təmin etmək üçün az-çox imkanlı ermənilərdən pul ödənməsi tələb edilirdi. Tələbi ödəməyənin cəza almaq, öldürülmək riski böyük idi. Bir sıra hallarda varlı ermənilərin gəlirlərinin nəzarətə götürülməsinə cəhd edilirdi. Armenakan, Daşnak və Hnçak partiyaları millətçilik və terror ideyalarının simbiozu üzərində qurulmuşdu. Qətl olunanlar arasında düşmənlərə (Osmanlı rəsmiləri və s.) yaxşı münasibət bəsləyənlər və ya düşməndən rəsmi vəzifə alanlar da vardı (məsələn, Van şəhəri bələdiyyə başqanı seçilən Bedros Kapamacıyan, 1912). 1902-ci ilin yayında Şuşada milyoner İsaq Camharyan`ı hədələməklə ondan 30 min rubl (рубль) tələb olundu. O isə polisə xəbər verdi və daşnakların nümayəndəsi həbs edildi. Camharyan bir neçə ay sonra Moskvada erməni kilsəsinin önündə günün günorta çağı xəncərlə öldürüldü; Daşnak böyüklərindən M. Varandian Daşnaksutyun`un tarixinə həsr olunmuş kitabında bu əhvalatı danışır və "bu xain günahına görə payını aldı" deyir (K. S. Papazian. Patriotism Perverted. p. 16). K. S. Papazian Erməni terrorizminin erməni qurbanlarının tam olmayan siyahısını təqdim edir (pp. 68-73); geniş coğrafiyadan olan qurbanlar arasında varlı insanlar, jurnalistlər, partiyanın xəttinə qarşı çıxanlar, keşişlər və katolikoslara rast gəlinir. Təkcə üç il (1904-1906) ərzində Daşnak və Hnçak partiyaları böyük əksəriyyəti ermənilər olan 105 adamı qətlə yetirmişdilər

Erməni terrorunun birinci mərhələsi, "erməni xainlər"in qətli bitməyib, davam edir; terrorizmə qarşı çıxanlara, erməni-türk münasibətlərini sağlamlaşdırmağa çalışanlara qarşı hədə-qorxular qətlə qədər gedə bilir. Bununla yanaşı, erməni terroru baş hədəfinə, düşmənə, türkə və digər xalqlara doğru yönəlməyə başladı. Erməni terrorunun təkamülünü, ikinci mərhələsini Varandian xüsusi qeyd edir: "Daşnaksutyun terroru əvvəlcə əsasən qorxaq ermənilərə qarşı yönəlsə də, tədricən düşmənin özünə qarşı çevrildi və onun yüzlərlə qurbanını, türk, kürd, rus, böyük və ya kiçik zülmkarları... və başqalarını görürük". (K. S. Papazian. Patriotism Perverted. p. 18). Daşnakları kəskin tənqid edənlərin, anti-türk erməni terrorizmini qınayan erməni və qeyri-ermənilərin, erməni soyqırımını tanımayanların erməni terrorizminin hədəfinə düşmək təhlükəsi vardı.

Daşnaksutyun`un Yerevan şəhərində keçirilən 9-cu Baş Konqresində (oktyabr, 1919) Erməni qırğınına məsul sayılan Osmanlı və Azərbaycan rəsmi şəxslərini qətlə yetirmək, "ədalət cəzası"nı həyata keçirmək qərara alındı. Qərara ciddi surətdə etiraz edənlər olsa da, qısasçılıq ruhu qalib gəldi. 200 ətrafında şəxsin adı "Qara siyahı"ya daxil edildi. Qətllərin təşkili Nemesis əməliyyatı adı aldı (Nemesis yunan mifologiyasında qisas ilahəsidir). 1920-1922-ci illərdə Tiflis, Berlin, İstanbul və Roma şəhərlərində 78 qətl həyata keçirildi, Azərbaycan Demokratik Respublikasının (ADR) baş naziri olmuş Fətəli Xan Xoyski, ADR parlament sədrinin müavini Həsən bəy Ağayev, ADR daxili işlər naziri olmuş Behbud Xan Cavanşir, Osmanlı daxili işlər naziri olmuş Talat Paşa və dörd digər Osmanlı hərbi-siyasi xadimləri daşnaklar tərəfindən öldürüldü. Talat Paşanın qatilinə Berlin məhkəməsi bəraət verdi.

* * *

Erməni terrorunun üçüncü mərhələsi 1970-ci illərdə yeni erməni terror təşkilatlarının yaranması və

onların fəaliyyəti ilə bağlıdır. Erməni Soyqırımı Ədalət Döyüşçüləri, ingiliscə JCAG (Justice Commandos of the Armenian Genocide) adı ilə tanınmış sağçı terror təşkilatı və Ermənistanın Azadlığı naminə Erməni Gizli Ordusu, ingiliscə ASALA (Armenian Secret Army for the Liberation of Armenia) adı ilə tanınmış solçu qrup ən güclü və amansız erməni terror təşkilatları olduqlarını əməldə sübut etdilər. JCAG 1972-ci ildə Vienna şəhərində Daşnak partiyasının 20-ci qurultayında partiyanın hərbi qanadı kimi yaradıldı və 1985-ci ildə Ermənistan İnqilabi Ordusu (ARA, Armenian Revolutionary Army) adı aldı. ASALA 1975-ci ildə terror yuvası sayılan Beyrutda yaradıldı. "Türk rejimi və bizimlə əməkdaşlıq etməyən ermənilər" düşmən elan edildilər. ASALA Qərbi Ermənistanı azad etmək və onu Sovet Ermənistanı ilə birləşdirmək uğrunda mübarizə apardığını deyirdi. ASALA daxilində də yeni, o cümlədən, rəqib qruplar meydana çıxırdı. *Müstəqil Ermənistan naminə Yeni Ermənistan Müqaviməti* (NAR - New Armenian Resistance for the Independence of Armenia), *Yunan-Erməni-Bolqar Cəbhəsi* (Greek-Armenian-Bulgarian Front) və digər terror təşkilatları da vardı…

Erməni terrorçular dünyanın müxtəlif yerlərində Türkiyə diplomatları və onların ailələrini izləyib öldürmək işinə girişdilər və çox qan axıtdılar (1973-1986). ASALA hətta NATO`nu da düşmənlər siyahısına daxil etdi və kürd terror təşkilatı PKK (*Partiya Karkeren Kurdistan*, yəni, *Kürdüstan İşçi Partiyası*) ilə əməkdaşlıq etdi. Fələstin döyüşçüləri ilə ASALA-nın əməkdaşlığı isə daha sıx idi, ASALA üçün yaşayış yeri, təlim, qida, ofis sahəsi, çap materialları, silahlar və partlayıcı maddələr təmin edilirdi; ASALA da borclu qalmamağa çalışırdı, Fransada bəzi erməni terrorçularının evi fələstinlilər üçün silah anbarı rolu oynayırdı (F.P. Hyland, pp. 33, 43-44).

Erməni terrorçuları türk insanlarını öldürməklə kifayətlənmirdilər; səfirlik, konsulluq, Türk Hava Yolları və bank ofisləri, türk turizm və ticarət mərkəzləri, həmçinin, türklərlə əməkdaşlıq edən müxtəlif ölkə şirkətlərinin ofisləri silahlı basqınlara və partlayışlara məruz qalırdı. Yüzlərlə ölən və yaralananlar oldu. Erməni terrorizmi təşkilati baxımdan güclü idi, zamanında əməliyyat keçirə bilirdi. F. P. Hyland`ın gətirdiyi misal bunu nümayiş etdirir: Monte Melkonyan Parisdə həbs edilən kimi (11 noyabr 1981) sabahı günü Beyrutda AirFrance ofisi və Fransız mədəniyyət mərkəzi bombalandı, Monte`ni buraxıb yenidən həbs edəndə (14 noyabr 1981) bir həftə ərzində Parisdə, həmçinin, Beyrut və Tehranda Fransa ilə bağlı 6 təşkilat bombalandı (F. P. Hyland. P. 31). Öldürülən insanların, törədilən cinayətlərin siyahısı məlumdur. F.P. Hyland erməni terror qurbanlarının 1921-ci ildən başlayan geniş siyahısı, həmçinin qətlin baş verdiyi ölkə, yer, icraçı qatil və onun istifadə etdiyi silah növü haqqında məlumat verir.

* * *

"ASALA ermənilərdən, qeyri-ermənilərdən, bəlli qruplar və dövlətlərdən dəstək aldı. Dəstək bəzən sərbəst, bəzən xəsisliklə, bəzən çox pis, yaramaz şəkildə verilirdi. Dəstək həm maddi, həm də "natura" - silah, partlayıcı maddələr, təlim vasitəsilə göstərilirdi". (F.P. Hyland, p. 32). "Liviya, Suriyə və İran da ASALA-ya birbaşa və ya dolayı yollarla pul və ya təchizat yardımı edirdilər" (F.P. Hyland, p. 33). Erməni terrorçular Fransa və Yunanıstan kimi antitürk ruhlu ölkələrdə özlərinə tərəfdar tapırdılar, hərçənd ki, terror əməllərinə görə hökumət onları izləyir, məhkəməyə verir, həbs edirdilər. Terror liderləri və təbliğatçıları *biz terrorçu deyilik, qisasçıyıq, azadlıq uğrunda mübarizə aparırıq* deyir və bununla çox zaman rəğbət və dəstək əldə edirdilər. Daşnak hesabatlarına görə, müxtəlif ölkələrin erməni cəmiyyətlərində terrora dəstək üçün pul yığımı uğurla gedirdi, təbii ki, bəzən zora da əl atılırdı. Lakin, əsas maliyyə qaynağının uyuşdurucu (heroin, həşiş) alveri olduğu deyilir - 90% ətrafında (M.M. Gunter, p. 69-70), F.P. Hyland`a görə uyuşdurucu alverinin rolu o qədər böyük deyildi (F.P. Hyland, p. 33).

Su qabı suda çatlayar. Terrorçular həbs edilir, döyüşdə öldürülür və ya öz həmkarları tərəfindən satqınlıqda günahlandırılır, qətl edilirdilər. SCAG və onun davamı olan ARA rəhbərləri daşnaklar tərəfindən öldürüldülər. ASALA`nın qurucularından biri və lideri, İraq ermənisi, Hakob Hakobyan

(1951-1988) ləqəbli terror başçısı və M. Melkonyan rəqib və düşmən halına gəldilər, birbirinin adamlarını qətlə yetirdilər. H. Hakobyan Afinada öldürüldü. Amerika ermənilərindən olan Monte Melkonyan (1957-1993) ASALA`ya 1980-ci ildə qoşuldu, tezliklə onun populyar liderlərindən birinə çevrildi. Melkonyan terror fəaliyyətinə görə 1985-1989-cu illərdə Fransada həbsdə yatdı; onun anası artıq rahat yata bilərəm dedi, "qəribə səslənsə də, azı onun harada olduğunu bilirəm". Melkonyan həbsdə yatarkən həyat tezisini belə ifadə etmişdi: "hal-hazırda silahlara qələmdən daha çox ehtiyacımız var" (Armenian Genocide Resource Center. 3668) Would The Armenian Terrorist Monté Melkonian Be A Hero ? 2.8.18). O, 1990-cı ilin payızında Ermənistana gəldi və 1991-ci ildən Dağlıq Qarabağda vuruşmağa başladı, Azərbaycan əleyhinə mübarizənin "bütün erməni xalqının uzun müddətli təhlükəsizliyi üçün həlledici olduğunu" dedi (M.M. Gunter, p. 68). O, 1-ci Qarabağ savaşında Erməni tərəfin qələbəsi üçün əmək sərf etdi, amma ölümünü də burada, Ağdam döyüşündə tapdı (1993, 12 iyun).

## Sovet dövründə Dağlıq Qarabağ

Beynəlxalq aləmdə və ya ölkədə siyasi və sosial vəziyyət ciddi surətdə dəyişəndə üstüörtülü münaqişə və ziddiyyətlər üzə çıxır, əvvəl mümkün olmayanın indi mümkün ola biləcəyinə ümid yaranır. 2-ci Dünya Savaşından qalib çıxan SSRİ öz təsir və nüfuz dairəsini genişlətməklə məşğul idi. Uzaq Şərqdə Yaponiyadan, az da olsa, torpaq qopardı. Şərqi Avropa SSRİ-nin təkidi ilə sosializmə qovuşmağa başladı. Çində kommunist ideologiyasının qalib gələcəyi gözlənilirdi. Türkiyə 2-ci Dünya Savaşında neytral qaldı, amma Böyük Britaniya ilə yaxın münasibət qurdu. 1945-ci ilin fevral ayında qalib gəlməkdə olan tərəfə keçib, Almaniya və Yaponiyaya savaş elan etdi – bu, rəmzi səciyyə daşısa da, SSRİ Türkiyədən torpaq istəmək fuikrinə düşdü - Ermənistan və bir az da Gürcüstana birləşdirmək üçün. Bu birləşdirmənin alınmadığını görəndə isə, Sovet hərbi bazası yerləşdirmək (Kars, Ardahan, Boğazlar`da) istəyini bildirdi. ABŞ Türkiyəni müdafiə etdi, SSRİ-ni məhdudlaşdırmağa yönələn Truman doktrinası qüvvəyə mindi. Türkiyə 1952-ci ildə NATO blokuna üzv oldu.

1945-ci ilin noyabr ayında Ermənistan Kommunist Partiyası Mərkəzi Komitəsinin (KPMK) birinci katibi Q. A. Arutinov Dağlıq Qarabağın Ermənistanın tərkibinə verilməsi xahişi ilə Stalinə məktub ünvanladı (məktubu Stalinə şəxsən verdiyi deyilir). Məktubda məsələ müsbət həll olunduğu halda Dağlıq Qarabağın paytaxtı olaraq Şuşa şəhərinin bərpa edilməsi xahiş edilirdi. Məsələ barədə Azərbaycanın fikrini bilmək məqsədilə Azərbaycan KPMK birinci katibi M.C. Bağırov`a məktub göndərildi; M.C. Bağırov`un cavab məktubu Malenkova ünvanlanmışdı, görünür ki, bu işlə məşğul olmaq Malenkov`a həvalə edilmişdi (ЦК ВКП (б) Товарищу Маленкову, 10 декабря 1945 г. См. На имя Багирова За подписью Багирова. Составитель Техоб Гурбан. Баку, 2016, с. 211-214).

Bağırov Dağlıq Qarabağın kənd təsərrüfatı, mədəniyyət və kadr siyasəti baxımından Arutinov yazdığı kimi, Ermənistanla deyil, Azərbaycanla təbii bağlılığını vurğulayır. Bu məktublaşmadan əvvəl M.C. Bağırov bir toplantıda ermənilərin Azərbaycanda vəziyyətlərinin çox yaxşı olduğunu yada salmışdı: "Mən cəsarətlə bəyan edirəm ki, ermənilərin başqa haradasa buradan daha yaxşı yaşayacaqlarını düşünmürəm… Bizdə elə bir xalq komissarlığı, elə bir iri respublika müəssisəsi yoxdur ki, orda müavin erməni olmasın…".

Bağırov, yəqin ki, *bəlkə ən yuxarıda belə həll etməyə meyillidirlər* fikrini ağlında tutaraq incə diplomatik fənd işlədir, "buna baxmayaraq Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR-in tərkibinə daxil edilməsinə etirazımız yoxdur" deyir və eyni zamanda məsələnin necə təhlükəli olduğunu göstərir.

O, Şuşa rayonunun Ermənistana verilməsi ilə razı olmadığını deyir, orada yaşayanların əksəriyyəti azərbaycanlılardır, üstəlik, Şuşa Azərbaycanın zəngin musiqi mədəniyyətinin beşiyidir, böyük siyasi

və mədəni xadimlərinin vətənidir. Və Bağırov hücuma keçir. Dağlıq Qarabağ Ermənistana daxil ediləcəyi halda Ermənistan SSR-in Əzizbəyov, Vedi və Qarabağlar rayonları Azərbaycana verilməlidir, onlar Azərbaycana bitişikdir və əhalisi əsasən azərbaycanlılardan ibarətdir. Xahiş edirik ki, gürcü yoldaşların Balakən, Zaqatala və Qax rayonlarını istəməsinə də diqqət yetirəsiniz; oranın əhalisinin 79 mini azərbaycanlı, cəmi 9 mini isə gürcü-inqiloylardır. Bununla yanaşı, Gürcüstan SSR-in Azərbaycana bitişik Borçalı rayonunun əhalisi əsasən azərbaycanlılardan ibarətdir, o, Azərbaycan SSR tərkibinə verilsin. Və nəhayət, Dağıstan SSR-in Azərbaycana bitişik və əhalisi əsasən azərbaycanlılar olan Dərbənd və Qasımkənd rayonları Azərbaycana verilsin; onlar Azərbaycanın bir hissəsi olub, Bakı quberniyasına daxil idi. Bağırovun haqlı və usta cavabı qarşısında müzakirə ediləsi heç nə qalmadı.

Azərbaycanlıların Dağlıq Qarabağa zülm etdiyi, onu ermənilərin əlindən almaq istədikləri kimi fərziyyələr uydurur və bunları təsdiq etmək üçün "parlaq" misallar tapırdılar. Məsələn, Stepanakertdə cəmi 23 azərbaycanlı yaşayırdı, 1936-dan sonra onların sayı artdı... Yəqin, Stepanakertdə iş tapıblar ya ailə məsələsi olub, qoy 3-5 % də azərbaycanlı olsun, bunun nə ziyanı var? Bəs Bakıda 1859-cu ildə 3 erməni vardı, 1918-ci ildə isə ermənilər Bakıda o qədər çox, zəngin və güclü oldular ki, Mart qırğınını törədə bildilər. Buna nə deyirsiniz?

Moskvada ermənilərin güclü olması və SSRİ rəhbərliyində bir qədər antitürk ruhunun varlığı müəyyən məsələləri ermənilərin xeyrinə həll etdi. "1945-1948-ci illərdə "Dağlıq Qarabağda Azərbaycan toponimləri kütləvi surətdə erməni toponimləri ilə əvəz edildi" (B.A. Шнирельман. s. 47). 1946-47-ci illərdə diasporadan Ermənistana köçün başlanması ilə *yerimiz azdır, azərbaycan türklərini Azərbaycana köçürək, orada boş yer çoxdur* siyasətinə yaşıl işıq yandırıldı. 1947-ci il dekabrın 23-də SSRİ Nazirlər Soveti Ermənistanın azərbaycanlı vətəndaşlarından 100 mininin Azərbaycana, Kür-Araz ovalığına köçürülməsi haqqında qərar verdi. Köçürmə səbəbi olaraq Azərbaycanın pambıq becərən bölgələrində işçi qüvvəsinin çatışmazlığı və xarici ölkələrdən gələn ermənilərin Ermənistana yerləşdirilməsi göstərilmişdi; səbəbin birinci hissəsi təbii və ağlabatain deyil. Arada Türkiyə ilə savaş halında Ermənistanda yaşayan azərbaycanlılara bel bağlamaq olmaz kimi fikir də dolaşırdı. 1948-ci ildə 10 min, 1949-cu ildə 40 min və 1950-ci ildə 50 min nəfərin köçürülməsi nəzərdə tutulmuşdu (guya könüllü olaraq). Köçürmə başlandı, lakin, diaspora köçünün dayanması və vəziyyətin mürəkkəbliyi Ermənistandan Azərbaycana köçürmələri ləngitdi; Xaricdən gələn ermənilərin bir hissəsi peşman oldu, digər tərəfdən Sovet hökuməti xarici ermənilərin gəlməsində şübhəli məqamlar gördü. 1948-1953-cü illər ərzində Ermənistandan Azərbaycana 53 min adamın köçürüldüyü məlumdur; onlardan bir qismi Stalin'in ölümündən sonra geri qayıtmışdı. 1946-cı ildən 1975-ci ilə qədər təqribən 150 min erməni SSRİ-yə, əsasən Ermənistana köç etdi. Onlardan 90 mini 1946-48-ci illərdə gəldi (Barbara A. Anderson and Brian D. Silver. Population Redistribution and the Ethnic Balance in Transcaucasia).

Dağlıq Qarabağı Ermənistana birləşdirmək çağırışları 1963, 1965, 1967, 1968, 1977 və nəhayət, faciəvi 1987-1988-ci illərdə təkrar olundu.

## Ermənistan-Azərbaycan-Dağlıq Qarabağ münaqişəsi və 1-ci Qarabağ savaşı

Münaqişələr, xüsusilə milli qarşıdurmalar, adətən, tarixçi və dilçi, yazıçı və şair, jurnalist və siyasətçi və ya ziyalı, işıqlı, aydın adlandırılan zümrənin araqarışdırıcı yazıları və çıxışları ilə qızışdırılır, aydınlığa kölgə düşür, get-gedə qaranlıq çökür, kor inanclar bərkiyir. Yeni dövrdə Erməni-Azərbaycan münaqişəsini qızışdıran ermənilər arasında Zori Balayan xüsusilə seçilir. O, 1981-ci ildə Yerevanda və 1984-cü ildə Moskvada nəşr olunan *Ocaq* ("Очак") kitabında *Türkiyə və Azərbaycan türkləri Rusiya və Ermənistanın düşmənidirlər* fikrini, Dağlıq Qarabağ və Naxçıvanın tarixən

erməni torpağı olduğunu əsaslandırmağa çalışır. Araz çayı sahilində "biz erməni çayı ilə ermənicə söhbət etdik" deyir. Z. Balayanı "şovinist intellektual döyüşçü" adlandıran Thomas de Waal`ın fikrincə, ziyanlı "Ocaq" kitabının yayılmasına əsla icazə verilməməli idi" (Thomas de Waal. Black Garden: Armenia and Azerbaijan through Peace and War. New York University Press, 2003, p. 142-143). Z. Balayan *Azərbaycan tarixi erməni torpağıdır* deməklə bu torpağı azad etmək, fəth etmək lazımdır fikrini vurğuladı. Sonralar ruslara müraciətlə söylədiyi "Ermənistan da, Qarabağ da Rusiya torpağıdır" fikri Ermənistanda da, Dağlıq Qarabağda da etirazla qarşılandı. Balayan`ın Azərbaycana qarşı patoloji nifrətini göstərən çox sözləri var, onlardan biri: "Biz Gürcüstan, Rusiya, Ermənistan terminlərini anlaya bilirik, amma Azərbaycan`ı – yox. Bu termindən istifadə etməklə belə ölkənin varlığını təsdiq edirik" (Thomas de Waal. The Caucasus. An Introduction. Oxford University Press, 2010, p. 107).

Sovet dövründə, hər yerdə olduğu kimi, Dağlıq Qarabağ Muxtar Vilayətində (DQMV) də insanlar, erməni və azərbaycan türkləri mehriban qonşuluq şəraitində yaşayırdılar. Qarabağlı azərbaycanlılardan belə eşitmişəm: "Ermənilərlə, sadə insanlarla dostcasına yaşamışıq. Azərbaycanlılar daha internasional görünmək istəyirdilər. Şuşada ikinci katib ermənilərdən təyin olunurdu. Digər yerlərdə isə adətən birinci katib də, ikinci də erməni olurdu. Azərbaycanlı şöbə müdiri və ya daha kiçik vəzifəyə təyin olunurdu; üstəlik, arvadı və ya anası erməni olanlara açıq üstünlük verilirdi".

**Qeyd**. Sovet dövründə rayon partiya (kommunist partiyası) komitəsi katibinə qısaca "raykom" deyilirdi.

1985-ci ildə hakimiyyətə gələn Mixail Qorbaçev sosializmin təkmilləşdirilməsi, demokratiyanın gücləndirilməsi, cəmiyyətin yenilənməsi istiqamətində islahat proqramı irəli sürməyə başladı. Get-gedə *perestroyka* (yenidənqurma) və *qlasnost* (aşkarlıq, açıqlıq) siyasəti meydana çıxdı. Qərb dünyası ilə münasibətləri yaxşılaşdırmaq ideyası möhkəmləndi. Lakin, iqtisadiyyatda ciddi islahat aparılmadı. Çində isə mərkəzi nəzarəti (kommunist partiyasını) saxlamaqla sərbəst iqtisadiyyat proqramı uğurla həyata keçirilməyə başlanıldı. Qorbaçev və onun ətrafındakılar iqtisadiyyatla açıqlığı, demokratiyanı bir-birinə qovuşduran yol tapa bilmədilər. Açıqlıq və iqtisadi zəifləmə qarışıqlığa, xaosa gətirib çıxartdı. 1990-cı ildə Berlin divarları uçuruldu, iki Almaniya birləşdi, Klassik Sosializm tənəzzül etdi. Çin möhkəmləndi, SSRİ dağılmağa gedən yola qədəm qoydu...

* * *

1985-ci ildə Daşnaksutyun partiyasının 23-cü Dünya Konqresində qəbul olunan "Siyasi Platform" ("Political Platform of the Armenian Revolutionary Federation Ratified by the 23rd World Congress") Ermənistan ərazisinin Ermənistan Respublikası, Naxçıvan, Dağlıq Qarabağ və Axalkalak`dan ibarət olduğunu, əsas düşmənin isə Türkiyə olduğunu bəyan etdi. Digər bəyanatı qəribə ifadəsi və ya vay-vay nidası ilə müşayiət etmək olar: Türk imperiyasının mövcudluğu Ermənistanın maraqlarına ziddir... (Francis P. Hyland. p. 63-64). Böyük Ermənistan xəyalı milli məfkurəyə döndü, ərazi iddiaları erməni siyasətinin baş hədəfinə çevrildi. Bu Siyasi Platform, faktik olaraq, "Böyük Ermənistan" uğrunda yeni savaş elanı idi. Dağlıq Qarabağ tezliklə bu savaşın birinci və əsas hədəfinə çevrildi.

1987-ci ilin payızında DQMV statusu haqqında Moskvaya müraciətlər başlandı - məktublar, imzalar və görüşlər şəklində. Sosial-iqtisadi səbəblər göstərildi. Bəzən Naxçıvanı da istədilər, amma fokusu Dağlıq Qarabağ üzərində cəmləşdirdilər. Qorbaçev`in iqtisadi məsələlər üzrə müşaviri Abel Aqanbekyan Paris *L`Humanite* qəzetinə müsahibəsində (1987, noyabr) Dağlıq Qarabağın iqtisadi baxımdan Ermənistana verilməsinin məqbul olduğunu dedi. 1987-ci il oktyabr ayı Yerevanda *Miatsum /unification/воссоединение, Dağlıq Qarabağ Ermənistana verilsin, Qarabağ (Artsax) ana vətənə qovuşsun* şüarları altında nümayişlər başlandı. Əlbəttə, əsas səbəb ərazi davası idi; separatist liderlərdən biri, sonralar Ermənistan Respublikası Prezidenti olmuş Robert Koçaryan da münaqişənin təməlində iqtisadi deyil, ərazi məsələsinin durduğunu demişdi.

Dözülməz mühitə dözməyən Ermənistan azərbaycanlıları vətəni tərk edib, Azərbaycana gəlməyə başladılar. 1987-1989-cu illərdə çətin, təhlükəli şəraitdə Ermənistandan qaçan azərbaycanlılardan 215 ya 216 adamı ermənilər qətl etmişdilər (Ermənistan bu sayın 25 olduğunu demişdi). Azərbaycanı çox böyük etiraz dalğası, nümayişlər bürüdü. Qarabağ ermənilərini vətəndaşı olduqları Azərbaycana xəyanətdə, satqınlıqda, Ermənistanı isə təcavüzkarlıqda günahlandırdılar. Azərbaycan hökuməti başını itirmişdi, xalqlar dostluğundan danışır, ermənilərin ağıllanmasını, azərbaycanlıların sakitləşməsini istəyirdi. 1988-ci il fevralın 22-də iki azərbaycanlı, ağdamlı gənc Əskəran yaxınlığında qətlə yetirildi. Qan töküldü. Hisslər coşdu. Ermənistandan ilk gələn hirsli qaçqınların yerləşdiyi Sumqayıt şəhərində kriminal ünsürlərin (içində bir erməni olmaqla) də əl qoyduğu 27-28 fevral günlərində qırğın baş verdi, 26 erməni və 6 azərbaycanlı öldürüldü. Hadisələrin təbii məcrasından çıxması, insanlarda qisas hissinin güclənməsi iki ölkə arasında əhali mübadiləsinin aparılmasına səbəb oldu. Məsələlərə millətçi baxışı gücləndi. Erməni millətçiliyi Azərbaycan millətçiliyindən qat-qat güclü və fəal idi. Böyük Ermənistan mifi və erməni soyqırımı erməni millətçiliyini qidalandırmış, dünyaya yaymışdı. Əslində, Azərbaycan milli hərəkatı daha çox ermənilərə cavab olaraq meydana çıxdı.

20 fevral 1988-ci il DQMV xalq deputatları sovetinin erməni deputatları Azərbaycan, Ermənistan və SSRİ Ali Sovetinə Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi xahişi ilə müraciət etdi. Azərbaycan etirazını bildirdi. SSRİ Ali Soveti də bu xahişi rədd etdi (23 mart,1988). Xahiş və tələblər çoxaldıqca vəziyyət daha kəskin şəkil alır, ağırlaşırdı. Ermənistan və DQMV erməni hissəsi daha da radikallaşmağa, *Azərbaycanın tərkibindən çıxdım, özümə birləşdirdim* kimi birtərəfli qərarlar meydana çıxdı. SSRİ Ali Soveti sərhədlərin dəyişdirilməsini mümkün hesab etmədi (18 iyul, 1988).

**Qeyd.** 1977-ci il SSRİ Konstitusiyasının 78-ci maddəsinə görə "İttifaq respublikasının ərazisi onun razılığı olmadan dəyişdirilə bilməz".

M. Qorbaçev məsələyə münasibətini bildirdi. Dağlıq Qarabağın istədiyini etsək, bəs Gürcüstandakı azərbaycanlıları, Gürcüstandakı erməniləri, Azərbaycandakı erməniləri, Özbəkistandakı tacikləri, Tacikistandakı özbəkləri necə edək? Əhalinin bir qismi üçün konstitusiyanı dəyişdirmək, onlar üçün xüsusi dövlət statusu inşa edib bənzər vəziyyətdə olan xalqları düşünməmək mümkündürmü?! Əsrin əvvəllərində Yerevanda nə qədər azərbaycanlı yaşayırdı? 43%! İndi nə edək?

Dağlıq Qarabağda ermənilərin artım sürəti azərbaycan türklərinə nisbətdə zəifləyirdi. Separatçılar bunu böyük təhlükə sayırdılar. 1979-cu il siyahıya alma nəticələrinə görə Dağlıq Qarabağda 123 min erməni, 37 min türk yaşayırdı; 40-50 il əvvəlki dövrlə müqayisədə dəyişmə azərbaycanlıların xeyrinə olmuşdu. Lakin, azərbaycanlıların təbii artımı ermənilərdən (və gürcülərdən) daha sürətli olmaqla yanaşı, ermənilərin azərbaycanlılardan qat-qat daha tez və rahat yer dəyişdirməsi, iqtisadi baxımdan daha əlverişli olan yerlərə getməsi də qeyd olunmalıdır.

Qorbaçev`i azərbaycanlılar da, ermənilər də sevmədi, əksinə qınadılar, qətiyyətli olmadığı, separatçıları susdura bilmədiyi üçün, Azərbaycan üzərinə ordu göndərib qırğın törətdiyi üçün və uyğun olaraq, Dağlıq Qarabağı Ermənistana vermədiyi üçün. Moskva gücsüzlüyünü göstərdi; *baxaq görək nə olur, çox qarışmayın, təbliğat aparın* kimi məsləhətlər verdi... Dağlıq Qarabağ problemində qətiyyətsiz davranmanın SSRİ-nin dağılmasında katalizator rolu oynadığı deyilir...

1990-cı il 13-14 yanvar günləri Bakıda erməni talanı və qırğını baş verdi. Hökumət başını itirmişdi. 20 yanvar Sovet Ordusu Bakıya daxil oldu; səbəb olaraq əhalinin təhlükəsizliyi göstərilsə də, əsas səbəb Azərbaycan Xalq Cəbhəsinin güclənməsi, sovet quruluşu üçün təhlükəyə çevrilməsi idi. 131 günahsız insanın öldüyü, çox insanın yaralandığı bu *Qara yanvar* günü milli facię günü və eyni

zamanda milli oyanış amili oldu. Kommunist partiya biletlərinin kütləvi surətdə yandırılması və partiyanı kütləvi tərk etmə hadisəsi baş verdi (bir qədər sonra *peşman olmuşam, biletimi qaytarın* deyənlər də oldu).

1991-ci ildə müttəfiq respublikalar müstəqillik barədə deklarasiya və konstitusiya aktları qəbul etdilər, dekabr SSRİ-nin son ayı oldu. 1991-ci il sentyabr - 1992 -ci il yanvar ayları dövründə Dağlıq Qarabağ vilayəti və Azərbaycanın Şaumyan (Goranboy) rayonu erməni icması Dağlıq Qarabağ (Artsax) Respublikası adı ilə müstəqil dövlət elan etdilər. Erməni separatçılar Dağlıq Qarabağı Ermənistana birləşdirmək deyil, müstəqil dövlət elan etmək siyasətinə keçib xalqların öz müqəddəratını təyin etmək haqqını vurğulamağa başladılar.

Azərbaycan (və separatizmlə üzləşən hər hansı dövlət - misallar kifayət qədərdir) bununla heç cür razılaşa bilməzdi. Dövlət sərhəddi, ərazi bütövlüyü siyasət və hüququn təməl anlayışlarıdır. Dünya, birinci növbədə, bu prinsip üzərində qurulub. Etnik kimlik, vətəndaşlıq, etnik və dini azlıqların hüququ mühüm daxili məsələlərdir. Mədəniyyətini, din və dilini qorumaq və inkişaf etdirmək hansı mənadasa muxtariyyət deməkdir (Dövlət içində). *Tarixi yaddaşda olan ərazilər bizim olmalıdır* iddiası dövlətçilik və hüquqi baxımdan əsassızdır.

* * *

Münaqişə silahlı toqquşmalara və böyüyərək savaşa döndü. Ermənilər Qərbdə təbliğat işini gücləndirmiş, hərbi baxımdan daha hazırlıqlı ordu qurmuş, Monte Melkonyan kimi döyüş və terror təcrübəsi olan insanları cəlb etmişdilər. Onlar, sanki, daha çox sovet silahı əldə edə bilmişdilər. Azərbaycan tərəfdə də döyüş bacarığı olan insanlar və dəstələr vardı, amma, sözün əsl mənasında nizamlı ordu yoxdu, ordu deyilən şey ayrı-ayrı, bir-birilə əlaqəsi zəif olan və ya heç olmayan döyüşçü dəstələrdən ibarət idi. Yuxarı səviyyədə səriştəsizlik, hakimiyyət böhranı və hakimiyyət uğrunda mübarizə də Qarabağ cəbhəsini zəiflədirdi. Uğurlu döyüş aparan komandirlə hökumət məmuru arasındakı ziddiyyətə görə komandir öz dəstəsini döyüş meydanından çıxarıb Bakıya, hakimiyyəti devirməyə yönələ bilirdi.

1992-ci il fevralın 26-da Xocalı şəhərini əhatə edən erməni qüvvələri dinc əhalinin çıxması üçün koridor verdiyini desə də, buna əməl etmədi, əhalini atəşə tutdu. Qarabağ savaşının ən dəhşətli qırğını baş verdi: 613 nəfər öldürüldü, o cümlədən, 63 uşaq, 106 qadın, 70 yaşlı adam. Çoxsaylı yaralanan və itkin düşənlər oldu. Ermənistan Prezidenti Serj Sarqsyan utanıb-çəkinmədən Xocalı qırğınının bilə-bilə, düşünülmüş şəkildə törədildiyini etiraf etmişdi: "Xocalıya qədər Azəbaycan tərəfi elə bilirdi ki, bizimlə zarafat etmək olar. Onlar elə düşünürdülər ki, ermənilər mülki əhaliyə qarşı əl qaldıracaq insanlar deyillər. Biz bu stereotipə son qoyduq. Baş verən hadisə də bu idi". (Thomas de Waal. Black Garden: Armenia and Azerbaijan through Peace and War. NYU Press, 2003, p. 172-173).

1918-ci il Bakıda 31 mart qırğını, Qara yanvar (20 yanvar 1990) və Xocalı qətliamı (26 fevral 1992) Azərbaycanın üç milli faciə günü oldu. Azərbaycanın vəziyyəti dünyada çox əks-səda doğurmadı. Əksinə, ABŞ Azərbaycanı cəzalandırmaq qərarına gəldi. ABŞ Konqresi müstəqillik əldə etmiş keçmiş sovet respublikalarına maliyyə və texniki yardım göstərməyi nəzərdə tutan Azadlığı Dəstək Aktı qəbul etmişdi. Erməni lobbisinin səyi nəticəsində bu qanuna Azərbaycanın Ermənistana düşmən münasibət bəslədiyi və onu blokada etdiyi səbəb göstərilməklə Azərbaycana ABŞ köməyini qadağan edən 907-ci bölmə əlavə edildi.

Şuşa ciddi müdafiə olunmadı və erməni ordusu Şuşaya daxil oldu (8 may 1992). Həmin ay Ermənistanla Dağlıq Qarabağ arasındakı Laçın rayonu işğal olundu, Ermənistan-Dağlıq Qarabağ dəhlizi əmələ gəldi. 1992-ci ilin yayında uğurlu hücum əməliyyatı aparan Azərbaycan payızda ağır məğlubiyyətə düçar oldu. Erməni qüvvələri bəzi yerləri döyüşərək, digər yerləri müqavimətə rast gəlmədən ələ keçirdilər. BMT Təhlükəsizlik şurası 1993-cü ildə Ermənistan silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan rayonlarından çıxmasına, Azərbaycanın ərazi bütövlüyünün bərpasına çağıran

dörd qətnamə /resolutions qəbul etdi. Türkiyə istisna olmaqla Ermənistanı heç kim açıq qınamadı; heç bir sanksiya tətbiq olunmadı. 1993-cü ilin sonu və 1994-cü ilin ilk ayları ağır döyüş getdi, hər iki tərəf çox canlı qüvvə itirdi. Azərbaycanın geri torpaq alma gücü yox idi. Son nəticədə Azərbaycan ağır məğlubiyyətə uğradı, Dağlıq Qarabağ və onun ətrafındakı 7 rayon erməni ordusu tərəfindən işğal edildi. Danışıqlar başlandı və Rusiyanın vasitəçiliyi ilə atəşkəs razılaşması əldə edildi (9-10 may, 1994).

Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli üçün yaradılmış Minsk qrupu 1997-ci ildə son tam şəklini aldı - Rusiya, ABŞ və Fransanın həmsədrliyi ilə fəaliyyətini genişləndirməyə çalışdı.

## 1-ci Qarabağ Savaşı sonrası ermənilər və azərbaycanlılar

1-ci Qarabağ Savaşı nəticəsində Dağlıq Qarabağ və Ermənistan sanki birləşdilər, Azərbaycan və Naxçıvan arasında quru yol bağlandı. Hər iki ölkə problemlərlə üzləşdi. Dağlıq Qarabağ Ermənistana sevinc də gətirdi, bəla da. Ermənistan dövlətinin inkişafı Dağlıq Qarabağ ermənilərinə status verilməsi məsələsinin kölgəsində qaldı. Qarabağ və onun ətrafındakı Azərbaycan bölgələrinin işğalı Ermənistanın inkişafına töhfə vermədi, əksinə, mane oldu. Dağlıq Qarabağ Ermənistandan, Ermənistan Dağlıq Qarabağdan asılı qaldı...Türkiyə Ermənistanla sərhədi bağladı. Azərbaycanın neft və qaz zənginliklərinin qərbə daşınmasında Ermənistan tranzit ölkəsi olmaq imkanını itirdi; bu imkandan Gürcüstan bəhrələndi.

*Dənizdən dənizə Böyük Ermənistan yaratmaq*, yəni, tarixdə ermənilərin yaşamış olduqları bütün torpaqları erməni idarəçiliyi altında birləşdirmə ideyası get-gedə erməni ideoloqlarının və təbliğata uymuş erməni xalqının böyük hissəsinin idealına çevrildi. Dağlıq Qarabağın artıqlamasıyla - Azərbaycanın Dağlıq Qarabağdan çox-çox böyük olan və ermənilərin yaşamadığı 7 rayon ilə birlikdə alınması Böyük Ermənistan ideyasının həyata keçə biləcəyi illüziyası yaratdı. "İştah diş altındadır", erməni siyasətçiləri işğal edilmiş bu torpaqlara azad edilmiş torpaqlar və ya təhlükəsizlik zolağı adı verib özününküləşdirmək prosesinə başladılar. Şəhər və kəndlərin adı dəyişdirildi, erməniləşdirildi. Dağlıq Qarabağı da içinə alan bu böyük məkanı elə həmin adla - Dağlıq Qarabağ Respublikası adı ilə dünyaya sırımağa çalışdılar. Erməni ictimaiyyətində belə təsəvvür yarandı ki, Böyük Ermənistan qurulması yolunda böyük uğurlu addım atıldı – Ermənistan Respublikası ilə yanaşı dayanan, heç bir dövlət tərəfindən tanınmasa da, varlığını sürdürən genişlənmiş Dağlıq Qarabağ Respublikası.

**Qeyd.** Azərbaycanda "Oyuncaq Dağlıq Qarabağ respublikası" ifadəsi işlənilirdi. Ermənistanın Azərbaycana təcavüzünə qarşı Azərbaycanda yeni termin yarandı: Ermənistan Respublikasına Qərbi Azərbaycan deməyə başladılar...

1-ci Qarabağ savaşında qalib gəlməklə ermənilər bir tərəfdən, sanki, tarix boyu onları izləyən uğursuzluq hissindən xilas oldular, digər yandan isə işğalçı sifəti qazandılar. Böyük Ermənistan yolunda növbəti addım olaraq Gürcüstanın Cavaxeti (ermənicə Cavax) vilayətini Gürcüstandan qoparmaq nəzərdə tutulurdu. Sonrakı addımda Azərbaycanın Naxçıvan Muxtar Respublikasını və nəhayət, tarixi Ermənistan torpağı saydıqları Qərbi Ermənistanı, yəni, Türkiyə Cümhuriyyətinin şərq vilayətlərini ələ keçirmək planı gizli deyildi (Van, Bitlis, Diyarbakir, Harput, Sivas, Erzurum, Trabzon, Qars, Ardahan); Türkiyə vilayətlərində ermənilərin sayca çox az olması və ya yox dərəcəsində olması bu iddialara mane olmurdu. Beləliklə, "Erməni davası" – "Hay Tad" Ermənistan Respublikasının dörd qonşusundan üçünə torpaq iddiası irəli sürürdü. Əslində, uzun planda Türkiyədəki Kilikiya və İran Azərbaycanının bir hissəsinin də Böyük Ermənistana daxil edilməsi nəzərdə tutulur.

Erməni dili, ədəbiyyatı və ermənişünaslıq üzrə 5-ci Panerməni olimpiada iştirakçıları ilə görüşdə (23 iyul 2011) Ermənistan Prezidenti S. Sarqsyan`a ünvanlanan suallar arasında *Gələcək Ermənistanın sərhədləri necə olacaq, Ararat və Qərbi Ermənistan qaytarılacaqmı* sualı da vardı. Sarqsyan`ın cavabı: "Bu tamamilə sizin nəsildən asılıdır. Düşünürəm ki, mənim nəslim üzərinə düşən vəzifəni yerinə yetirdi; 90-cı illərin əvvəlində vətənimiz Artsax`ı düşmənlərdən qorumaq lazım gələndə biz bunu edə bildik" (*https://regnum.ru/news/polit/1433956.html*)

Tarixin çox uzaqda qalan bir anını (2-ci Tiqran dövrünü) milli ideyanın təməlinə yerləşdirmək, yəqin ki, heç bir zaman mövcud olmayacaq "Böyük Ermənistan" xəyalı ilə yaşamaq, yaşatmaq və savaşmaq erməni xalqının başına bəlalar gətirmədimi?! Bəs deyilmi?!

* * *

1-ci Qarabağ savaşını utancverici, həqarətli şəkildə uduzan Azərbaycan öz neft-qaz silahını işə salmaqla iqtisadiyyatı gücləndirmək fəaliyyətinə başladı. Bu iş üzrə ilk cəhd Xalq Cəbhəsinin, prezident Əbülfəz Elçibəy`in hakimiyyəti dövründə edilsə də, Neft-qaz strategiyasını inkişaf etdirən və həyata keçirən Azərbaycan Prezidenti, Sovet idarəetmə və diplomatiya məktəbinin məşhur təmsilçisi Heydər Əliyev oldu. O, birinci növbədə qonşularla, xüsusilə Rusiya və İranla münasibətlərdəki qarşılıqlı şübhə və inamsızlığı aradan qaldırmağa, Türkiyə və Gürcüstanla işbirliyini gücləndirməyə çalışdı. Tam məxfi şəkildə aparılan neft-qaz danışıqlarının aparılmasında Prezidentin oğlu, beynəlxalq münasibətlər üzrə mütəxəssis İlham Əliyevin mühüm rol oynadığı şəksizdir. Neft üzrə "Əsrin müqaviləsi"nin uzun hazırlıq mərhələsi aparılmadan, gözlənilmədən tez imzalanması Rusiyanı təəccübləndirdi və müəyyən dərəcədə narahat etdi. Lakin, Azərbaycan neftinin hasilatı və nəqli işində ABŞ və digər güclərin marağı Rusiyanın narazılığını neytrallaşdırdı. Azərbaycan ABŞ və Avropanın strateji maraq dairəsinə çevrildi. Üstəlik, həmin dövrdə Rusiya özü bir sıra siyasi, etnik və iqtisadi çətinliklərlə üz-üzə qalmışdı. Və hər halda, Rusiya şirkəti "Lukoil" da *Əsrin müqaviləsi*`ndə yer almışdı. Əsrin müqaviləsi sonrakı çoxsaylı neft, qaz və ixrac boru sazişlərinə yol açdı. İlham Əliyevin prezidentliyi dövründə Azərbaycan hasil olunan neft və qazın ixrac boru kəmərləri vasitəsilə Qərbə, Türkiyəyə axıdılması üzrə böyük layihələr həyata keçirdi, böyük nəqliyyat layihələrinə yaşıl işıq yandırıldı.

1998-2004-cü illərdə Ümumdaxili məhsulun (ÜDM) orta artım sürəti təqribən 10% olan Azərbaycan sonrakı illərdə fantastik irəliləmə göstərdi – 2005-ci ildə 26.4%, 2006-cı ildə 34.5%, 2007-ci ildə 25%. Azərbaycan humanitar kömək olunan ölkələr cərgəsindən çıxıb, humanitar kömək edən ölkələr sırasında yer tutdu, onun təbii fəlakətlər, mədəni layihələr, Covid-19 üzrə yardım siyasəti Qərbdə və Şərqdə böyük və kiçik dövlətləri əhatə etdi. İqtisadi güc qazanan Azərbaycan hərbi qüdrətini artırmağı unutmadı...

## Ter-Petrosyan`ın *Hərb ya Sülh* düşüncələri

Ermənistanın ilk Prezidenti Levon Ter-Petrosyan Qarabağ probleminin həlli və Ermənistanın Azərbaycan və Türkiyə ilə münasibətlərinin qurulması üzərində düşünürdü. Sonrakı Ermənistan prezidentləri isə əsasən status-kvo`nu saxlamaq istəyirdilər. Erməni diasporası gerçək vəziyyəti təhlil etmir, maksimalist baxışları ilə güzəştli həll tapılmasına mane olurdu. Həm Ermənistanda, həm diasporada əksəriyyət (mütləq əksəriyyət?!) status-kvo`nun əbədi davam edəcəyi ümidində idi, hətta buna əminlik vardı demək mümkündür. Ter-Petrosyandan sonrakı iki prezident danışıq gedir görüntüsü yaratmışdılar, Paşinyan isə bunu da yox etdi.

Qarabağ məsələsinin qızışdırılmasında erməni millətçi "Qarabağ Ermənistana birləşdirilsin" şüarının həyata keçməsi uğrunda hərəkatın lideri Ter-Petrosyan həlledici rol oynadı. 1991-ci ilin payızında Ermənistan Respublikasının prezidenti seçilən Ter-Petrosyan 1994-cü ildə atəşkəs

müqaviləsi imzalanan 1-ci Qarabağ savaşında tam qələbə sevincini yaşaya bildi. O, ermənilərin nəzərində qəhrəman, azərbaycanlıların nəzərində isə böyük qanlar tökən, erməni və Azərbaycan xalqlarını bir-birinə düşmən edən erməni ideoloqu idi. Digər tərəfdən Ter-Petrosyan ağıllı, alim adamdır (filoloji elmlər doktorudur). Onun patriotik arzularla bu qanlı, ağılsız və ümidsiz işə girişməsi insani baxımdan anlaşılmır, acı təəssüf hissi və qəzəb doğurur. Lakin, professor Ter-Petrosyan gələcəyə baxan prezident olduğunu hiss etdirdi. O, terrorçu Daşnaksutyun partiyasını dövlət üçün təhlükəli sayaraq ləğv etdirdi. 1996-cı ildə yenidən prezident seçilən Ter-Petrosyan, nəhayət, Azərbaycanla bu münaqişənin belə getməyəcəyini anladı; bəlkə də bu fikrə daha əvvəl, addım-addım gəlmişdi.

26 sentyabr 1997-ci ildə mətbuat konfransında və sonra yazdığı "Savaş ya sülh? Düşünmə zamanı gəldi" (Война или мир? Время призадуматься. «Республика Армения», ноябрь 5, № 209, 1997. «Независимая газета», ноябрь 5) adlı məqalədə Dağlıq Qarabağ məsələsinin həlli üçün qarşılıqlı güzəştlərin zəruri olduğu barədə fikirlərini bəyan etmişdi. Onun fikirlərinin xülasəsini verirəm. Beynəlxalq ictimaiyyət, Rusiya da daxil olmaqla, Dağlıq Qarabağın müstəqilliyini tanımaq istəmir. Biz tək Azərbaycanla deyil, bütün dünya ilə yola getmirik, biz bütün dünyanın üzünə tüpürəndə, o bizə nə ilə cavab verəcək? Bu status-kvo`nu uzun müddət və ya əbədi olaraq saxlamaq mümkündürmü? Yox. Burada Ter-Petrosyan iki səbəb göstərir: buna dünya ictimaiyyəti izin verməz və Ermənistanın iqtisadi potensialı da buna imkan vermir. Lakin, o, daha bir mühüm səbəbi unudur: Azərbaycan status-kvo`nun uzun müddət saxlanmasına izin verməyəcək; Azərbaycan dünya neft şirkətlər qrupu ilə Xəzər dənizinin Azərbaycan hissəsində zəngin neft yataqlarının birgə işlənməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi barədə razılaşma imzaladı (20 sentyabr 1994), Azərbaycan iqtisadiyyatı sürətlə inkişaf edəcək və Azərbaycan güclənəcək, hərbi sahəni kökündən gücləndirmək imkanı əldə edəcəkdi.

Ter-Petrosyan vəziyyəti təhlil edib doğru nəticə çıxarır. Ermənistanın güzəşt fikrindən imtina etməsi və mümkün olanı deyil, maksimumu əldə etməyə can atması Qarabağın tam süqutuna və Ermənistanın vəziyyətinin pisləşməsinə aparan ən qısa yoldur. Güzəştə alternativ savaşdır. Güzəşt ancaq daha pis olandan can qurtarmaq vasitəsidir. Təəssüf ki, biz müharibəni deyil, döyüşü udmuşuq. Savaş, müharibə yalnız rəqib kapitulyasiya edəndə udulur. Savaş və döyüşün eyniləşdirilməsi çoxlarını dəfələrlə bəlaya salıb. Yanlış fikirlərə uymaq olmaz; ən təhlükəli olan *indiyədək hər şeyi bacarmışıq, deməli qarşıda da uğur qazanacağıq, qələbə bizimlədir* deyə düşünməkdir. Ermənistan zəifləyəcək.

Petrosyan`a görə, ümumiyyətlə, cəmiyyətdə miflər dolaşmaqdadır. Məsələn, Ermənistan Türkiyəyə qarşı sərt mövqe tutsa yaxşıdır; genosidi tanımağı tələb etsin, Qars müqaviləsi ləğv edilsin, erməni torpaqları qaytarılsın və ya Amerikada Diaspora güclüdür, hər zaman bizə kömək edəcək... Və nəhayət, Ermənistan Respublikasının ilk Prezidenti peyğəmbərcəsinə öngörmə, proqnoz edir: "Bu gün nəyi rədd ediriksə, gələcəkdə onu xahiş etməli olacağıq, amma ala bilməyəcəyik, tariximizdə dəfələrcə olduğu kimi". O vaxtdan 23 il keçdi və Ter-Petrosyanın öngörüsü, proqnozu tam təsdiqini tapdı.

Doğrudur, Ter-Petrosyan məqaləsində Dağlıq Qarabağın statusu haqqında fikrini açıq şəkildə bildirməmişdi. Amma məqalənin ruhundan və onun ifadələrindən görünür ki, o, mərhələli həlli və Dağlıq Qarabağın yüksək muxtariyyət statusu ilə Azərbaycanda qalmasını doğru sayırdı. O, torpaq qaytarıb müstəqillik statusu almaq kimi paket həllin mümkünsüz olduğunu anlayırdı.

Ter-Petrosyan`dan ikiəlli yapışmaq əvəzinə erməni siyasi elitası, xüsusilə Qarabağ klanını təmsil edən sonrakı iki Ermənistan prezidenti, faktik olaraq iki Azərbaycan vətəndaşı – Robert Koçaryan və Serj Sarqsyan, həmçinin onlarla həmrəy olan siyasi-hərbi dəstə Ter-Petrosyanı istefa verməyə məcbur etdilər (3 fevral 1998). Dağlıq Qarabağ probleminin sülh yolu ilə həll edilməsi imkanı, bu ilk imkan

əldən buraxıldı.

* * *

Ter-Petrosyan öz məqaləsində Ermənistandakı vəziyyəti və xarici siyasəti içindən və dərindən bilən altı şəxsin adını çəkir; onlardan biri Jirayr Liparityan`dır. Libaridian Amerikada oxumuş, tarixçi və siyasət üzrə professordur. 1991-1997-ci illərdə Ermənistanda yaşamış, Prezident Ter-Petrosyanın müşaviri olmuş, onun məsləkdaşıdır. Libaridian`ın *The Challenge of Statehood. Armenian Political Thinking Since Independence (Blue Crane Books,* 1999) adlı kitabını Ter-Petrosyanın məqaləsində toxunulan məsələlərin daha ətraflı müzakirəsi saymaq mümkündür (və ya Ter-Petrosyanın məqaləsi Libarityanla məsləhətləşmələr, müzakirələr nəticəsində meydana çıxmışdır – bu ehtimal da var...). Bu kitab türkcəyə də tərcümə edilmişdir (Gerard J. Libaridian. Ermenilərin Devletleşme Sınavı. Bağımsızlıktan Bugüne Ermeni Siyasi Düşünüşü. İletişim, İstanbul, 2001); müəllif kitabın bir nüsxəsini xoş ithafla bu sətirlərin müəllifinə bağışlamışdı. Liparityan`ın bu qiymətli əsərindən Ter-Petrosyanın fikirləri ilə həmahəng olan bir neçə alıntı edirəm.

1991-ci ildən sonra daşnak partiyası "diasporadakı atmosferi zəhərlədi və bir çoxlarının kafasını qarışdırdı... Beləcə, ideoloji kor bir inanc halına gəldi, nifrətə ehtiyac duyan bir inanc" (s. 192). "Ermənilərin bütün enerjilərini Türkiyəni və ya Azərbaycanı beynəlxalq platformda sıxıntıya salmaq cəhdləri bir zaman itkisidir" (s.214). "Dörd qonşu ölkədən ikisiylə sonsuzadək düşmən qalaraq yaşamaq ehtimalı, belə bir durum hansı ideologiyaya fayda verirsə versin, bir seçənək deyildir və olmamalıdır". "Bir zamanlar güvənlik qarantisi olan işğal edilmiş torpaqlar güvənliyə ən ciddi təhdid halına gəlməkdədir" (s. 219-220).

Libarityan`a görə "Erməni xalqının son minillik tarixində bir ümumiləşdirmə edilməyəcək qədər az sayda zəfər vardır; zəfərlər döyüşlərdə deyil, müharibələrdə qazanılmışdır; müharibə ilə döyüşü bir-birinə qarışdırmanın hər zaman çox ağır nəticəsi olmuşdur; hər hansı bir zəfərin ardından, müzakirələr sırasında... həddindən çox, sindirəbiləcəyindən çox şey istədiyi üçün itirmiş, uduzmuşdur" (s. 209).

## Key West, Harvard və... mən

2001-ci il aprelin 3-7-də Florida ştatının Key West (Ki Vest) şəhərində Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli üçün Azərbaycan Prezidenti Heydər Əliyev və Ermənistan Prezidenti Robert Koçaryan arasında ATƏT-in (Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı) Minsk qrupunun həmsədrləri Rusiya, ABŞ və Fransanın vasitəçiliyi ilə növbəti danışıq baş tutdu. Yeni Müstəqil Dövlətlərdə meydana çıxan münaqişələr üzrə ABŞ tərəfdən əlahiddə/səlahiyyətli vasitəçi olaraq təcrübəli diplomat, Səfir Carey Cavanaugh (Keri Kavanau) təyin olunmuşdu.

Key West danışıqlarından sonra Harvard Universitetinin John F. Kennedy Hökumət məktəbi (Harvard University`s John F. Kennedy School of Government) nəzdində fəaliyyət göstərən Kaspi Araşdırmalar Proqramı (Caspian Studies Program) "Dağlıq Qarabağ Danışıqları: Buradan hara gedirik?" /"Negotiations on Nagorno-Karabagh: Where do we go from here?" mövzusunda panel müzakirə təşkil etmək fikrinə düşdü. Təşkilatçılar panelin dörd nəfərdən ibarət olmasını qərara aldılar: Key West danışıqlarında baş vasitəçi sayılan Səfir Carey Cavanaugh, bir Azərbaycan və bir erməni ziyalısı, belə ki, onlar hökumət və ya müxalifət partiyası ilə bağlı olmayan, müstəqil şəxslər olsun və nəhayət, panelin moderatoru Kaspi Araşdırmalar Proqramının tədqiqat direktoru Dr. Brenda Shaffer. Dr. Shaffer`lə tanışlığımız onun araşdırma mövzusu ilə bağlı idi. O, Tel Aviv Universitetində PhD proqramı üzərində çalışarkən Azərbaycan, Qafqaz və İranda ədəbiyyat, mədəniyyət və milli kimlik məsələləri üzrə mənimlə məsləhətləşirdi. Bu tədqiqatını o, kitab şəklində nəşr etdirdi.

Carey Cavanaugh və Brenda Shaffer mənə zəng edib panel müzakirəsi keçiriləcəyini və məni Azərbaycan təmsilçisi olaraq dəvət etdiklərini dedilər. Üstəlik, onlar ermənilərin təmsilçiləri olaraq Chicago universiteti Siyasi elmlər departmentinin professoru Ronald Suny`ni dəvət etdiklərini bildirdilər. Əlavə olaraq, Azərbaycanın timsalında keçid dövrünü yaşayan ölkələrdə təhsil problemləri haqqında bir mühazirə oxumağım xahiş edildi.

* * *

Massachusetts ştatına, Boston şəhərinə, sonra Harvard və MIT kimi məşhur universitetlərin yerləşdiyi Cambridge şəhərinə çatan kimi *Key West danışıqlarında nə olub, nə qərara gəlinib, razılaşma varsa, o nədən ibarətdir* kimi suallara cavab tapmaq üçün və ya ən azı bu məsələləri daha yaxşı anlamaq üçün kimlərlə söhbət edə biləcəyimi soraqlaşdım. Mənə Professor Gerard J. Libaridian`ın (Jirayr Liparityan) burada yaşadığını və hətta mənim gəlişimdən xəbərdar olduğunu dedilər. Dağlıq Qarabağ konflikti barədə Amerikada Libaridian`dan daha məlumatlı adam tapmaq, yəqin ki, mümkün deyildi. Libradian məni qonaq çağırdı, tanış olan kimi *Paşa sözündən xoşum gəlir və sənə Hamlet Paşa deyə müraciət etmək istəyirəm* dedi. Beyrutda anadan olmuş, ali təhsilini və akademik həyatını ABŞ-da keçirən Libaridian 1991-1997-ci illərdə Ermənistan Prezidenti Ter-Petrosyan`ın müşaviri, baş müşaviri və qısa müddətdə xarici işlər nazirinin müavini olmuş, sonra ABŞ-a qayıtmış, Michigan universitetində tarix və siyasət professoru kimi çalışmağa davam etmişdir. Libaridian`la hər ikimizi maraqlandıran məsələlər ətrafında söhbət etdik. Key West danışıqları qapalı olduğuna görə çox az sayda şəxs istisna olmaqla heç kim əlinü ürəyinin üstünə qoyub deyə bilməzdi ki, danışıq və razılaşma varsa, o nədən ibarətdir. Amma, necə olsa da, məlumatlar sızır, üstəlik, hər danışıq əvvəlkilər üzərində qurulur, buna görə də danışıqların axarı haqqında fikir yürütmək olur.

Libaridian təbəssümlə *Qarabağı ermənilərə verirsiniz* dedi. Ərazi dəyişdirmək, yəni, Dağlıq Qarabağı və Laçın rayonu və ya onun dəhliz rolu oynayacaq hissəsini Ermənistana vermək, əvəzində Ermənistanın Mehri rayonunu Azərbaycana vermək Ermənistanı qəti qane etmir. Müzakirə Dağlıq Qarabağın Laçın dəhlizi ilə birlikdə müstəqil olması, yəni, Ermənistana verilməməsi, amma, xarici siyasət də daxil olmaqla, Qarabağ erməniləri tərəfindən idarə edilməsi ətrafında gedir. Bu halda Dağlıq Qarabağ rəsmi olaraq müstəqil dövlət olmur, amma, öz müqəddaratını təyin edir, Azərbaycanla bağlılığı məzmunca deyil, formaca olur və həm də, sanki, Azərbaycanın ərazi bütövlüyü saxlanılır. Üstəlik, böyük Azərbaycanla Naxçıvan arasında nəqliyyat dəhlizi yaradılır. Müəyyən incəlikləri çıxmaq şərtilə danışıqların son vaxtlar bu çərçivədə aparıldığı məlumdur.

Mənim kefim pozuldu. İnanmaq istəmədim. Ola bilməz...

Hansı mədəni və ya istirahət proqramı istədiyimi soruşanda Harvard universitetinin kampusu ilə tanış olmaq arzumu bildirdim. Tezliklə xəbər gəldi: Harvard kampusunu, kampus memarlığını və tarixini gözəl bilən bir şəxsi dəvət edəcəklərini, onun məni gəzdirəcəyini dedilər. Və bir qədər keçmiş bu şəxsi mənə təqdim etdilər: Fuad Axundov! Bir anlıq təəccübüm sevinclə əvəz olundu. Eynilə Fuad da təəccüb və təbəssümlə *Hamlet müəllim, xoş gəlmisiniz* dedi. Fuad Harvard John F. Kennedy School`da magistr proqramında təhsil alırdı; o, həm də MIT-dən memarlıq tarixi üzrə dərs götürdüyünü dedi.

* * *

2001-ci il aprelin 23-də Harvard`da Qarabağ Paneli başlandı. Çox dinləyici vardı, o cümlədən, ABŞ-da yaşayıb işləyən və ya oxuyan həm Azərbaycan Respublikasını, həm İran Azərbaycanı`nı təmsil edən azərbaycanlılar; ermənilər daha çox idi. Brenda Shaffer müzakirəni açdı, Key West danışığının Qarabağ probleminin həllində dönüş nöqtəsi olduğuna inamını ifadə etdi və mövzunun ruhuna uyğun bir neçə sual qoydu: konfliktin həllində tarix və kimliyin rolu nədir, sülhə gedən yolda hansı maneələr yarana bilər, status-kvo`nun saxlanma ehtimalı varmı, ictimai rəyi necə hazırlamaq lazımdır? Carey Cavanaugh Qarabağ konfliktində 35 min adam öldüyünü, Azərbaycanda 800 min

qaçqın olduğunu, Ermənistan əhalisinin ölkəni tərk etdiyini, sülhün mükəmməl olmadığını, amma, tərəqqi üçün zəruri olduğunu yada saldı. O, Minsk qrupunun hazırladığı üç təklifi hər iki Prezidentin qəbul etmədiyini, amma, son iki ildə iki Prezidentin 16 dəfə görüşdüyünü, danışıqlarda böyük irəliləmə olduğunu qeyd etdi. Cavanaugh sülh müqaviləsi bağlanacağına inamını ifadə etdi.

B.Shaffer mediator kimi müzakirəçiləri ətraflı təqdim edirdi. Məni uzun-uzadı təqdim edib sözünü belə bitirdi (yəqin ki, xüsusi halda, Panelə uyğun olduğumu qeyd etmək üçün): "O, həm hökumətin, həm müxalifətin hörmət etdiyi şəxsdir və Azərbaycanda əsl görkəmli mədəni-ictimai simadır". Mənim heç kefim yox idi. Libaridianla görüşümüz və B.Shaffer`lə Carey Cavanaugh`un çıxışları məndə Qarabağ əldən gedə bilər qorxusu yaratmışdı. Öz-özümə *yox, ola bilməz* deyirdim. Paneldə iştirak edənin pərt olması, özünü yaxşı hiss etməməsi yaxşı şey deyil, gərək özümü ələ alım...

Mən sülh üçün optimal təklifin nə olacağı ətrafında danışdım. Azərbaycanlılar *sülh yaxşıdır* deməklə yanaşı *sülh ədalətli olmalıdır* deyirlər. Mən sülh üçün Bakı ilə Dağlıq Qarabağ arasında deyil, Bakı ilə Yerevan arasında horizontal (şaquli) xəttin yaradılmasını zəruri sayıram. Bakı-Dağlıq Qarabağ arasındakı əlaqə üçün vertikal (şaquli) xəttin, müəyyən subordinasiyanın olması da zəruridir; ən demokratik ölkələrdə belə mərkəz-bölgə münasibəti, mərkəzlə bölgə arasında səlahiyyət bölgüsü mövcuddur, bunsuz dövlət olmaz. Azərbaycanlılarda, məlum səbəbdən, döyüşkən düşüncə artmağa başlayıb. Yəqin ki, insanlar qeyri-müəyyənlikdən beziblər. Patriotik hisslər savaşa çağırır. Cəmiyyətin əsas qüvvələri – iqtidar, müxalifət, parlament, ziyalılar arasında milli konsensus olmasa, sülh baş tutmaz. Azərbaycanın ərazi bütövlüyü Azərbaycanda iqtidarı və müxalifəti birləşdirən, xalqı bir edən qüvvədir, indiki vəziyyətdə bəlkə də tək qüvvədir.

Mən davam etdim. *Ümumi ev* və ya *Ümumi dövlət* deyilən şey Azərbaycanla Dağlıq Qarabağ arasında deyil, Azərbaycanla Ermənistan arasında ola bilər. Konfliktin simmetrikliyi də bunu tələb edir. Ümumi ev ideyası üzərində düşünmək, iki ölkə arasında sərhədlərin şəffaflığına, ticari və elmi-mədəni əlaqələrin inkişafına çalışmaq doğru olardı. Münaqişənin həlli üçün Rusiyanın rolu həlledicidir, ancaq hazırkı vəziyyətdə, indiki zamanda Rusiya səmimidirmi? Bilmirəm. Hazırkı müzakirədə hökm sürən nikbinliyə qoşula bilmirəm (təbiətən çox nikbin adam olsam da). Burada müşahidə etdiyim tezliklə sülh sazişi bağlanacağına açıq-aydın inamı sizinlə bölüşdürə bilmirəm, məni bağışlayın. Statis-kvo`nun saxlanma ehtimalını daha yüksək sayıram. Zənnimcə, vacib olan kollektiv kimlik vasitəsilə konflikt iştirakçısı olan tərəflərin *doğru hökm nədir, hansı qərar daha ədalətli görünür* kimi suallara cavab tapması, cavab inşa etməsidir; millilik kimlik probleminin həllinə kömək etmir, hətta mane ola bilir. Sizə bir misal gətirim. 19-cu əsrdə Tiflis daha çox erməni, ikinci - rus və sonra gürcü şəhəri idi. Bakıda Azərbaycan türkləri rus, erməni və digər millətlərin cəmindən az idi. Yerevan daha çox Azərbaycanlılar şəhəri idi, nəinki erməni. Bu halda problemi həll etmək üçün tarix bizə nə verir? Tarix bizi çaşdırır. Burada kimlik var, problemin həlli-yox...

Ronald Suny`yə görə kollektiv kimlik inşa olunubsa, onu yenidən fərqli şəkildə inşa etmək mümkündür. Millətçilər qədim nifrəti davam etdirir, ziyalılar, liberallar isə konstruktiv görüşə malikdirlər. Qafqazda *bölüşdürülmüş suverenlik* ideyasını həyata keçirmək mümkündür. Ter-Petrosyanla Heydər Əliyev arasındakı danışıqlarda (1997) belə ideya yaranmışdı: Qarabağ çoxluq (ermənilər) tərəfindən müstəqil idarə edilir, formal olaraq Azərbaycana bağlı qalır (çox formal, məsələn, Azərbaycan bayrağı asılır). İndiki danışıqlarda isə, mənə elə gəlir ki, Qarabağ Laçın dəhlizi ilə Ermənistana birləşir və böyük Azərbaycanla Naxçıvan arasında yol açılması nəzərdə tutulur. Bunu ermənilər qəbul edəcək. Azərbaycanlılara gəldikdə isə, mən professor İsaxanlı ilə razıyam, səhv edirəmsə, məni düzəltsin, belə razılaşmanın qəbulu çətin olacaq, onlarda davakar ruh üstündür.

Sonra müzakirə başlandı. Müxtəlif suallar verildi. Onlardan biri Sossi Tatikyan adlı şəxsdən gəldi: Burada deyildi ki, iki ölkə prezidentləri kompromisə, konfliktin sülh yolu ilə həllinə yaxındırlar. Amma, Prezident Əliyev`in Florida`da açılış nitqində on il əvvəlkindən fərqli, yeni tərz görünmədi.

**Bu necə olur?**

Mənim cavabım qısa və konkret oldu: On il ərzində nə dəyişib ki, Prezident Əliyev`in bəyanatı da dəyişsin? Həmən vəziyyətdəyik: münaqişə, işğal, qaçqınlar. Heç nə dəyişməyib. Paneldən sonra Fuad Axundov mənə yaxınlaşıb "Hamlet müəllim, mən çox həyəcan içindəydim ki, bu fitnəkar suala necə cavab verəcəksiniz; amma, çox gözəl cavab verdiniz" dedi.

Harvard`da təhsil alan Ramin İsayev Professor Suny`nin "Ermənistan müharibədə qələbə çalıb" fikrinə qarşı beynəlxalq münasibətlər dərsində öyrənmişik ki, "... sülh sazişi imzalanana qədər heç kim deyə bilməz ki, bir tərəf müharibəni udub; Ermənistan döyüşü udub, müharibə hələ bitməyib" deyə fikir bildirdi. Professor Suny Ramin`in bu qeydinə reaksiya verməyi vacib saymadı; görünür ki, sülh əldə ediləcəyinə inam müharibənin bitdiyinə inam yaratmışdı...

* * *

Bakıya qayıtdım. Azərbaycan Prezidenti Heydər Əliyevin tərcüməçisi Rauf Hüseynov mənə zəng etdi, görüşmək istədiyini bildirdi. Görüşdük. Hal-əhval tutduqdan sonra Rauf görüşümüzün səbəbini açdı: "Hamlet müəllim, Harvard`dakı panel haqqında burda müxtəlif fikirlər dolaşır. Bəziləri deyir ki, *sizin çıxış Azərbaycan`ın mənafeyini tam əks etdirməyib,* digərləri *yox, yaxşı olub* deyirlər. Cənab Prezident mənim sizinlə görüşüb məsələyə aydınlıq gətirməyi buyurdu". Mən təəccübləndim və bir an fikrə getdim. Görünür ki, kimsə doğru məlumat verməyib. Digər tərəfdən, Harvard panelində iştirak edənlər, xüsusilə ABŞ tərəfdən əlahiddə vasitəçi Səfir Carey Cavanaugh sülh müqaviləsinin hazırlandığına və onun imzalanacağına inam ifadə edirdisə və müqaviləni Azərbaycan adına Azərbaycan Prezidenti imzalayacaqsa, mənim müqavilə imzalanacağına şübhəmi açıq şəklində ifadə etməyim sanki Azərbaycan Prezidenti əleyhinə çıxış kimi şərh edilə bilərdi. Amma, mən Heydər Əliyev kimi böyük və təcrübəli dövlət adamının belə bir müqaviləni imzalayacağına inanmırdım. Əlbəttə, Ermənistan Prezidenti və vasitəçilərlə görüşdə müxtəlif variantlar müzakirə olunurdu və *gəlin bu variantı müzakirə edək* və sonra rahatca, *yox, bu maddələri qəbul edə bilmərəm* deyilə bilərdi, danışıqların təbiəti belədir. Mən Rauf`a panelin necə keçdiyini və mənim çıxışımın əsas tezislərinin nədən ibarət olduğunu danışdım. Üstəlik, Harvard panelinin tezliklə nəşr olunacağını və mənə də göndəriləcəyini, gələn kimi onu Sizə təqdim edə biləcəyimi dedim. Doğrudan da, Panel barədə kitabçanı aldım, təəssüf ki, kitabça stenoqram deyildi, xülasə şəklində hazırlanmışdı, amma, az-çox panel müzakirəsini əks etdirə bilmişdi. Güman edirəm ki, Rauf`la söhbət və kitabça şübhələri ortadan qaldırdı.

Mən sonsuz dərəcədə şadam ki, paneldəki çıxışımda söylədiklərim doğru çıxdı, o zaman heç bir müqavilə imzalanmadı, status-kvo davam etdi və son nəticədə *hərb, sonra sülh* yolu ilə aradan qaldırıldı.

(*Ardı gələn nömrədə*)

# "XƏZƏR"İN PSİXOLOQ MÜTƏXƏSSİSİNİN MƏQALƏSİ "PEDAQOGİKA" JURNALINDA




Xəzər Universiteti Psixologiya departamentinin koordinatoru, Xəzər Psixoloji Xidmət Mərkəzinin direktoru Mələk Kərimovanın "Peşə bacarıqlarının formalaşmasında superviziyanın rolu" adlı məqaləsi pedaqogika, psixologiya elmləri üzrə elmi-nəzəri-metodik nəşr olan "Pedaqogika" jurnalının 2021-ci il 1-ci sayında dərc edilmişdir.

Beynəlxalq praktikada tətbiq edilən və ruhi sağlamlıq sahəsində çalışan mütəxəssislərin psixoloji konsultasiya bacarıqlarının formalaşmasında əhəmiyyətli olan superviziya prosesi pilot tədqiqat olaraq Xəzər Universitetində aparılmış və nəticələri məqalədə əks olunmuşdur.

# AN ARTICLE BY KHAZAR PSYCHOLOGIST IN "PEDAGOGIKA" MAGAZINE

An article entitled "The Role of Supervision in the Formation of Professional Skills" by Malak Karimova, Coordinator of Khazar University's Department of Psychology and Director of the Khazar University Psychological Center was published in the 1st issue of "Pedagogika" magazine 2021, a scientific-theoretical-methodological publication on pedagogy and psychology.

The supervisory process, which is applied in international practice and is important in developing the psychological support skills of mental health professionals, was conducted as a pilot study at Khazar University and the results have been presented in the article.




# DEPARTAMENT MÜDİRİNİN DƏRS VƏSAİTİ ÇAP OLUNUB

Xəzər Universitetinin Həyat elmləri departamentinin rəhbəri Aqrar üzrə fəlsəfə doktoru Ömərov Asəf Məmməd oğlunun "Baytarlıq Epidemiologiyasının əsasları" adlı dərs vəsaiti "Müəllim nəşriyyatı"nda çap olunmuşdur.

"Baytarlıq Epidemiologiyasının əsasları" adlı dərs vəsaiti baytarlıq epidemiologiyasının tarixi, epidemiologiyanın əsas anlayışları, onun obyektləri, xəstəliklərə yeni nəzarət strategiyaları, heyvan rifahı, milli və beynəlxalq hesabatlılıq, fərziyyələrin qəbulu üsulları, xəstəliklərin səbəbi, assosiasiyalar və onların növləri, xəstəliklərin baş verməsinin təsviri, xəstəliklərin determinantları, xəstəliklər zamanı ölçmələr və onun kəmiyyət tərəfdən ifadə olunması - yayılma (prevalentlik), insidentlik, onlar arasındakı əlaqə, ölüm və sağlamlıq göstəriciləri, letalıq, diaqnostik reaksiyalar və onların təhlili haqqında mövcud olan nəzəri və tətbiqi məlumatlar əsasında tərtib olunmuşdur.

Dərs vəsaitindən universitetlərin baytarlıq ixtisası üzrə təhsil alan bakalavriat tələbələri, baytarlıq kolleci tələbələri, baytarlıq sahəsində tədqiqat aparan mütəxəssislər və praktik baytar həkimləri istifadə

# THE TEXTBOOK BY HEAD OF DEPARTMENT PUBLISHED

A textbook by Dr. Asaf Mammad Omarov, Head of the Department of Life Sciences at Khazar University, entitled "Basic of Veterinary Epidemiology," was published by "Muallim Nashriyyat".

The textbook entitled "Basic of Veterinary Epidemiology" was developed based on the analysis of available theoretical and applied report of history, basic principles of veterinary epidemiology, its objectives, new disease control strategies, animal welfare, national and international accountability, methods of acquiring hypoteses, causality, associations and their types, describing disease occurrence, determinants of diseases, measures of disease occurrenceand its q expression - prevalence, incidence, the relationship between them, mortality and health indicators, lethality, diagnostic reactions and their interpretation. .

The textbook is a reliable source for undergraduate students majoring in veterinary medicine at universities, veterinary college students, specialists conducting research in the field of veterinary medicine and practicing veterinarians.

# AZƏRBAYCANIN YESENİNŞÜNAS ALİMİ “YESENIN ENSİKLOPEDİYASI” HAQQINDA




2011-ci il mayın 17-də *“525-ci qəzet”*də, *ilkxeber.org, yenises.az, apa.az, moderator.az, novoye-vremya.com* və digər saytlarda (ümumilikdə 30-dək qəzet və saytda) yeseninşünas alim, Beynəlxalq Yesenin mükafatları laureatı, Xəzər Universitetinin prorektoru İsaxan İsaxanlının "Yeseninşünaslığa tohfə: “Yesenin ensiklopediyası” adlı geniş məqaləsi Azərbaycan və rus dillərində dərc edilmişdir.

Məqalə Rusiya Elmlər Akademiyası M.Qorki adına Dünya Ədəbiyyatı İnstitutu və burada fəaliyyət göstərən Yeseninin həyat və yaradıcılığını öyrənən “Yesenin qrupu”nun iştirakı ilə çoxcildli “Yesenin ensiklopediyası”nın 1-ci buraxılışının işıq üzü görməsi münasibətilə yazılmışdır.

Ensiklopediyanın xüsusiyyətlərindən və həm oxucular, həm də mütəxəssislər üçün böyük əhəmiyyətindən bəhs edən müəllif dahi şairin Bakı yaradıcılığından da söz açır.

https://525.az/news/168278-yeseninsunasliga-tohfe-yesenin-ensiklopediyasi
https://www.novoye-vremya.com/posts/ne-umru-ya-moy-drug-nikogda-2021-05-18-104917#.YKNo5Lv1wJ0.whatsapp

# AZERBAIJANI YESENIN SCHOLAR ABOUT “YESENIN ENCYCLOPEDIA”

On May 17, 2021, an extensive article entitled “Contribution to Yesenin Studies: “Yesenin Encyclopedia” by Yesenin Scholar, laureate of the International Yesenin Prize, and Vice-Rector of Khazar University was published in Azerbaijani and Russian in the “525-ci qəzet”, ilkxeber.org, yenises.az, apa.az, moderator.az, novoye-vremya.com and other sites (about 30 newspapers and websites in total).

The article was written on the occasion of the publication of the first issue of the multi-volume “Yesenin Encyclopedia” with the participation of the Institute for World Literature named after M. Gorky of the Russian Academy of Sciences and the “Yesenin Group” studying the life and poetry of S.Yesenin.

Talking about the features of the encyclopedia and its great importance for readers and professionals, the author also touched upon the genius poet's poetry on Baku.

https://525.az/news/168278-yeseninsunasliga-tohfe-yesenin-ensiklopediyasi
https://www.novoye-vremya.com/posts/ne-umru-ya-moy-drug-nikogda-2021-05-18-104917#.YKNo5Lv1wJ0.whatsapp



# МУЛЬТИКУЛЬТУРАЛИЗМ И ПРИЧИНЫ ЕГО ВОЗНИКНОВЕНИЯ

**Лейла Мустафаева,**
*Старший преподаватель Бакинского Славянского Университета*

Мультикультурализм – это политическая идеология и практика, направленная на поддержание условий существования культурного разнообразия на территории определенного государства и развитие толерантного отношения к существующим меньшинствам.

Мультикультурализм не принято считать сугубо современным явлением, так как процессы смешения языков, культур разных народов всегда наблюдались в мировой истории, однако современный мультикультурализм отличается широтой распространения.

Как подчеркивает А.И. Куропятник, существует три уровня понимания мультикультурализма:

- демографический, сущность которого состоит в описании изменений демографических и этнокультурных параметров национальных обществ, происходящих как вследствие внутренних, так и внешних причин. Важнейшей из них выступает миграция, в результате чего мультикультурализм как на институциональном, так и на обыденном уровнях иногда понимается как политика интеграции мигрантов в принимающее общество;
- идеологический, в рамках которого обсуждаются варианты национальных идеологий, например, полиэтнического национализма в Австралии, культурной коммуникации, межкультурного взаимопонимания, соответствия и различий ценностей, норм, морали контактирующих между собой этнокультурных общностей, национальных меньшинств и национального большинства;
- политический, предполагающий практическое решение вопросов политического и культурного равноправия национального меньшинства и большинства, реализацию программы поддержки и социальной защиты меньшинств.

Попытка решить проблему полиэтничности внутри многокультурных стран, привели к созданию политики мультикультурализма, которая предполагает толерантность, включение в культурный процесс элементов культур эмигрантов, взаимное проникновение различных культур.

Одной из первых стран, где стала практиковаться политика мультикультурализма, стала Канада, которая с середины 60-х гг. XX века отказалась от ассимиляции новых мигрантов. Как известно, население Канады большей частью являлась англо-канадским и французско-канадским, до 1970-х годов, в Канаде предпринимались попытки применить концепцию «плавильного котла», которая подразумевает ассимиляцию различных культур, этносов и меньшинств в единую нацию, при наличии каких-либо отличительных аспектов, однако англо-канадцы и франко-канадцы являлись доминирующими этническими группами, продолжали сохранять свою уникальность, требовали равенства, а страна оставалась двуязычной. Проводимые в стране попытки ассимиляции не

давали успешных результатов. Чтобы предотвратить случаи сепаратизма внутри страны была принята политика мультикультурализма, было также высказано мнение, что билингвизм, или политика двуязычия, может способствовать достижению национального согласия, устранению противоречий между англоязычной и франкоязычной общинами этой страны.

Таким образом, в 1971 г. был принят Акт о мультикультурализме, в соответствие с которым был образован Канадский совет по мультикультурализму. Термин «Мультикультурализм» официально закрепился уже в 1970-х. Канадский мультикультурализм был тем путем, который позволил понимать Канаду не как «плавильный котел», а как страну «культурно мозаичную». Канада стала первой страной, принявшей официальную политику мультикультурализма к иммигрантам, и она продолжает оставаться страной, в которой понятие мультикультурализма закреплено в Конституции.

США с момента своего возникновения являются обществом мультиэтническим, население США исторически складывалось из пяти основных элементов: коренное население индейцев; ввезенные в массовом порядке рабы из Африки; религиозно неоднородная первая волна колонистов; политическая и экономическая элита англосаксонского происхождения; последующие волны иммигрантов не только из европейских, но и латиноамериканских и азиатских стран. Пытаясь создать единое и сплоченное общество и государство первоначально в США применялась концепция «плавильного котла», но несмотря на предпринятые усилия, к середине XX в. стало ясно, что политика плавильного котла не принесла желаемых результатов. Как справедливо заметил Дж. Хатчинсон, «ассимиляционизм далеко не продвинулся в политике США как цель». Таким образом, в 1970-е гг здесь появился термин «мультикультурализм» в форме «этнического возрождения».

В США, Канаде и Австралии изначально существовал полиэтнический состав и это способствовало наиболее полному развитию и применению политики мультикультурализма в этих странах.

Следует отметить, что большинство стран мира характеризуется высоким этническим, культурным, религиозным и языковым разнообразием. В Африке и Азии, а также некоторых странах Северной и Южной Америки, таких как Канада и Перу, уровень этнокультурного разнообразия крайне высок. Япония, Северная и Южная Корея – одни из самых культурно однородных. Страны Европы в этом плане значительно отличаются друг от друга: в то время как в Испании и Бельгии этот показатель высок, Италия и Дания – одни из самых однородных стран в мире. Причем ныне этнокультурное разнообразие в странах Европейского союза увеличивается вследствие иммиграции, однако многие страны Европы все еще относительно однородны.

В Европе политика мультикультурализма успешно просуществовала до начала XXI века. В последние годы европейский подход мультикультурализма стал подвергаться критике. Иначе говоря, с 1970-х до середины 1990-х годов, в западных демократиях не было проблем с политикой мультикультурализма и правами меньшинств. Эти меры были одобрены как на национальном уровне, так и в международных организациях, которые отказались от прежних унитарных представлений об однородной государственности. Однако с середины 1990-х годов происходит отказ от политики мультикультурализма и возрождение идеи государственного строительства через общие ценности и идентичности, унитарного гражданства – даже звучат призывы за «возвращение ассимиляции». В 2010–2011 годах руководители европейских держав были вынуждены публично признать несогласованность политики мультикультурализма в регулировании этно-религиозных отношений. Канцлер Германии Ангела Меркель сказала: «Наш подход был мультикультурализмом, в том смысле, что мы будем жить бок о бок и ценить друг друга». Этот подход потерпел неудачу, полностью не удался. Бывший премьер-министр Великобритании Дэвид Кэмерон в своем выступлении на 47-й Мюнхенской конференции по безопасности призвал раз и навсегда отказаться от доктрины мультикультурализма,

Следует особо подчеркнуть развитие мультикультурализма в Азербайджане. Азербайджан, расположенный на стыке различных цивилизаций всегда славился своей многонациональной многоконфессиональной культурой и историей. Мультикультурализм является образом жизни азербайджанского народа. Сегодня независимый Азербайджан является одним из основных центров мультикультурализма. В нашей республике созданы все необходимые условия для существования различных этнических групп.

Мультикультурализм в Азербайджане является составной частью политики государства, в основе

которой лежит защита этнического, религиозного, языкового, культурного разнообразия нашей страны. 15 мая 2014 года указом Президента Азербайджана И. Алиева был создан Бакинский международный центр мультикультурализма. 2016 год в Азербайджане был объявлен «Годом мультикультурализма». За последние несколько лет в Азербайджане прошли крупные культурные, политические, спортивные мероприятия, в ходе проведения которых руководство страны прикладывает огромные усилия к тому, чтобы познакомить иностранных гостей с традициями, историей и бытом азербайджанского народа.

Мультикультурализм в Азербайджане имеет глубокие исторические корни. В нашей стране веками мирно сосуществовали различные народы, сливались культуры, в Азербайджане никогда не было противостояния на религиозной и этнической почвах. «Азербайджанский народ сам по себе, а также благодаря своей природе и своему характеру обладает высоким чувством толерантности». Этими словами Великий Лидер Гейдар Алиев дал самое оригинальное и ясное объяснение нашего отношения к мировым ценностям, назвал Азербайджан родиной представителей различных народов, независимо от национальности и вероисповедания.

Азербайджан-это многонациональное государство, где проживают представители различных этнических и религиозных групп. Наряду с гражданами исповедующими мусульманскую религию в Азербайджане проживают также представители других конфессий, которые имеют те же права, что и титульный этнос. Каждый член общества, независимо от этнической и религиозной принадлежности, является полноправным гражданином Азербайджанской Республики.

Подчеркивая роль мультикультурализма в Азербайджане Президент Ильхам Алиев на открытии VI Международного гуманитарного форума сказал: "Представители различных религий, народов веками жили в Азербайджане одной семьей в условиях мира, дружбы и спокойствия, эта политика продолжается и сегодня. Государственная политика в этом направлении в Азербайджане очень эффективна и приводит к прекрасным результатам. Наше историческое прошлое, культура свидетельствуют о том, что представители различных религий в Азербайджане всегда жили спокойно, как одна семья. Наши исторические, религиозные памятники говорят и о нашей древней истории, и о том, что Азербайджан является родным краем, родным пространством для представителей различных религий".

Таким образом, мультикультурализм и толерантность имеют исторические корни в Азербайджане, развиваются в современном азербайджанском обществе и поддерживаются на государственном уровне. Азербайджан- это страна, где мечеть, церковь и синагога находятся в мирном сосуществовании. Между религиозными конфессиями, действующими в Азербайджане существуют исторически сложившиеся толерантные отношения, основанные на принципах взаимного уважения и сотрудничества.

## Список литературы


https://multiculturalism.preslib.az/

Антонова В. Мультикультурализм: идеология, политика и культурный код современности / В. Антонова; Центр социальной политики и гендерных исследований. М. : Вариант, 2012. 118 с.

Борисов А.А. Мультикультурализм в США: теории и практики. Пермь : Перм. ун-т, 2007.

Гасанов Э. Мультикультурализм как фактор устойчивого развития/ Elm və İnnovativ Texnologiyalar Jurnalı Nömrə 15, 2020. 83-92.

Жериборов Д. С. Концепция мультикультурализма в современной политике Азербайджана / Д. С. Жериборов // Научный диалог. – 2017. – № 7. – С. 95 –102.

Куропятник А. И. Мультикультурализм: проблемы социальной стабильности полиэтнических обществ / А. И. Куропятник [Электронный ресурс]. URL: http://www.old.jourssa.ru/2000/2/2bKuropyatnik.pdf

Малахов В. Парадоксы мультикультурализма // Иностранная литература. – 1997. – № 1. – С. 171–175.

Назаров, В. Л. Теория и практика мультикультурализма в странах Запада : [учеб. пособие] / В. Л. Назаров. – Екатеринбург : Изд-во Урал. ун-та, 2015. – 212 с

modern.az
İNFORMASİYA AGENTLİYİ

## ŞƏHİD MAYORUN QIZI XƏZƏR UNİVERSİTETİNDƏ TƏHSİL ALMAQ İSTƏYİR

## MARTYRED MAJOR'S DAUGHTER WANTS TO STUDY AT KHAZAR UNIVERSITY

2021-ci il iyunun 14-də *modern.az* saytında dərc edilmiş "Şəhid mayorun qızı orta məktəblə vidalaşdı: "Atam bu günü görsəydi, çox sevinərdi" sərlövhəli yazıda bu barədə bəhs olunur.

Yazıda göstərilir ki, Tovuz döyüşlərində şəhid olmuş mayor Anar Novruzovun qızı Firuzə Novruzova da 11-cilər sırasında "Son zəng" tədbirində iştirak edərək, orta məktəblə vidalalaşıb.

Firuzə Novruzova 3-cü ixtisas qrupu üzrə imtahanlara hazırlaşdığını və Xəzər Universitetində Azərbaycan dili və ədəbiyyatı müəllimliyi ixtisasına yiyələnmək arzusunda olduğunu bildirib.

It is mentioned in the article entitled "Martyr Major's daughter said goodbye to high school: My father would be very happy in case he witnessed this day" published on modern.az on June 14, 2021.

According to the article, Firuza Novruzova, the daughter of Major Anar Novruzov, who was martyred in the Tovuz battles, also took part in the "Last Bell" event alongside 11th grade students and said goodbye to high school.

Firuza Novruzova is about to take an exam on the 3rd group and wants to study Azerbaijani language and literature at Khazar University.

***https://m.modern.az/az/news/294320/sehid-mayorun-qizi-orta-mekteble-vidalasdi-atam-bu-gunu-gorseydi-cox-sevinerdi***

arb 24

## "XƏZƏR"İN DEPARTAMENT MÜDİRİNİN *ARB 24* TELEKANALINA MÜSAHİBƏSİ

## INTERVIEW OF KHAZAR UNIVERSITY'S DEPARTMENT HEAD TO *ARB 24 TV* CHANNEL

2021-ci il iyunun 24-də *ARB 24* televiziya kanalı Xəzər Universiteti Coğrafiya və ətraf mühit departamentinin müdiri Rövşən Abbasovla geniş müsahibə keçirmişdir.

Verilişdə Azərbaycan ərazisində məişət tullantılarının toplanması, çeşidlənməsi və emal olunması problemləri müzakirə olunmuşdur.

Rövşən Abbasov ölkə ərazisində bu tip tullantıların yığılma problemləri haqqında danışarkən, ilk növbədə tullantıların emal müəssisələrinin yaradılmasının vacib olduğunu vurğulamışdır.

Eyni zamanda, qeyd edilmişdir ki, istehlakçılar arasında məsuliyyətin yaradılması və çeşidlənmə zamanı onların birbaşa iştirakı təmin olunmalıdır.

On June 24, 2021, *ARB 24 TV* Channel conducted an extensive interview with Rovshan Abbasov, Head of the Department of Geography and Environment at Khazar University.

The program covered the problems of collection, sorting and processing of household waste in Azerbaijan.

Speaking about the problems of collecting this type of waste in the country, Rovshan Abbasov underlined the significance of establishing waste treatment facilities.

At the same time, it was noted that the direct participation of consumers in the creation of responsibility and sorting should be ensured.

***https://www.youtube.com/watch?v=wc8OWHS9EVo&t=1s***

## DEKANIN MONOQRAFİYASI TÜRKİYƏDƏ ÇAP OLUNUB

Xəzər Universiteti Humanitar, təhsil və sosial elmlər fakültəsinin dekanı filologiya üzrə fəlsəfə doktoru, dosent Elza Səmədlinin “Eski türkçeden günümüze basit fiillerinin semantikası ve etimolojisi” (“Qədim türk dövründən günümüzə sadə feillərin semantikası və etimologiyası”) adlı monoqrafiyası Türkiyədə beynəlxalq nəşriyyat evi olan Nobel Akademik Yayıncılık`da çap olunub.

Aşağıdakı linkdən kitabla tanış olmaq mümkündür.

*https://www.nobelyayin.com/eski-turkceden-gunumuze-basit-fiillerin-semantikasi-ve-etimolojisi_17116.html*




## DEAN'S MONOGRAPH PUBLISHED IN TURKEY

Khazar University Dean of the School of Humanities, Education, and Social Sciences, Doctor of Philosophy in Philology, Associate Professor Elza Samedli's monograph “Semantics and etymology of simple verbs since ancient Turkic to the present day” was published by *Nobel Akademik Yayıncılık*, an international publishing house in Turkey.

You can get acquainted with the book through the link below.

*https://www.nobelyayin.com/eski-turkceden-gunumuze-basit-fiillerin-semantikasi-ve-etimolojisi_17116.html*




## XƏZƏR UNİVERSİTETİNİN MÜƏLLİMİNİN MƏQALƏSİ “İNSIGHT TURKEY” JURNALINDA

Xəzər Universitetinin Siyasi elmlər və fəlsəfə departamentinin müəllimi Dr. Elmar Mustafayevin “Dağlıq Qarabağ münaqişəsinin həllində Avropa İttifaqının dəyər və maraqları: Fransanın təktərəfli mövqeyi” adlı məqaləsi Scopus indeksli "Insight Turkey" jurnalında dərc olunmuşdur.

Ərazi bütövlüyü məsələsini Avropa İttifaqının dəyər və maraqları prizmasıdan araşdıran elmi məqalədə müəllif Fransanın Dağlıq Qarabağ münaqişəsindəki mövqeyinin Avropa İttifaqı dəyər və maraqlarına uyğun olmadığını göstərir.

## ARTICLE BY KHAZAR UNIVERSITY FACULTY MEMBER IN “INSIGHT TURKEY”

An article by Dr. Elmar Mustafayev, instructor at the Political Science and Philosophy Department, entitled "EU Values and Interests in the Resolution of Nagorno-Karabakh Conflict: French Unilateralism" has been published in Scopus indexed "Insight Turkey" journal.

The article analyzes the question of territorial integrity from the context of EU norms and values and argues that the standpoint of France in the resolution of the Nagorno-Karabakh conflict is not in line with the EU norms and values.

## BİR QRUP MÜTƏXƏSSİSİN BİRGƏ TƏDQİQATININ NƏTİCƏLƏRİ HAQQINDA MƏQALƏ

## ARTICLE ON THE RESULTS OF JOINT RESEARCH BY A GROUP OF EXPERTS




"Kənd Təsərrüfatında Rəqabət Qabiliyyətinin Gücləndirilməsi Layihəsi, Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi, Xüsusi Təhlükəli Patogenlərə Nəzarət Mərkəzi, Mərkəzi Gömrük Hospitalı, Xəzər Universiteti, Mərkəzi Referens Baytarlıq Laboratoriyası, Respublika Gigiyena və Epidemiologiya Mərkəzi və Yeni Zelandiyanın Massey Universitetinin (*Massey University*) mütəxəssisləri Dünya Bankının maliyyə dəstəyi ilə 2015 - 2020 ci illərdə Azərbaycanda kənd təsərrüfatının rəqabət qabiliyyətinin artırılması ilə bağlı birgə tədqiqat aparmışlar.

Tədqiqatın nəticələrini əks etdirən "Working towards development of a sustainable brucellosis control programme, the Azerbaijan example" (“Bruselyozla davamlı mübarizə proqramının hazırlanmasında Azərbaycan təcrübəsi”) adlı məqalə 14 nəfər mütəxəssisin həmmüəllifliyi ilə (Xəzər Universitetindən Təbiət elmləri departamentinin müdiri Asəf Ömərov) impakt faktoru 1.892 olan "Research in Veterinary Science" jurnalında dərc olunmuşdur.

Agricultural Competitiveness Improvement Project, Azerbaijan Food Safety Institute, Center for Contol of Particularely Dangerous Infections, Central Customs Hospital, Khazar University, Central Veterinary Reference Laboratory, Republican Center of Hygiene and Epidemiology, and specialists from Massey University New Zealand conducted a joint research with the financial support of the World Bank on increasing the competitiveness of agriculture in Azerbaijan in 2015-2020.

An article entitled “Working towards development of a sustainable brucellosis control programme, the Azerbaijan example” co-authored by 14 experts (Asaf Omarov, Head of the Department of Natural Sciences, Khazar University), was published in the journal “Research in Veterinary Science” with an impact factor of 1.892.



# KADİM SÜMERLERDE AİLE VE KADININ ÖNEMİ

**Dr. Sabina Neimetzade Canaslan**

*(Türkiye)*

Sümer dönemlerinde aile müessesine büyük önem verilmiştir. Özellikle koca, kadın ve çocuklardan oluşan aile bireyleri arasındaki iletişim, ilişki sağlam esaslara dayanıyordu. Çocukların baba ve annelerine olağanüstü saygısı ve itaati vardı. Baba ve annelerin de sevimli çocuklarına olan şefkati, ulvi sevgisi aile birlikteliğin önemli unsurları sayılıyordu.

"Aile eski Yakındoğu toplumlarının çekirdeğini oluşturmaktaydı. Ataerkil bir yapıya sahip Sümerliler de elbette ki, taşınmaz malların ve aile kültünün aktarımı baba soyluydu. Fakat Sümerlilerde kadının da toplum içinde saygın bir rolü vardı. Kadın, evliliğin amacı olan soyun devam etmesini sağlayan doğurma işlevi nedeniyle aile içinde seçkin bir yere sahipti. Anne olan her kadına saygı gösterilirdi. Çocuk sahibi olma, özellikle de erkek bir çocuğa sahip olma, evli çifte aile varlığının aktarımı, yaşlılık günleri için bakım ve hatta ölüler kültü sayesinde öbür dünyada bir yaşam saklamaktaydı." (Pierre Bordreuil, Françoise Briguel-Chatonnet, Cecile Michel, Tarihin Başlangıçları, Çev. Levent Başaran, Alfa Yay. İstanbul, 2015, s. 271-272)

Sümerlerde kadınlar anadır, mukaddes ve saygın bir varlık sayılıyordu. Çünkü doğurarak dünyaya yeni insan yavruları getiriyorlardı. Kadınsız toplum yükselmiyordu, çoğalmıyordu. Özellikle tarıma kadınlar önayak olmuşlar ve tahıldan ekmek yapmayı başarıyorlardı. Şümer'de Büyük Ana Tanrıça – "Ninhursag", diye anılıyordu. Sümer'de erkek çocuklarla birlikte kız çocukların da okullara gittikleri anlaşılmaktadır. (Nazmiye Mutluay, "Eski Çağda Yakındoğu Toplumlarında Kültürel Yaşam", Alter Yay. Ankara, 2015, s. 126-127).

Sümer'de, siyasal yaşamda erkeklerin yanında kadınlar, Kral eşleri olarak veya Krallık yaparak Sümer tarihinde önemli roller oynamışlardır. Halkın içinden olan her hangi bir kadın kendi başına ticaret yapabiliyordu. Ayrıca mal sahibi olabiliyor; hatta borç alıp verebiliyor, kefil bile ola biliyordu. Zorunlu olduklarında dava açabiliyor ve mahkemelerde de tanıklık yapabiliyordu. Kısacası, kadınlar tarlalarda, bahçede, su kanalları açma, dokumacılık gibi işlerde de başarıyla çalışabiliyorlardı. Sümer'de kadın şerefli görevlerde de kendi başarılarını sergiliyordu: doktor, ebe, berber, sekreter, denetleyici ve meyhaneci oluyorlardı. İş annelerden kızlara geçiyordu. Böylece kadınlar toplumda bütün bu görevlerde fevkalade başarı sergiliyorlardı.

Sümer'de tek eşlilik vardı. Eğer kadının çocuğu olmazsa kadının izniyle kocası ikinci bir kadın alabi-

liyordu. Burada ciddi bir kural da önemliydi: birinci kadın, ikinci kadını çocuğu olduktan sonra satabiliyor veya evinden dışarı atabiliyordu. Eğer kadın kocasını istemezse, aralarında anlaşmazlık olduğunda, uygar insanlar gibi mahkemeyle boşanabiliyordu. Eğer yazılı belgesi olmayan bir evlilik yasal değildi.

Sümer tarihinin usta araştırıcısı, Muazzaz İlmiye Çığ'ın "Tarih Boyunca Kadın" kitabından okuyoruz: "Sümerlilerin Ünlü Lagaş Kralı Urukaına, M. Ö. 2.400 yıllarında yaptığı reformlarda kadınlara yeni haklar ve itibar getirmiştir. Ur Kralı Mezarlarında adı ve tacı bulunan Kralçe Puabı (Şubat), Kiş'te bir sülale kuran Kubaba, komşu beylere diplomatik elçiler gönderen Kralçe Barnamtarra ve Şag Şag bunlardandır. "Urukağina Reformu" kadın haklarının ele alındığını gösteren dünyada ilk yazılı belgedir. Bu belgeye göre fakir ve dul kadınlar zengin ve güçlüler tarafından ezilmeyecek, kadın ile erkek aynı işte aynı ücreti alacaktır."

Sümer'de kadınların ekonomik durumuna gelince şunu ifade edebiliriz: kadınlar çalıştıkları gibi mülk sahibi olabiliyorlar; ev, bahçe tarla, hayvan, köle bile alıp satabiliyorlar; ayrıca faizli faizsiz borç alabiliyorlar. Hatta erkeklerle ortak iş yapabiliyorlar. Bağımsız olarak mahkemelere gidip dava açabiliyorlar, hatta tanıklık bile yapabiliyorlardı. Bu işleri yaptıklarında belgelerde kendilerine ait mühürlerini kullanıyorlardı. Her kadının ve erkeğin kendi mühürleri vardı.

## Sümerlilerde evlilik

Aile müessesesi, Sümer'de toplumun nüvesini teşkil ediyor. Aile – Sümerlilerde çok sağlam temel üzerine kurulmuştu. Aileye olan sadakat, sevgi ve münasebet, çok-çok üst seviyede olmuştur. Sümer'de aile konusuna çok titiz yaklaşıyorlardı. Örneğin, Sümerlilerde erkekler ancak bir kadın ile evlenebiliyordu. Ve bu evliliğin mutlaka bir mukavele (şimdiki anlamda kebinkesme) ile de teyidi zorunluydu. Çünkü mukavelesiz evlilik kesin yapılamazdı veya muteber değildi. Sümerlerde bütün bu süreçler kanuna bağlıydı ve her birey kanunu titizlikle koruyordu. Her kes her alanda kanun üzerine hareket ediyordu; kanuna bağlılık ise her birey için bir kuraldı. Bu mukavelenin imzasından önce erkeğin velisi kızın velisine müracaat edip kızı ister; olumlu cevap aldıktan sonra nişan hediyesi olarak muayyen bir meblağ, ya takım, ya kıymetli altınlar gönderiyordu. İşte bu nişan hediyesine "TİRKHATU" denilirdi. Bu hediye verildikten sonra bir nevi nişan da gerçekleşmiş oluyordu. Peki, kızın ailesi tarafından erkeğe neler veriliyordu, derseniz? Erkek tarafından verilen "Tirkhatı"ya karşılık kızın velisi de damadına "ŞERİKTO" denilen ve erkekten gelen hediyeden kıymetçe hiç de aşağı olmayan bir hediye veriyordu. Kadim geleneğe göre kadın, kendisine verilen bu hediyeyi ölünceye kadar güvende saklardı. Evlendiklerinden sonra her iki hediye kadının kendi malı oluyordu. Kadın dünyasını değiştiğinde, Tirkhatu ve Şerikto çocuklarına intikal ederdi. Eğer çocukları yok ise Tirkhatu kocasına, Şerikto ise kadının akrabalarına veriliyordu. Bütün bu işlemler çok büyük titizlikle ve dürüstçe yapılıyordu.

Sümerdeki aile kanunu, Sümerlilerin aile bağlarını sağlam tutmaya, sadece karı koca arasında değil, tüm aile bireyleri – ana, baba ve evlatları arasında da samimiyeti, sevgiyi, saygıyı pekiştiren, muhafaza etmeye büyük özen, önem verdiklerine şahit oluyoruz.

Bir başka husus da şudur; eğer kadın eşine bir çocuk veremezse, erkeğin kadını çeyiziyle birlikte ailesinin evine göndermeye hakkı vardır. Zina yapan kadının cezası ölümdü (Hammurabi Yasaları, 138. Madde; 129. Madde).

Sümerlerde daha bir önemli hususu da vurgulamak isterim. Evli kadınların kendilerine özgü malları, köleleri bulunuyordu. Onları istedikleri gibi kullanıyorlardı; hatta çocuklarını bile satabiliyorlardı. Kocası ile müşterek iş yapabiliyor, borç alıp verebiliyordu. Buna karşılık kocasından miras hakkı yoktu. Ancak isterse kocası mallarından hediye olarak ona verebiliyordu.

## Sümerlerde birden fazla kadınla evlenmek

Genel olarak Sümer töresinde tek bir kadınla evlilik esas kural olarak devam etmiştir. Fakat istisnai bazı durumlar mevcut olmuştur. Örneğin, daimi bir hastalığı nedeniyle kadın kuvvetten düşmüş ise neslin devamı için erkeğin ikinci bir kadınla evlenmesine izin veriliyordu. Fakat böyle durumlarda erkek

ilk evlendiği kadına bakmaya mecburdu.

Sümerlilerde ailelerin çocuk sahibi olmaları büyük önem taşıyordu. "Gılgamış", "Enkidu" ve "Ölüler Dünyası" adlı Sümer öyküsüne göre insan ne kadar çok çocuk sahibi oluyorsa, öbür dünyada o kadar iyi yaşamaktaydı. Bu sebepten her çeşit taş, bitki ve büyünün kadının gebe kalmasına yardım ettiğine ve gebelikle doğum sırasında çocuğu koruduğuna inanılırdı… Sümerlerde çocuğa büyük ihtiyaç duyuluyordu ve gebe kadınlara büyük saygı ve sevgiyle yaklaşılırdı. Gebe kadınlara her türlü olanaklar, o ailelere her türlü yardımlar ediliyordu. Gebe kadınları Sümerliler göz bebeği gibi koruyorlardı ve o ailelere her türlü maddi-manevi destek veriliyordu. Ama çocuğumu aldırtan bir kadın ve ona yardım edenler kazığa oturtuluyordu ve mezarsız bırakılıyordu.

Sümerli anne ve babalar özellikle bebeklik döneminden itibaren çocuklarının sağlığı ile titizlikle ilgiliydiler. Kazılarda ortaya çıkarılan âşık oyunu kemikleri; tekerlikli minyatür insanlar ve hayvanlar; dört yüzlü zarlar; oyun tahtaları, çeşitli oyuncaklar çocukların anne ve babalarıyla nasıl eğlendiklerini gösteriyor. Fakat köle çocukları 4-5 yaşlarından itibaren annelerinden ayrı satılabiliyordu… Özgür ailelerin çocukları ise boşanma durumunda bile anneleriyle kalabiliyordu.

Sümerlilerde boşanma hakkı kanunla kabul edilmiş bulunuyordu. Ama boşanmalar bazı mücbir sebeplere bağlanmış bulunuyordu: örneğin, ölüm, iflas, hastalık, kısırlık ve tutukluluk durumlarında boşanmalara izin veriliyordu. Böyle durumlarda erkekler kadına tazminat vermeye mecburdu. Fakat boşanma gerçekleştiğinde kadının kocasından çocuk olup olmadığına göre hüküm değişiyordu. Eğer boşanan kadının kocasından çocuğu varsa babasının evinden getirmiş olduğu cihazı, yani "Seriktu"yu alıyordu. Ayrıca evladının yetiştirmesi ve eğitimini devam etmesi için kocasının gayrimenkullerinden istifade etme hakkına sahipti. Kocası öldüğünde de kalan mirastan bir oğul hissesi alıyordu. Yalnız bundan sonra istediği kimse ile ikinci evlilik yapabilirdi. Böylece kadının hak ve hukuku kanun tarafından titizlikle savunuluyordu. Fakat kadını zina gibi bir fiilden dolayı erkek tarafı boşarsa, kadın bir hak iddia edemezdi. Hatta baba evinden getirmiş olduğu çeyizi dahi kocasına bırakmaya mecbur oluyordu.

Kadınlara da bir ayrıcalık, hak tanınıyordu; kocasının kayıtsızlığı, müşterek hayata riayetsizliği nedeniyle boşanma talep edilebilirdi. Böyle durumlarda eğer mahkeme kabahatin erkekte olduğuna karar veriyorsa kadın hem kocasından ayrılabilir, hem de getirmiş olduğu çeyizi alabilirdi.

Sümerlerde kanun, fevkalade titiz, dürüstçe işliyordu ve hiç zaman kanun dışına çıkılmazlardı. Hiçbir sebebi olmadan karısını terk eden erkekler büyük tazminat ödemekle cezalandırılırdı. Ayrıca sebepsiz yere kocasını bırakan kadınlar suya atılmak suretiyle cezalandırılırdı. Başka bir ayrıcalık da vardı: vatanına ihanet eden kocasının karısı isterse boşanabilirdi.

"…Dul kadınlar kızlarını evlendirirken aile reisi rolünü üstleniyorlardı. Emar ya da Ekalte'de bulunan birçok vasiyetnameye göre kocalar eşlerini çocuklarının "Ana Babası" olarak atayarak tüm yetkilerini analara bırakıyorlardı. Dul kadın yapılan evlilikte çocuğunun olmaması durumunda ise çeyiziyle beraber baba evine dönebilir, hatta yeniden evlenmesine izin veriliyordu. Eğer kadın çocuk doğurmadan ölürse, dul kalan eşi karısının evlenirken getirdiği çeyizini kadının ailesine iade ediyordu"(Pierre Bordreuil, Frankoise Briguel-Chatonnet, Cecile Mishel, "Tarihin Başlangıçları". Çeviri Levent Başaran, Alfa Yay. İstanbul, 2015, s. 274).

Sümer kanunlarında dulluk kavramı da yer alıyordu. Yapılan evliliklerde erkekler daha yaşlı olduklarından dolayı çoğu zaman eşinden önce ölüyordu. Böyle durumlarda kanunlar kadının haklarından yanaydı: eşinin ölümünden sonra da kocasının evinde yaşamasına izin veriliyordu. Böyle durumlarda bile kanunlar kadınların hak ve özgürlüklerini daima koruyordu. Kocası ölen kadın geçimini, eşinin bıraktığı dulluk geliriyle, mirası olası bir katılımıyla, ya da ona bakmakla yükümlü olan aile varlığının mirasçısı çocukları sayesinde sağlıyordu.

Sümerlerde kadınlara fevkalade önem veriliyordu, çünkü kadının, toplumun büyümesinde müstesna rolü vardı. Ayrıca kadın, bolluğun, bereketin sembolü ve ülkenin büyümesinde, Ordunun çoğalmasında özel yere sahipti. Sümerlerde kadınları her yerde görmek mümkündü; tarlada ekin ekiyor, evde ailenin geçimini sağlıyor, devletin içinde hizmet veriyor, toplumun pekişmesine, çoğalmasına bilhassa yardımlarda bulunuyordu.

Buna göredir ki kazılarda bulunan heykellerin çoğunda kadınlar işlenmiştir, resimlerde de kadınları görmekteyiz.

## “XƏZƏR”İN MÜƏLLİMİNİN KİTABI ÇAP OLUNUB




Tarix və Arxeologiya departamentinin müəllimi Telman Nüsrətoğlunun “Osmanlı Hariciyesi'nin Güney Kafkasya Raporları (1852-1914)” kitabı Türkiyədə çapdan çıxmışdır.

Kitabda Türk-İslam dünyasının son dünya dövləti olan, yüzillər boyu Asiya, Avropa və Afrikaya hakimliyi, müxtəlif dillərə, dinlərə və mədəniyyətlərə sahib bir çox xalqı böyük tolerantlıqla bayraqları altında birləşdirmiş Osmanlı dövlətinin 1852-1914 illər tarixi işıqlandırılır. Burada əks olunan Dövlət Aliyesinin Qafqazdakı Rusiya işğalından sonra açılan diplomatik nümayəndəliklər vasitəsi ilə həyata keçirdiyi fəaliyyətlər, xüsusən də Baş Konsulluq tərəfindən hazırlanan hesabatlar, XIX əsrin ikinci yarısından sonra bölgədəki inkişaflar, qiymətləndirmələr, mövzu ilə əlaqədar İstanbula göndərdikləri məlumatlardır. Kitabda Osmanlı Xarici İşlər Nazirliyinin Cənubi Qafqazdakı fəaliyyətlərini işıqlandıran çox vacib Şahbender sənədləri ilk dəfə yayımlanır.

## KHAZAR FACULTY MEMBER PUBLISHES BOOK

Telman Nusratoglu, the lecturer at the Department of History and Archeology, has published a book entitled “South Caucasus Reports of Ottoman Foreign Ministry (1852-1914)” in Turkey.

The book covers the history of the Ottoman Empire, the last world power of the Turkic-Islamic world, which ruled Asia, Europe and Africa for centuries, uniting many peoples with different languages, religions and cultures under its flags with great tolerance from 1852 to 1914. The book demonstrates the activities of the State Alliance through diplomatic missions in the Caucasus after the Russian occupation, in particular, reports prepared by the Consulate General, developments in the region after the second half of the XIX century, assessments, information sent to Istanbul.

The book encompasses the first publication of very important Shahbander documents entailing the activities of the Ottoman Foreign Ministry in the South Caucasus.




## KİM-İN DİREKTORUNUN MƏQALƏSİ BEYNƏLXALQ ELMİ SİMPOZİUMUN MATERİALLARINDA

Xəzər Universiteti Kitabxana - İnformasiya Mərkəzinin direktoru Dr. Tatyana Zaysevanın “Xəzər Universiteti Kitabxana - İnformasiya Mərkəzinin bibliometrik informasiya xidmətləri” adlı elmi məqaləsi “Müasir dünyada mədəniyyətlərarası münasibətlər” adlı XV Beynəlxalq elmi simpoziumun materiallarında dərc edilib.

## THE ARTICLE OF THE DIRECTOR OF LIC IN THE MATERIALS OF THE INTERNATIONAL SCIENTIFIC SYMPOSIUM

The director of Khazar University Library - Information Center Dr. Tatyana Zayseva's scientific article, "Bibliometric Information Services of Khazar University Library-Information Center," was published in the Proceedings of the XV International Scientific Symposium on "Intercultural Relations in the Modern World.»

*https://elger-etm.com/jurnal/66-journal-the-xv-international-scientific-symposium.html*



# İT BALASI

(*Hekayə*)

**İsaxan İsaxanlı**

Hər il, adətən, mart ayının sonu, aprelin əvvəllərində Buzovnadakı bağ evimizə köçür, sentyabrın ortalarına qədər burada yaşayırıq. Səhər tezdən qalxıb həyətdə gəzişməyi, zümzümə edə-edə gül-çiçəklərlə, ağaclarla "söhbət etməyi" özümə adət etmişəm. Həyətdəki ağacların tumurcuqlamasını, çiçək açmasını, yarpaqlamasını günbəgün izləyir, hər gün baş verən kiçik dəyişikliklərdən böyük zövq alıram.

***

Ev heyvanlarına, xüsusən də itlərə böyük sevgim var. Uşaq vaxtlarımda nənəmdən eşitdiyim bu sözlər həmişəlik olaraq beynimə həkk olunub: "İt olan evdə bərəkət olar; it deyir ki, yiyəmin yeddi oğlu olsun, hərəsi də mənə bir tikə versin, bəsimdir".

Ömür yoldaşımla məsləhətləşərək, onun da dəstəyini aldıqdan sonra təxminən 40 günlük olan bir it balası (küçük) aldım. Adını, çox sevdiyim böyük rus şairi Serqey Yeseninin məşhur şeirindəki itin şərəfinə, Cim qoyduq. Onu çox sevirdim və bəzən ona elə aludə olurdum ki, vaxtın necə keçdiyini belə hiss etmirdim. Bir hadisədən sonra isə ona daha çox bağlandım və bu sevgim itin ömrünün sonuna qədər davam etdi.

... Yuxumda gördüm ki, kənddəki evimizdəyəm. Axşamüstü bağımızda gəzirəm. Birdən bir neçə it mənə hücum çəkdi. Mən nə edəcəyimi bilmədim, qaçmaq istəsəm də, hündür hasardan aşammadım və itlər məni yaxaladılar. Mən qorxumdan var gücümlə "Cim" deyə qışqırıb, onu köməyə çağırdım. Bu zaman möcüzə baş verdi. Cim aşılmaz hündür hasarı bir dəfəyə tullanaraq özünü mənim köməyimə çatdırdı. O, itlərin hamısını qovdu, məni ölümdən xilas etdi.

Gördüyüm bu yuxudan sonra Cim artıq mənim üçün adi bir it deyildi, o, mənim xilaskarım idi.

Cim mənə çox sədaqətli idi, bunu hamı hiss edir, görürdü. O mənim işdən qayıtma vaxtımı bilir, hər gün məni intizarla gözləyirdi. Maşınım darvazaya yaxınlaşanda artıq Cim bunu hiss edir, hürməyə başlayırdı və bu zaman evdə hamı mənim işdən qayıtdığımı bilirdi.

Bir dəfə xəstələndiyim üçün bir müddət işə gedə bilmədim və təxminən üç həftə evdən çıxmadım. Bu müddət ərzində Cim, demək olar ki, hər axşam (o, gündüzlər bağlı olur, axşamlar açılırdı) yataq otağımın pəncərəsinin altına gəlir, hürərək mənə sədaqətini göstərirdi. Onun bu hərəkətləri bütün ailəmizin qəlbində ona qarşı xüsusi münasibət oyatmışdı və o sanki ailəmizin bir üzvünə çevrilmişdi.

***

İllər keçdi. Cim artıq yaşa dolmuşdu. Hərəkətləri azalmış, vücudu zəifləmişdi. Demək olar ki,

yemək yemir, hərdənbir bir az su içirdi. Bütün bunlar onun ölümünün yaxında olduğundan xəbər verirdi. Mən də bunu başa düşür və onunla daha çox vaxt keçirməyə çalışırdım. Səhər tezdən, işə getməzdən əvvəl və axşam işdən gələndən sonra mütləq ona yaxınlaşır, onu əlimlə yedizdirməyə çalışır, bir müddət yanından ayrılmırdım.

... O gün işdən bir az gec gəlmişdim. Maşından düşən kimi itin damına tərəf getdim. Bu zaman bağban mənə yaxınlaşdı və kədərlə Cimin öldüyünü xəbər verdi, əli ilə onun yerinə işarə etdi. İtin cansız bədəninə yaxınlaşdım, başını sığallayıb yanında diz çökdüm. Ömür yoldaşım və uşaqlar da gəldilər. Onlar mənim Cimə olan sevgimi bilirdilər və mənə təsəlli vermək üçün gəlmişdilər. Birlikdə bir müddət Cimin yanından ayrılmadıq. Onu evimizə lap yaxın bir yerdə basdırdıq. Ömür yoldaşımın təklifi ilə basdırıldığı yerdə bir nar ağacı əkdik.

***

Yazın ilk günləri idi. Dünyada baş alıb gedən pandemiya səbəbilə biz həmişəkindən fərqli olaraq bağa daha tez – martın əvvəlində köçmüşdük. Amma, qəribə idi, bağ həyatı mənə darıxdırıcı gəlirdi. Bunun səbəbini başa düşməkdə çətinlik çəkirdim və ürəyimi ömür yoldaşıma açdım. O gülərək, dedi: "Mən bilirəm, sənin dərdin nədir, Cim üçün darıxırsan. İstəyirsən, balaca bir küçük alaq, lap istəyirsən, ona da Cimin adını qoyaq, necə düşünürsən?" Necə olmuşdu ki, bu qədər sadə həqiqəti uzun müddət anlaya bilməmişdim. Ömür yoldaşıma təşəkkür etdim.

Səhər saat 10 radələri idi. Evdəkilər həyətə çıxanda artıq mən balaca, ala-bula bir küçüklə oynayırdım. Hamı böyük sevinc içində küçüyə yaxınlaşıb, onu oxşamağa başladı. Ömür yoldaşım küçüyə tərəf əyilib sakitcə pıçıldadı: "Cim, xoş gəldin". Nədənsə, birdən bir az qəribsəyən kimi oldum: "Yox, adını Cim qoymayaq, mənim qəlbimdə Cimin yeri bambaşqadır, istəyirəm, o yer boş qalsın. Bəlkə, bu ondan da yaxşı it olacaq, amma Cim mənim üçün başqa bir dünya idi... Yaxşı bir ad fikirləşək". Xeyli araşdırmalardan sonra, uşaqların təklifi ilə, küçüyün adını "Lara" qoyduq.

***

Günəşin şüaları yataq otağımın pəncərəsindən içəri süzülürdü. Pəncərənin altında ucalan xan çinarına qonmuş sərçələrin cikkiltisinə və xüsusi əda ilə sevgi nəğməsi oxuyan sarıdimdiklərin səsinə yuxudan ayıldım. Yuyunub eşiyə çıxdım. Yenicə biçilmiş otun iyi həyəti götürmüşdü. Adətim üzrə, bir az velosiped sürdükdən sonra həyətdəki kiçik fəvvarəni işə saldım (fəvvarənin səsi mənə dağ çaylarının şırıltısını xatırladır). Həyətdə xeyli gəzişdim, toyuq-cücənin qapısını açıb buraxdım, şaftalı ağacına yaxınlaşıb çiçəyini qoxuladım, əyilib, öz əllərimlə əkdiyim kəkotunun qoxusunu "cənnət qoxusudur" deyə içimə çəkdim, köz kimi qızarmış çiyələklərdən bir ovuc dərib ləzzətlə yedim. Sonra Laraya yaxınlaşdım, başını sığallayıb, həyətə buraxdım. Küçük, bunu gözləyirmiş kimi, quyruğunu bulayaraq bir az üstümə şırmandıqdan sonra sevincək halda həyətdə ora-bura vurnuxmağa başladı. Bu zaman o, həyətdə təmizlik işləri ilə məşğul olan bağbanın darvazadan çıxdığını görüb (bağban hər səhər yığılmış zibili atmağa gedirdi) qapıya tərəf qaçdı və onun arxacınca bayıra çıxdı.

Bir qədər keçdi, bağban qayıtdı. Lakin küçük yanında yox idi. "Lara hanı, səninlə getdi?" deyə üzümü bağbana tutdum. Bağban bir az çaşqın-çaşqın küçüyün onunla getmədiyini, ümumiyyətlə, görmədiyini söylədi. Mən darvazadan çıxıb, o tərəf-bu tərəfə baxaraq hündürdən "Lara, Lara" deyə küçüyü səslədim. Səs-səmir yox idi. Narahat olmağa başladım. Birdən bir qədər aralıda gözümə nə isə sataşdı. Cəld yaxınlaşdım. Gördüyüm mənzərə məni heyrətləndirdi. Həyəcandan gözlərim yaşardı. Balaca Lara, heç nə olmamış kimi, Cimin basdırıldığı ağacın altında uzanıb kölgələnirdi.

Nar ağacı tumurcuqlamışdı...

*May 2020-ci il*
*Buzovna*

# ÖLÜMCÜL MƏHƏBBƏT

(*Hekayə*)

**İsaxan İsaxanlı**

Fərhadgilin kəndi elə bil düşməndən gizlənmişdi, sıldırım qayalarla dolu dağların arasında, Kürən çayının sahilində yerləşirdi. Kürən çayı həddindən artıq iti axır və kənd camaatı bu çayın dünyada ən iti axan çay olduğunu düşünürdü. Qış vaxtlarında çay öz məcrasından çıxır, suyun səviyyəsi yüksəlirdi. Bir neçə dəfə elə olmuşdu ki, su yaxın yerlərdəki evləri basmış və insanlar kəndin daha güvənli yerlərinə köçməli olmuşdular. Ona görə də, kənddəki evlərin hamısı çaydan xeyli aralıda, bir qədər hündürlükdə yerləşirdi.

Fərhadgilin evi kəndin ən hündür hissəsində yerləşirdi. Evdən baxanda qarşıda əsrarəngiz bir mənzərə açılırdı; uzaqda, hündür dağların başında ilin on iki ayı qar görünür, iki dağın arasından hündür şəlalə axırdı. Şəlalənin çaya töküldüyü yerdə sanki xüsusi hazırlanmış bir hovuz əmələ gəlmişdi və bura yay vaxtı kənd uşaqlarının ən sevdiyi məkana çevrilirdi. Uzaqdan baxanda şəlalə ağdonlu bir gəlin surətini xatırladırdı. Tanrının xəlq etdiyi ən istedadlı rəssam – təbiət elə bil ki bu tablonu kənd camaatına gözəllik bəxş etmək üçün yaratmışdı.

Kənddə cəmi 20-25 ev var idi, buna görə də hamı bir-birini tanıyır, birinin xoş günündə birlikdə sevinir, bəd günündə birlikdə üzülürdü. Kənddə məktəb olmadığı üçün bu kəndin uşaqları nisbətən böyük bir kəndin məktəbinə gedirdilər. Kəndlər arasında məsafə xeyli uzaq olduğundan uşaqlar əziyyət çəkə-çəkə iki kənd arasında qalmışdılar (bir neçə dəfə rayon təhsil şöbəsinə müraciət edilməsinə baxmayaraq, uşaqları aparıb-gətirmək üçün avtobus ayrılması mümkün olmamışdı). Onlar məktəbə getmək üçün çayın o tayına keçməli idilər. Yaz vaxtlarında elə olurdu ki, günlərlə leysan yağır, yağış kəsmək bilmirdi. Belə vaxtlarda sel gəlir, yollar keçilməz hala düşür, gediş-gəliş həddindən artıq çətinləşirdi. Çox vaxt elə olurdu ki, uşaqlar gündə iki-üç saat yolda olurdular.

Fərhad ali məktəbi yenicə bitirib kəndə qayıtmışdı və həmin məktəbdə riyaziyyat müəllimi işləyirdi. Ali məktəbi qurtardıqdan sonra dağ rayonuna – ucqar bir kəndə qayıtmaq istəyənlər həddindən artıq az olduğundan məktəbdə müəllim qıtlığı hökm sürürdü. Buna görə də, Fərhad riyaziyyat dərsləri ilə yanaşı fizika dərsi də deyirdi. O, həftənin beş günü səhərdən axşama qədər vaxtını məktəbdə keçirirdi. Fərhad yalnız dərs deməklə kifayətlənmir, məktəbdə mədəni həyatın inkişafına çalışır, müxtəlif dərnəklər təşkil edir, yarışlar keçirir, şagirdləri dərsdən sonra da müxtəlif tədbirlərə cəlb etməklə məktəb həyatını canlandırırdı. Onun təşəbbüsü ilə məktəbdə bir kitabxana təşkil edilmişdi. Fərhad tələbə vaxtı topladığı kitabları həmin kitabxanaya hədiyyə etdikdən sonra kəndin bir sıra adamları da evlərindən kitabxanaya xeyli sayda kitab vermişdilər. Fərhadın səyi nəticəsində qısa müddət ərzində məktəb nəinki həmin kəndin, eləcə də ətraf kəndlərin mədəniyyət mərkəzinə çevrilmişdi. Uşaqlarla işləməkdən, ümumiyyətlə, öz sənətindən zövq alan Fərhad qısa müddət ərzində kənd camaatı arasında böyük hörmət qazandı. Onun insani keyfiyyətləri, işgüzarlığı və əməksevərliyi haqqında insanlar arasında hər imkanda danışılır, başqalarına nümunə kimi göstərilirdi. Hər kəs onu barmaqla göstərir, gənc qızlar gizlicə ona göz qoyur, atalar belə bir oğula, analar belə bir kürəkənə sahib olmağı arzulayırdılar. Artıq elə olmuşdu ki, kənddə baş tutan hər toy, nişan məclislərində Fərhad ev yiyəsinin ən əziz və hörmətli qonaqları arasında yer alırdı. Kəndin ən zəngin adamı hesab olunan Ziyəddin kişi (onun iki oğlu Rusiyada bizneslə məşğul idi) Fərhad müəllimə xüsusi hörmət əlaməti olaraq bir Qarabağ atı da bağışlamışdı. Fərhad bu ata xüsusi bir sevgi bəsləyirdi. Atın qızılı yalmanı, gün düşəndə par-par yanan beli, alnının qaşqası, ayaqlarının şəkili, göz oxşayan sağrısı, hələ rəvan yerişi... Fərhad ruha sığal çəkən bu gözəlliyə vurulmuşdu. Atın belinə qalxanda özünü təbiətin bir parçası bilirdi.

***

Günəşli bir gün idi. Fərhad səhər saat yeddidə atını minib evdən çıxdı. Çayı keçib yenicə yola düzəlmişdi ki, qulağına bir səs gəldi. Dönüb ətrafı dinşədi. Sakitlik idi. Yoluna davam etmək istəyəndə yenidən həmin səsi eşitdi. Sanki körpə uşaq ağlayırdı. Fərhad atın başını çəkdi, səs gələn tərəfə getdi. Səs getdikcə yaxınlaşırdı. Qabaqda bir qaya görünürdü, deyəsən, səs də o qayanın yanından gəlirdi. Fərhad qayaya yaxınlaşdı, yerindəcə donub qaldı. Qayanın dibində güllü adyala bükülmüş bir uşaq ağlayırdı. Cəmi 5-6 aylıq olardı. Fərhad dönüb ətrafa baxdı, heç kim yox idi. Uşağın yanında bir əmzik və bir şüşə yemək vardı. O, əmziyi körpənin ağzına verdi, uşaq dərhal kiridi. Fərhad hündürdən: Kimsə varmı, bu kimin uşağıdır – deyə çağırmağa başladı. Lakin öz səsinin sıldırım qayalardan dönən əks sədasından başqa, heç nə eşitmədi. Fərhad qayanın dibində oturub körpəyə yemək verdi. Uşaq acgözlüklə yeməyə başladı, qarnını doyurduğu üçün kefi kökəlmişdi, Fərhadın əlindən möhkəm-möhkəm yapışdı. Fərhad uşağı əllərinə alıb başı üzərinə qaldırdı. Bu bir qız uşağı idi. Fərhad başa düşdü ki, uşaq valideyni tərəfindən atılmışdır. O: Vicdansızlar, insanlıqdan məhrum edilmişlər, bu uşağın günahı nədir axı?– deyə qızcığazı bir ata nəvazişi ilə bağrına basdı, adyala büküb götürdü. Fərhad məktəbə getməyib evə qayıtdı. Başına gələnləri anasına danışdı. Anası uşağın valideynlərinin ünvanına deyinə-deyinə onu qucağına aldı, üz-gözündən öpərək əzizlədi. İsti su hazırlayıb çimizdirdi. Uşaq rahatlaşmışdı. Başına gələnlərdən xəbərsiz, əl-ayağını oynadaraq qığıldayır, mələk kimi gülümsəyirdi.

Fərhadın atası və beşyaşlı bacısı dörd il əvvəl avtomobil qəzasında dünyasını dəyişəndən sonra ilk dəfə idi ki, evlərində körpə gülüşü eşidilirdi. Balaca qızcığazın gəlişi ailəyə yeni sevinc, yeni bir ruh gətirmişdi. Qısa müddətdə körpəyə o dərəcədə bağlandılar ki, artıq evlərini onsuz təsəvvür edə bilmirdilər. Fərhad rayon təhsil şöbəsi müdirinin köməyi ilə uşağa doğum şəhadətnaməsi aldı. Adını Afət qoydular. Sənəddə uşağın kimliyi Afət Fərhad qızı olaraq göstərilmişdi.

***

Aylar dolandı, illər keçdi. Fərhad otuz yeddi yaşına çatdı. Hələ evlənməmişdi. İki il əvvəl anası xərçəng xəstəliyindən dünyasını dəyişmişdi. Anasının vəfatından sonra mehrini saldığı yeganə varlıq Afət idi. Afət on altı yaşına çatmış, cavanların ürəyinə od salan gözəl-göyçək bir qız olmuşdu. Afət həm məktəbə gedir, həm də ev işləri ilə məşğul olurdu. Təxminən saat 3-də o artıq evdə olurdu, Fərhad qayıdana kimi yemək hazırlayır və dərslərini oxumağa çalışırdı. Fərhad evə gəldikdən sonra Afət bütün diqqətini ona verirdi.

Axşam saat səkkiz olardı. Fərhad müəllim yoldaşlarının birinin qızının nişan məclisindən gəlmişdi. Ümumiyyətlə, spirtli içki içməkdən heç xoşlanmayan Fərhad bu gün bir qədər içmişdi. Az içməsinə baxmayaraq, içki ona çox pis təsir etmiş, deyəsən, xeyli dəmlənmişdi. İçəri girən kimi Afət qabağına qaçdı, çantasını əlindən alıb bir tərəfə qoydu. Fərhad: Bir az yorulmuşam – deyib, yataq otağına keçdi. Afət tez qaçıb ləyən, qəhvədan gətirdi, Fərhadın etiraz etməsinə baxmayaraq, həmişə olduğu kimi, ayaqlarını yudu və: Bax, indi rahat-rahat yata bilərsən – deyib, yatağını hazırladı. Fərhad onun başını sığalladı: Sən olmasan mən neylərəm – deyərək, alnından öpdü. Afət ləyən və qəhvədanı götürüb yan otağa keçdi. Fərhad o qədər yorulmuşdu ki, uzanan kimi yuxuya getdi.

Gecə saat iki radələrində yuxudan ayıldı. Mətbəxə keçdi, soyuducudan kompot götürüb içdi, geri qayıdıb otağına keçmək istədi. Afətin otağının qapısı aralı idi, gözləri onun çarpayısına sataşdı. Afət iki əlini birləşdirib başının altına qoymuş, sağ çiyni üstündə yatmışdı. Üstü açıq idi. Fərhad onun üstünü örtmək üçün yaxınlaşdı, gözləri qızın pambıq kimi ağ baldırlarına sataşdı, bir anlığa ayaq saxladı, gözlərini Afətin uzun, ətli baldırlarından çəkə bilmədi. Hətta bir qüvvə onu başını bu maya kimi bəyaz baldırlara tərəf əyməyə məcbur etdi. Lakin Fərhad özündə iradə tapıb dayana bildi və cəld qızın üstünü örtüb otaqdan çıxdı.

Fərhad səhər tezdən durdu. Gecə beynindən keçən fikirlərə görə özünü möhkəm danladı. Bunun keçici bir hiss olduğuna özünü inandırmağa çalışdı. Üstəlik, gecə içkili olmuşdu. O, Afət durmamış,

səhər yeməyi yemədən evdən çıxdı. O gün Fərhad məktəbdə həddindən artıq fikri dağınıq halda idi. Müəllimlər otağında gözlərini bir nöqtəyə zilləyib durur, heç kimlə danışmırdı. Afətin surəti gözünün qabağından getmirdi. İçində nələr baş verdiyini anlamaqda çətinlik çəkirdi. Amma bir şeyi dəqiq bilirdi; hansısa bir qüvvə, bir hiss onun iradəsini qırmağa çalışırdı.

Artıq Fərhad Afətin gözlərinə həmişəki kimi baxa bilmirdi. İndi bu baxışlarda bir ata nəvazişi deyil, odlu məhəbbətin hərarəti hiss edilirdi. İndi o, özündən asılı olmayaraq, Afətə tamam fərqli gözlə baxır, əlini əlinə aldıqda başqa hisslər keçirirdi. Və bütün bunlar onun dəmir kimi möhkəm iradəsinin əksinə baş verirdi. Bədbəxtlikdən, Afət heç nədən xəbərsiz tez-tez onun yanına gəlir, qucağında oturur, boynunu qucaqlayır, öpür, saçlarını sığallayırdı. Fərhad da ona qarşılıqlı hərəkətlərlə cavab verir, özü də hiss edirdi ki, o, indi Afəti başqa cür qucaqlayır, ona başqa cür nəvaziş göstərir, onu başqa hisslərlə öpürdü. O, Afətin dodaqlarından öpməmək üçün özünü zorla saxlayırdı. Fərhad bunun uzun müddət belə davam edə bilməyəcəyini hiss edir və o anın gələcəyindən qorxurdu.

... Fərhad Afətə vurulmuşdu və ən təhlükəlisi isə, onun var gücü ilə müqavimət göstərməsinə baxmayaraq, bu ehtiras gündən-günə daha da güclənir, alovlanırdı. İndi o, gecələr Afətin soyunub öz yatağına girməsini gizlicə izləyir, ona baxmaqdan doymur, əli əlinə toxunduqca həyəcandan titrəyirdi.

***

Artıq vəziyyət dözülməz hal almışdı. Fərhad öz hissləri ilə heç cür bacarmır, ehtiraslarını boğa bilmirdi. Ürəyini boşaldıb məsləhət almaq üçün də özünə yaxın hesab elədiyi bir adam yox idi.

Axşam idi. Bir az tək qalıb, fikrini cəmləşdirmək üçün atını minib dağın döşünə qalxdı. Ay hər tərəfi öz füsunkar nuruna qərq etmişdi və hündürlükdən kəndin bütün evləri qızılı rəngə boyanmış kimi görünürdü. Fərhad xeyli, elə atın üstündəcə, bu əsrarəngiz mənzərəni seyr etdi. Özündən asılı olmayaraq, gözlərindən iki damla yaş muncuq kimi süzüldü. O, sol əlinin işarət barmağı ilə gözünün yaşını sildi, atdan düşüb balaca bir daşın üstündə oturdu. Öz-özünü sakitləşdirmək istədi, nə qədər çalışsa da, içində hayqıran təlatümlə bacarammadı. Fərhad odla su arasında qalmışdı. Bir tərəfdən, Afətin onu doğma atası bilməsi, camaat arasında qazandığı hörmət, insanların ona, onun bütün hərəkətlərinə örnək kimi baxması, digər tərəfdən də, baş verə biləcək hadisələrdən sonra elə həmin insanların ona necə nifrət edəcəyi, onun indi, əvvəlkindən fərqli mənada, yenidən barmaqla göstəriləcəyi kimi fikirləri beynindən keçirdikcə az qalırdı ki, ürəyi dayansın. İki il əvvəl baş tutmuş bir məclisdə öz müəlliminin onun haqqında dediyi sözlər yadına düşdü.

... Fərhad məktəbə direktor təyin edildiyi günün axşamı kənd soveti sədrinin evində onun şərəfinə bir ziyafət təşkil edilmişdi. Ziyafətdə kəndin ən qabaqcıl adamları, eləcə də rayon mərkəzindən dəvət edilmiş bir neçə vəzifəli şəxs iştirak edirdilər. Həmin məclisdə qocaman müəllimlərdən biri Fərhadın sağlığına badə qaldırmışdı: "Mən Fərhad müəllimə bu məktəbdə dərs demişəm. O mənim ən sevimli şagirdlərimdən biri olub. İndi onunla bir məktəbdə işləmək mənə xüsusi zövq verir və mən bundan böyük qürur hissi duyuram. Kəndimizə müəllim olaraq qayıtdığını eşidəndə hədsiz sevindim, çünki belə bir zəmanədə gənclərin, əsasən, şəhərə can atdıqları bir vaxtda Fərhadın doğma kəndinə üz tutması, bir daha onun daxili aləminin zənginliyindən, el-obaya, torpağa bağlılığından xəbər verir. Fərhad həmişə başqalarından fərqlənirdi. O həm dünyagörüşü, həm çalışqanlığı, həm də yoldaşlarına münasibətilə həmişə mənim diqqətimi çəkirdi. İllər Fərhad müəllimi daha da kamilləşdirdi, onun zahirini gözəlləşdirdiyi kimi, daxili dünyasını da zənginləşdirdi. Bu mənada, Fərhad müəllimin tanımadığı, bilmədiyi, amansızcasına ölümün qucağına atılmış bir uşağa qarşı mərhəməti, çətinliklərə baxmayaraq, öz varlığını unudub bütün həyatını ona sərf etməsi, Afəti öz doğma övladı kimi böyütməsi isə sözlərlə ifadə edilə bilməz. Mən onun gözəl qəlbi qarşısında baş əyirəm. Məncə, Fərhad müəllim bu hərəkəti ilə bütün insanlara bir insanlıq dərsi vermişdir. Tanrı onu qorusun!"

Fərhad diksindi. İlahi! O, indi insanların üzünə necə baxacaq, illərlə yığılan bu hörmət, insanların etimadı, sevgisi bircə anda puça dönəcək, bir zamanlar hamının qürur qaynağı olan Fərhad indi

hamının qınağına çevriləcəkdi...

Fərhad saatına baxdı. Artıq gec idi. Hiss etdi ki, hava da soyuyur. Dağ yerlərində tez-tez olduğu kimi birdən-birə göyün üzünə qara buludlar yığışmağa başladı, deyəsən yağış yağacaqdı. Fərhad evə döndü. Afət qonaq otağında televizora baxa-baxa, pişik kimi qıvrılıb yatmışdı. Fərhad uzun müddət başının üstündə durub ona tamaşa elədi. Afəti tapdığından bu yana onun bütün həyatı kino lenti kimi gözlərinin önündən gəlib keçdi. Fərhad göz yaşlarına hakim ola bilmədi, əyilib Afətin alnından öpdü və ağlaya-ağlaya öz otağına keçdi.

İndi Fərhadı ən çox narahat edən Afətin gələcəyi idi. Fərhad təxminən bir ay əvvəl Nurəddin müəllimlə aralarında olan bir söhbəti xatırladı:

... Otağında oturub kitab oxuyurdu. Afət içəri girdi: "Ata, Nurəddin müəllimdir, səni istəyir". Fərhad ayağa qalxdı, Nurəddin müəllimi hörmətlə qarşılayıb, otağa dəvət etdi. Nurəddin müəllim Fərhadın qapıbir qonşusuydu və uzun illər eyni məktəbdə ədəbiyyat müəllimi işləmişdi. Məktəbin ən hörmətli müəllimlərindən sayılırdı. Ömür yoldaşını faciəli şəkildə itirdikdən sonra ağır sarsıntı keçirmişdi və müəllimlikdən imtina etmişdi. İndi o, həyətində gözəl bağ-bağça salmışdı və bütün vaxtını bağa qulluq etməklə keçirirdi. Nurəddin müəllim bir az ordan-burdan danışdı və nəhayət bir qədər ciddi görkəm alaraq dilləndi: "Nazimin anası rəhmətə gedəndən sonra evlənmədim, bütün həyatımı oğluma həsr etdim. Nazim ali məktəbi bitirib qayıtdı. Rayon maliyyə şöbəsində işləyir. Dolanışığımız da, Allaha şükür, pis deyil. Düşünürəm ki, indi onun evlənmək vaxtı çatıb. Elə mənim də artıq nəvələrlə oynamaq vaxtımdır. Etiraz etməsən, Allahın əmri, Peyğəmbərin buyruğu ilə qızın Afəti oğlum Nazimə istəyirəm. Bildiyim qədər onların da gözü bir-birini tutub. Nə deyirsən?" Fərhadın başından elə bil qaynar su tökdülər: "Siz nə danışırsınız, Nurəddin müəllim. Afətin ərə gedən vaxtıdırmı? Xahiş edirəm, bu söhbətimiz burda da bitsin. Bir daş altda, bir daş da üstdə. Bir də bu söhbətə qayıtmaq istəmirəm".

O gün Nurəddin müəllim Fərhadın belə sərt münasibətindən bir az incisə də, bu, qonşuluqlarına ciddi xələl gətirmədi və o, münasib bir zamanda məsələyə yenidən qayıtmağı düşünürdü.

***

Göy gurultusunun səsi Fərhadı fikrindən ayırdı. Pəncərəyə yaxınlaşdı. Eşik qapqaranlıq idi. Çaxan şimşək bir anlığa göy üzünü işıqlandırsa da, yenidən hər yana zülmət çökdü. Yağış getdikcə güclənirdi.

Fərhadın beynindən qorxunc fikirlər keçməyə başlamışdı. O bu fikirləri qovmaq üçün yatmağa çalışdı. Amma elə bil yuxusu ərşə çəkilmişdi, gözlərinə yuxu getmədi; ilan vuran yatdı, Fərhad yata bilmədi. O, otaqda var-gəl edir, özünü sakitləşdirməyə çalışırdı. Lakin artıq ixtiyarı öz əlində deyildi, Afətə olan sevgisi vicdanının səsi qarşısında təslim olmuşdu.

Fərhad yazı stoluna yaxınlaşdı. Titrək əlləri ilə kağız-qələm götürüb nə isə yazdı. O, artıq son qərarını vermişdi. Zirzəmiyə endi, atasından qalan ov tüfəngini götürdü. İçini yoxladı, bircə güllə qalmışdı: Bu mənim yeganə çıxış yolumdur – deyib, tüfəngi ürəyinə tuşladı. Gözlərini yumub tətiyi çəkdi...

Səsə Afət oyandı. Qonşudan təlaş içində Nurəddin müəllim və oğlu Nazim gəldilər. Yerlərindəcə donub qaldılar. Nurəddin müəllim Afəti qucaqlayıb, bu qanlı mənzərəni görməsin deyə bağrına basdı. Afət hönkürərək qan-yaş tökürdü.

Tezliklə qonum-qonşu yığıldı. Səs bütün ətrafa yayıldı. Hər tərəfdən adamlar axışmağa başladılar. Fərhadın cansız bədənini taxtın üstünə uzatdılar. Açıq gözlərində iki damla yaş gilələnib qalmışdı. Nurəddin müəllim onun gözlərini qapadı, köynəyinin cibindəki kağız parçası diqqətini cəlb etdi. Götürüb açdı: "Əzizim Nurəddin müəllim, Nazimlə Afətə xeyir-duamı verirəm. Xoşbəxt olsunlar".

"Niyə, nə üçün?" – Nurəddin müəllimin dodaqlarından bir sual qopdu.

Fərhadın intihar etməsinin əsl səbəbini isə, oxucum, səndən başqa, heç kim bilmədi.

*İyun 2020-ci il*
*Buzovna*



# XƏZƏR UNİVERSİTETİNİN DEPARTAMENT MÜDİRİ NURU SƏFƏROV VƏFAT ETMİŞDİR

Xəzər Universitetinin kollektivinə ağır itki üz vermişdir. Universitetin Təbiət elmləri və mühəndislik fakültəsinin Elektronika və telekommunikasiya departamentinin müdiri, fizika - riyaziyyat üzrə fəlsəfə doktoru, yarımkeçiricilər fizikası sahəsində mütəxəssis Nuru Səfərov 2021-ci il iyunun 9-da qəfil xəstəlikdən sonra ömrünün 55-ci ilində vəfat etmişdir.

Nuru Səfərov 1966-cı il oktyabrın 18-də Azərbaycan Respublikası Neftçala rayonunun Xəzər kəndində anadan olub.

1983-cü ildə Bakı şəhəri 1№-li fizika-riyaziyyat təmayüllü orta məktəbi bitirib. Həmin ildə Ukrayna Respublikasındakı Dnepropetrovsk Dövlət Universitetiin Radiofizika fakultəsinə qəbul olunub, 1988-ci ildə oranı radiofizika və elektronika ixtisası üzrə bitirib.

1988-ci ildə Azərbaycan Respublikası Elmlər Akademiyası Fizika İnstitutunun "Registr" xüsusi konstruktor bürosunda mühəndis vəzifəsində əmək fəaliyyətinə başlayıb. 1990-1994-cü illər ərzində Fizika institutunun aspiranturasında əyani təhsil alıb. 1997-ci ildə dissertasiya işini müdafiə edərək, fizika-riyaziyyat elmləri namizədi alimlik dərəcəsinə layiq görülüb.

Nuru Səfərov 1997-ci ildən Xəzər Universitetində çalışmağa başlayıb. Həmin ilin dekabrında Tətbiqi və tibbi fizika depatamentinin Tədris-təcrübə laboratoriyasının müdiri təyin edilmişdir. 1998-ci ilin sentyabrından həm də müəllim kimi çalışmışdır. 2011-ci ilin sentyabrında Elektronika və telekommunikasiya departamentinin müdiri təyin edilmiş və ömrünün sonunadək bu vəzifədə çalışmışdır.

Nuru Səfərov 2007-ci ildə Beynəlxalq Ekoenergetika Akademiyasının professoru adına layiq görülüb. 70-ə yaxın elmi məqaləsi var, 5 ixtira müəllifidir.

Nuru Səfərov Xəzər Universitetində çalışdığı müddətdə özünü peşəkar mütəxəssis, səriştəli departament müdiri, diqqətli həmkar, qayğıkeş müəllim kimi göstərmiş və xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaqdır.

Allah rəhmət eləsin!

**Xəzər Universitetinin kollektivi**

**ALLAH RƏHMƏT ELƏSİN!**

Xəzər Universitetinin kollektivi universitetin əməkdaşı

**Vahid Kazımovun**

vəfatından kədərləndiyini bildirir və ailəsinə dərin hüznlə başsağlığı verir.
Allah rəhmət eləsin!

# QƏBUL QAYDALARI

## DÜNYA MƏKTƏBİ

Mektebe qebul müsabiqe yolu ile heyata keçirilir. Müsabiqede iştirak etmek üçün mektebe gelmekle, bize zeng etmekle ve ya online qeydiyyatdan keçe bilersiniz.

**http://e.dunyaschool.az/sagirdqebul/**

Müsabiqədə şagirdlərin təhsil aldıqları sinfə uyğun bilik səviyyəsi, sağlamlığı, maraq dairesi esas götürülür. Her bir şagirdin ferdi xüsusiyyətlərini öyrənmək üçün valideynlərlə söhbətlər aparılır.

Qebul imtahanında en yüksek netice gösteren VIII-XI sinif şagirdləri təqaüd imkanı qazanırlar.

İngilis bölmesinde tedris Beynəlxalq Bakalavr Təşkilatının (IB) ibtidai (PYP), orta məktəb (MYP) və Diplom proqramları (DP) əsasında qurulur. Diplom proqramında təhsil müddeti iki ildir (X,XI siniflər).

Azerbaycan ve rus bölmelerinde ingilis dili ikinci dil kimi beynəlxalq standartlara uyğun tədris olunur. Şagirdlərin seçimi ilə fransız, alman ve ya çin dili de öyredilir.

Dünya məktəbində fikirləşməyi öyrətmək prinsipi əsas götürülür ve tedris prosesinin teşkili bu yönümde qurulur. Siniflərdə şagird sayının az olması hər bir şagirdə fərdi yanaşmağa imkan yaradır.

Sağlam esaslar üzerinde qurulmuş ciddi nizam-intizam telim-terbiye prosesinin yüksek seviyyede teşkiline kömek edir.

## DÜNYA ANA MƏKTƏBİ

Ana Məktebine qebul zamanı her bir uşağın ferdi xüsusiyyetlerini öyrenmek üçün mektebin psixoloqu valideynlerle ferdi söhbetler aparır. Uşaqlar psixoloji müayineden ve hekim müayinesinden keçirilir. Uşaqların sağlamlığı, normal qavrama qabiliyyeti, selis nitqi ve maraq dairesi esas götürülür. Mektebe qebul edilecek şagirdler "Şagird qebulu üzrə məktəbdaxili komissiya"nın rəyi əsasında müeyyen edilir ve mekteb rehberinin emri ile resmileşdirilir.

Qebul üçün teleb olunan senedler:

- Ərizə
- 4 eded fotoşekil (3x4, rengli)
- Doğum haqqında şəhadətnamənin surəti
- Tibbi arayış
- Yaşayış yeri haqqında arayış
- Valideynin iş yeri haqqında arayış

**ÜNVAN**
Əcəmi Naxçıvani 9

**TELEFONLAR**
+994 12 563 59 40/47/48
+994 55 632 95 28

**XƏZƏR UNİVERSİTETİ**

HƏR GÜN, HƏR SAAT MÜKƏMMƏLLİYƏ DOĞRU!

# NİYƏ XƏZƏR UNİVERSİTETİ?

- Diplomların bütün xarici ölkələrdə tanınması
- Dövlət sifarişi əsasında təhsil almaq imkanı
- Eyni vaxtda 2 ixtisas üzrə təhsil almaq imkanı
- Təhsil haqqının Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin (keçmiş TQDK) imtahanlarında yığılan ballara uyğun olaraq ödənilməsi
- Təhsil haqqının hissə-hissə ödənilməsi
- Zəngin kitabxana, innovativ laboratoriyalar, müasir informasiya-kommunikasiya texnologiyaları infrastrukturunun varlığı
- Dövlət sifarişi və ya ödənişli təhsil almalarından asılı olmayaraq, təhsildə göstərdikləri nailiyyətlərə görə təqaüd almaq imkanı
- Əlavə ödəniş etmədən təhsilinin bir hissəsini Amerika, Avropa və Asiyanın tanınmış ali məktəblərində davam etdirmə imkanı
- Keyfiyyətli və əhatəli tələbə xidmət sistemi (həkim, psixoloji mərkəz, karyera-işə düzəlmə mərkəzi və s.)
- Yüksək standartlara cavab verən müasir yataqxana

## TƏHSİL HAQQININ ÖDƏNİLMƏSİNDƏ GÜZƏŞTLƏR

650-700 bal - təhsil haqqından tam azad edilir
600-649 bal - təhsil haqqının ödənilməsində 50% güzəşt edilir
550-599 bal - təhsil haqqının ödənilməsində 40% güzəşt edilir
500-549 bal - təhsil haqqının ödənilməsində 25% güzəşt edilir
450-499 bal - təhsil haqqının ödənilməsində 20% güzəşt edilir
400-449 bal - təhsil haqqının ödənilməsində 15% güzəşt edilir
350-399 bal - təhsil haqqının ödənilməsində 10% güzəşt edilir

Uğurlu karyera qurmaq, təhsildən zövq almaq və yadda qalan tələbə həyatı yaşamaq istəyirsən?

**Xəzər Universitetini seç!**

## BAKALAVR SƏVİYYƏSİNDƏ İXTİSASLARIMIZ

### 1 QRUP

* Kompüter elmləri
* Kompüter mühəndisliyi
* Neft-qaz mühəndisliyi
* İnşaat mühəndisliyi
* Radiotexnika və telekommunikasiya mühəndisliyi
* Elektrik və elektronika mühəndisliyi
* Kimya mühəndisliyi
* Mexanika mühəndisliyi
* Riyaziyyat və informasiya müəllimliyi
* Fizika müəllimliyi

### 2 QRUP

* Mühasibat
* Maliyyə
* İqtisadiyyat
* Menecment
* Marketinq
* Biznesin idarə edilməsi
* Turizm işinin təşkili
* Regionşünaslıq (Avropa)
* Beynəlxalq münasibətlər
* Coğrafiya müəllimliyi

### 3 QRUP

* İngilis dili və ədəbiyyatı
* Azərbaycan dili və ədəbiyyatı
* Tərcümə (ingilis dili)
* Politologiya
* İngilis dili müəllimliyi
* Azərbaycan dili və ədəbiyyatı müəllimliyi
* İbtidai sinif müəllimliyi
* Tarix müəllimliyi
* Tarix və coğrafiya müəllimliyi

### 4 QRUP

* Kimya müəllimliyi
* Biologiya müəllimliyi
* Kimya və biologiya müəllimliyi
* Psixologiya
* Baytarlıq təbabəti

### 5 QRUP

* Dizayn
* Təsviri incəsənət müəllimliyi